ƏLİ EYVAZOV

# BİR BATALYONUN TARİXİ



**Əli Eyvazov**

# BİR BATALYONUN TARİXİ:

**Hadisələr. İnsanlar. Faktlar.**

**(Sənədli povest)**

NURLAR
BAKI–2010

KBT 63.3(5AZE)
E 96

**Tərtibçi–müəllif:** Əli Eyvazov
**Elmi məsləhətçilər:** Lətifə Məmmədova
Samirə Eyvazova
**Elmi redaktor:** Fazil Qaraoğlu
**Ön sözün müəllifi:** Esmira Fuad (Şükürova)
**Redaktorlar:** Yeganə Sadıqlı
Xuraman İsmayılova
Samir Abbasov
**Məsləhətçilər:** İsmət Cəfərov
İsmayıl Babayev

**Buraxılışa məsul:** Tahir Sadıqov

**Ə.Eyvazov. Bir batalyonun tarixi: Hadisələr. İnsanlar. Faktlar**
Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2010, 240 s. şəkilli

Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-cü il 2 noyabr tarixində xalqa müraciətindən sonra təşkil olunmuş Quba-Qusar könüllülərindən ibarət batalyonun yaranması, erməni təcavüzkarlarına qarşı batalyon igidlərinin ölüm-dirim mübarizəsi, sıravi əsgərdən tutmuş zabitə kimi hər bir döyüşçünün düşmənə nifrət hissi ilə torpaqlarımızın qorunması uğrunda apardığı döyüşlər haqqında sənədli materiallar öz əksini tapır. Quba-Qusar batalyonu haqqında tarixi həqiqətləri əks etdirən ilk, bir qədər də romantik yazılmış bu əsərdə, bəlkə də hələ bəlli olmayan məlumatlar, tarixi faktlar və sənədlər öz əksini tapmamışdır.

Odur ki, oxuculardan, sabiq döyüşçülərdən kitab haqqında öz fikirlərini bildirməyi, bu batalyon barədə kitabda öz əksini tapmayan əlavə məlumatlar, tarixi sənədlər və faktlar varsa, onları çatdırmağı xahiş edirik. Çünki tarixi biz yaradırıq. Ona görə də həqiqəti xalqa çatdırmaq, baş verənlər barədə soydaşlarımızı xəbərdar etmək, Vətən uğrunda həlak olan şəhidlərimizin ruhu qarşısında mənəvi borcumuzdur.

ISBN: 978 – 9952 – 450 – 74 – 3

© Ə.Eyvazov, 2010

*Şəhidlərin əziz xatirəsinə ithaf olunur.*




**23 saylı könüllü Quba-Qusar batalyonunun döyüş bayrağında erməni vandalizminin izləri**



**Quba şəhərinin Şəhidlər xiyabanı**

# AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN AZADLIQ, İSTİQLALİYYƏT, VƏTƏNPƏRVƏRLİK, VƏTƏNİN ƏRAZİ BÜTÖVLÜYÜNÜN QORUNMASI, QƏHRƏMANLIQ, İGİDLİK, ŞƏHİDLİK HAQQINDA MÜDRİK KƏLAMLARI

*Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!*

* * *

*Azərbaycan xalqı qəhrəman xalqdır. Onun tarixində igidlik ənənələri həmişə güclü olmuşdur. Xalqımız öz qəhrəmanları ilə daim fəxr etmişdir. Azərbaycan xalqının qüdrəti bu gün də itməmişdir.*

* * *

*Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır.*

* * *

*Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir!*

* * *

*Mən bu gün sizin önünüzdə çıxış edərək şəhid olmuş azərbaycanlıların ruhu qarşısında baş əyirəm, onların ailələrinə, qohum-əqrəbalarına başsağlığı verirəm.*

* * *

*...İki ildən artıqdır ki, Azərbaycan Respublikası müstəqil bir dövlətdir. Bu iki il müddətində müstəqil dövlətimiz öz müdafiə qüvvələrini, öz ordusunu yaratmalı idi. Bundan ötrü Azərbaycan Respublikasının bütün imkanları vardı. Ordunu bir gündə, beş gündə, bir ayda, üç ayda yaratmaq mümkün deyil. Ancaq iki il, üç il müddətində ordu da yaratmaq, Azərbaycanın etibarlı müdafiəsini təşkil etmək və ərazi bütövlüyünü də təmin etmək mümkün idi.*

* * *

*Tarix həmişə hər şeyi öz yerinə qoyur.*

* * *

*Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, onun suverenliyini, müstəqilliyini qorumaq hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır.*

* * *

*Azərbaycanın gərək etibarlı müdafiəsi olsun. Biz işğalçılıq, qəsbkarlıq siyasəti yeritmirik. Biz sadəcə olaraq torpaqlarımızı özümüzə qaytarmalıyıq, işğal edilmiş ərazilərimizi geri almalıyıq. Azərbaycanın ərazi bütövlüyünü təmin etməliyik. Bu, haqq işidir. Biz bu haqq yolda bütün imkanlardan istifadə etməliyik.*

* * *

*...Ordumuz ancaq Azərbaycanı müdafiə etmək məqsədi daşıyır. İşğalçılıq məqsədi daşımır. Bizim işimiz haqq işidir, gərək hər bir vətəndaş bunu özünün şərəfli borcu kimi qəbul etsin.*

* * *

*Bu torpaq hamımızındır – təkcə orada yaşayan adamların, təcavüzə məruz qalanların deyil, bütün Azərbaycanın torpağıdır.*

* * *

*Danışıqlar yolu ilə atəşkəsin davam etdirilməsinə nail olmağa çalışacağıq. Məsələlərin sülh yolu ilə həll edilməsinə bundan sonra da üstünlük verəcəyik.*

* * *

*...İndi Azərbaycanda hamıda Vətəni müdafiə əhval-ruhiyyəsi olmalıdır.*

* * *

*Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.*

* * *

*Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır.*

* * *

*Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.*

* * *

*Müstəqillik yolu qədər çətin yol yoxdur.*

* * *

*Tariximizin hər səhifəsi bizim üçün əzizdir.*

* * *

*Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.*

* * *

*Tariximiz bizim üçün dərs olmalıdır.*

* * *

*Tarix heç nəyi silmir.*

* * *

*Müdafiə qüvvələrini möhkəmləndirmək üçün Azərbaycanda bütün mənəvi-psixoloji vəziyyət dəyişməlidir.*

* * *

*...Mən prezident kimi Azərbaycan Respublikasında siyasi dünyabaxışından asılı olmayaraq bütün qüvvələri əl-ələ verib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa dəvət edirəm.*

* * *

*İndi Azərbaycan üçün bir amal, bir məqsəd var: Azərbaycanı bu ağır vəziyyətdən xilas etmək, onun ərazi bütövlüyünü, müdafiəsini təmin etmək. Kimin əlindən nə gəlirsə, bu amal, bu məqsəd naminə etməlidir.*

* * *

*Hamımız üçün bir böyük məfhum var: Azərbaycan Respublikası, Azərbaycan xalqı. Bu məfhumun ətrafında hamı sıx birləşməlidir.*

* * *

*...Azərbaycan dövləti özünü və respublikanı qorumağa qadirdir.*

* * *

*Azərbaycan xalqının potensialı – həm qəhrəmanlıq, həm döyüşkənlik, həm də intellektual potensialı böyükdür. Biz bu potensialdan səmərəli istifadə etməliyik.*

* * *

*Torpaqlarımızın etibarlı müdafiəsi üçün bu ənənələrdən istifadə olunmalıdır.*

* * *

*Azərbaycanın böyük gücü, potensialı, xalqımızın zəngin qəhrəmanlıq ənənələri – bunların hamısı birləşdirilməlidir. Bütün imkanlardan istifadə edərək Azərbaycanın işğal olunmuş torpaqlarını geri qaytarmağa bizim imkanımız var.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQININ MİLLİ DÜŞÜNCƏSİ, ORDU QURUCULUĞU, ÖLKƏMİZİN İNKİŞAFI HAQQINDA

*Məqsədimiz ölkəmizi inkişaf etdirməkdir.*

* * *

*Azərbaycanın inkişafı uğurlu, dayanıqlı və uzun müddətli olacaqdır.*

* * *

*Ölkəmiz güclənir, yeniləşir, müasirləşir.*

* * *

*Hər bir xalqın canı, qanı bahasına əldə etdiyi müstəqilliyinin daimiliyinə və dönməzliyinə etibarlı təminat yaradan vacib amillərdən biri də onun yüksək nizam-intizama, döyüş əzminə malik silahlı qüvvələrinin mövcudluğudur. Qəlbində vətən, yurd, millət sevgisi olan əsl vətəndaş dövlətinin ordusu ilə daim qürur duyur, onun nailiyyətlərinə ürəkdən sevinir. Ulularımızın "Ordum varsa, yurdum var" məsəli də Azərbaycan xalqının milli düşüncəsində ordunun nə qədər ali, müqəddəs ucalıqda dayandığını, xalqın, dövlətin varlıq və mövcudluq, milli kimlik meyarına çevrildiyinin parlaq təcəssümüdür. Şərqin təkcə ilk demokratik cümhuriyyətinin deyil, həm də hərbi nizamnamə və əsasnamə əsasında formalaşan ilk nizami ordusunun Azərbaycanda yaranması isə xalqımız üçün fəxarət doğuran hadisədir.*

* * *

*Düşmən bilməlidir ki, biz istənilən anda məsələni hərb yolu ilə həll edə bilərik. Ordunun güclənməsi, orduda nizam-intizamın*

*güclənməsi, ordunun maddi-texniki bazasının möhkəmlənməsi, müasir silahların alınması – bütün bunlar buna görədir.*

* * *

*Azərbaycanın uğurlu iqtisadi inkişafı artıq gerçəklikdir, faktdır.*

* * *

*Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir.*

* * *

*Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən Azərbaycan üçün. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan hələ də müharibə şəraitində yaşayır, orduya diqqət daim yüksək səviyyədə olmalıdır.*

* * *

*Qaçqınlar və məcburi köçkünlər Azərbaycanda ən ağır vəziyyətdə yaşayan insanlardır. Bizim hamımızın vəzifəsi ondan ibarətdir ki, həm dövlət tərəfindən, eyni zamanda qeyri-hökumət təşkilatları tərəfindən, özəl sektor tərəfindən onlara öz köməyimizi göstərək.*

* * *

*Azərbaycanın indiki inkişafında bir nömrəli problem öz doğma torpaqlarımızı qaytarmaq və etnik təmizləmə siyasətindən əziyyət çəkən insanların həyat səviyyəsini yaxşılaşdırmaqdır.*

* * *

*Biz bütün işlərimizi ancaq və ancaq öz gücümüzə etməliyik – ulu öndər bizə bu yolu göstəribdir.*

## Ön söz

# VƏTƏN MƏNƏ OĞUL DESƏ...

*Vətən mənə oğul desə nə dərdim,*
*Mamır olub qayasında bitərdim.*

***Xalq şairi Məmməd Araz***

Əziz oxucu! Əlində tutduğun bu kitab adi kitablardan deyil – onu ehtiyatla götür, vərəqlərini də çox ehtiyatla, barmaqlarının incə hərəkəti ilə çevir və özünü toplayıb oxumağa başla! Sözlərim xətrinə dəyməsin, çünki bu kitabın ürək qanı ilə yazılmış səhifələri əks təqdirdə əlini qarsa, yandıra bilər.

Bu səhifələrdə 487 nəfər mərd, şücaətli, ölümün gözünə dik baxan, "Vətən!", "Azərbaycan!" deyərək sinəsini düşmən gülləsinin qabağına verən qəhrəman oğullarımızın, Qarabağ uğrunda şərəfli döyüş yolu keçən Quba-Qusar batalyonunun döyüşçülərinin ürəyi çırpınır.

Erməni cəlladları ilə mərdi-mərdanə döyüşən, bu döyüşlərdə igidlik göstərib həlak olan, bəzən də yerli, milli satqınlarımızın xəyanətləri ucbatından məhv olan şir biləkli, qurd ürəkli oğulların yurd, doğma ocaq, Vətən eşqi, atəşi ilə yanıb tutuşan ürəkləri!..

Oxu, bu kitabı!

Təpədən-dırnağa silahlanmış, arxasında dünyanın hegemon dövlətlərinin maddi-mənəvi köməyi duran və bu köməkdən hər addımda yararlanan azğın erməni ordusunun muzdlu döyüşçüləri ilə bəzən yarıac, yarıtox, yararsız – vaxtı keçmiş silahlarla şir kimi döyüşən oğullardan "vətən daşı" olmağı, ömrünün bütün anların-

da “Vətən” deməyi, sınmamağı, əyilməməyi öyrənib ölkəyə əsl vətəndaş olmaq dərsi al!

Çünki onlar adlarını al-əlvan çiçəklər içindən sıyrılıb ucalan Azərbaycan adlı sal qayanın döşünə yazmağı bacarıblar və bu sal qayalartək sərkərdələşə biliblər...

Ustad şairimiz, ulu söz bahadırımız Məmməd Arazın eyni ilə yazdığı kimi, bu mərdlər, bu igidlər də keçdikləri döyüş yoluna əsasən düşünə bilərlər ki:

Bu qaya sərkərdələr,  
Onda məni – bir balaca daş əsgəri,  
qoyar yəqin qoşulmağa bu cərgəyə,  
Qayaların keçmişini qayalara yazdım deyə.  
Onda Vətən sanar məni,  
Bir balaca Vətən daşı,  
Vətən daşı olmayandan –  
Olmaz ölkə vətəndaşı.

Oxu bu kitabı, Vətən oğlu, Vətən qızı!

O zaman sən istər-istəməz düşünəcəksən:

– Allahım nədən yurdumuzun başına tarixən bu qədər müsibətlər gəlib? Ulu xalqımız, humanist xalqımız istəmədən, məcburən müharibə, savaş, hərb meydanlarına sürüklənib!

Həmin andaca xatırlayacaqsan:

Böyük strateji əhəmiyyətə malik, geosiyasi mövqeyi, Şərqlə Qərb arasında tarixən daşıdığı “Qızıl körpü” missiyası, zəngin yeraltı və yerüstü sərvətləri, maddi-mənəvi abidələri yadelli işğalçıların, xarici ölkə qəsbkarlarının, o cümlədən qondarma Ermənistan dövlətinin himayədarlığından qol-qanad açan erməni vandallarını da məmləkətimizə qarşı növbəti hücuma şirnikləndirib. Və XX əsrin son rübündə zorla cəlb olunduğumuz Ermənistan-Azərbaycan münaqişəsi, Qarabağ uğrunda müharibə bu hücum zəncirinin növbəti halqası, tarixən dədə-baba torpaqlarımıza qarşı erməni

qəsbkarlarının yürütdüyü işğalçılıq siyasətinin – “Dənizdən–dənizə Böyük Ermənistan” yaratmaq planının tərkib hissəsi idi. Siyasət ideologiyasının işğalçılıq planları dünyada, Ermənistanda və Azərbaycanda uzun illərdən bəri fəaliyyət göstərən “Daşnaksutyun”, “Krunk”, “Hnçaq”, “Asala” və b. erməni terrorist təşkilatları hazırlayıb həyata keçirirdilər.

Möhtərəm oxucu! Ürəyi Azərbaycan eşqi ilə döyünən, işğal olunmuş torpaqlarımızın, qaçqın və köçkünlərimizin dərd və problemlərini, ağrı-acılarını, öz dərdi, acısı kimi yaşadığından qəlbi yaralanmış və bu sızım-sızım sızıldayan yaraların məlhəminin yalnız erməni cəlladlarını yurdumuzdan qovmaqda, şəhidlərimizin qisasını azğın düşməndən almaqda olduğunu düşünən bacım, qardaşım, Azərbaycan türkləri!

Erməni daşnak təşkilatlarının yurdumuzdakı ekstremist terrorçu fəaliyyəti, onların mənfur siyasət planlarının əsl mahiyyəti təəssübkeş Vətən qızı, vicdanlı elm adamı, tarix elmləri üzrə fəlsəfə doktoru Lətifə xanım Məmmədovanın “Erməni siyasi təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti” adlı sanballı elmi tədqiqatında araşdırılmış, illərlə od qonşusu olduğumuz, ocağımızın başında yer verdiyimiz, ən gözəl təbiətə malik torpaqlarda tarixən məskunlaşdırdığımız erməni cəlladlarının vandalizmi, məkrli siyasəti açıqlanmışdır[1]. Və bu məkrli siyasətin nəticəsində başıbəlalı Qarabağ, tarixi Azərbaycan torpaqları yenə də müharibə meydanına çevrilib və bu gün doğma yurd yerlərimiz düşmən tapdağı altında inləyir, maddi-mənəvi sərvətlərimiz viran edilir, ulularımızın sərgərdan ruhları fəryad qoparır. Nəticə həqiqətən ürək dağlayandır - ədalətsiz savaşın qurbanı olan əsir insanlar, itkin düşənlər, didərgin və qaçqınlar ordusu, işğal olunmuş ərazilər... və bir də qeyri-bərabər qüvvələrin apardığı amansız müharibədə canlarını belə Vətən uğrunda fəda edən igidlərimizin, qəhrəman oğullarımızın cəbhədə, döyüşlər zamanı üzləşdikləri məhrumiyyətlər,

---

[1] Л.Мамедова. Экстремистская и террористическая деятельность армянских политических организаций в Азербайджане (1917-1920гг.). Баку, 1995

çətinliklər, xəyanətlər, ordu komandirlərinin əsgərlərə qarşı diqqətsizlik və biganəlikləri...

Quba-Qusar batalyonunun bölük komandiri İsmət Cəfərovun gündəliyində insanın damarlarındakı qanı donduran ağrılı sətirlər: “Səngərə çatan kimi Şamo xəbər verdi ki, Azəri ordusunun vertolyot və ağır texnikası biz gedəndən sonra bombardman edir. Buna bizlərdə deyərdilər: “toydan sonra nağara”. Nə olardı ki, elə dünən bizə bu köməyi verərdilər. Nə isə, çox güclü generallarımız var. Yazıq Azərbaycan! Ona görə yazıqsan ki, dövlətimizin dişlə, dırnaqla qazandıqlarını, maymaq baş komandirlər havaya sovururlar!”

…“Dünən bizim döyüşlərimizə “nəzarət” edən briqadadan göndərilmiş praporşik Siyasət içkili idi. Onunla söhbət əsnasında öyrəndim ki, bu kombriqin adı Qarikdir. 5-6 ay əvvəl nə alçaqlıq edibsə, paqonunun bir ulduzunu Müdafiə Nazirliyi alıb, cəbhəyə göndərib. Müdafiə naziri isə qubalı Məmmədrəfidir. İndi onun heyfini bizdən çıxır”.

… “Kəşfiyyatçı Yaşardan qarşımızdakı düşmən, onun səngərləri, qarşıdakı təpələr haqqında məlumat verməyi xahiş etdim. Hündürboylu, iribədənli, enlikürəkli oğlan istənilən zaman erməninin arxasına öz dəstəsi ilə keçir, 5-10 erməni öldürüb lazımi xəbərlər gətirərdi. Söhbətimizin sonunda o, məndən xəritəni istədi. Adi folqa kağızda karandaşla işlənmiş xəritəni ona verdim. İsmayıl və Gülağadakı xəritələr də mənimki ilə eyni idi. O, baxıb hirsləndi. Bizim olduğumuz yerlə qarşıdakı təpələr 5-6 km səhv göstərilirdi. Guya biz qarşıdakı təpəni alsaq, Kuropatkino kəndini görəcəyik. O kənd isə bizdən 7-8 km sağdaydı. Biz bu mərd talış balasının köməkliyi ilə xəritələrimizdə düzəliş apardıq. Bu düzəliş, bu xəritə onlarla əsgərimizin həyatını xilas etdi”.

Bu sətirlər qarşısında əlavə söz deməyə lüzum görmürəm. Məgər ölkə Prezidenti, cənab Ali Baş Komandan bütün səngərləri gəzib, onun sərəncamlarının necə icra olunduğunu yoxlamalı idi? Tutduğu vəzifəyə layiq olmaq, çiyninə düşən missiyanı yerinə

yetirmək, o vəzifəni daşıyan məmurun, çinovnikin, komandirin, əsgərin vicdan işi, vətəndaşlıq borcu, Vətən qarşısında namus borcu deyilmi?

Düşünürəm ki, bu müharibədə səlahiyyət sahibləri, komandirlər, hər bir əsgər Quba–Qusar batalyonunun komandiri, Quba rayon prokuroru Əli Eyvazov, Quba və Qusar rayonlarının icra hakimiyyəti başçıları, onların müavinləri, bəzi şirkət rəhbərləri kimi çiyinlərinə götürdükləri vəzifəni layiqincə yerinə yetirsəydilər, bu qədər itkilərimiz, ağrı-acılarımız, qaçqın və köçkünlərimiz olmazdı.

“Bir batalyonun tarixi” kitabının ən böyük məziyyətlərindən biri odur ki, tarixi sənədlər, faktlar əsasında real hadisələr, yaxın keçmişimizdə baş vermiş olaylar ürək yanğısı ilə işıqlandırılır. Yaşadığımız tarixi, ancaq o qədər də uzaq olmayan yaxın keçmişimizi, yalnız o illərin şahidlərinin təsdiq edə biləcəyi məqamları oxuculara, gənc nəslə, gələcəyə ötürən bu əsərin tərbiyəvi əhəmiyyəti ölçüyəgəlməzdir.

Bu bir kitab deyil, ibrət dərsidir. Axı, dünənin dərslərindən, tarixi proseslərindən bu gün ibrət götürməsək, sabah gec olar. Acınacaqlı taledən qaçsaq da, ondan can qurtara bilmərik. Biz bu həqiqəti görmüşük, bu tarixi yaşamışıq və təbii ki, özümüzü ədalətsiz Qarabağ savaşının qalibi saya bilmərik. Lakin hər bir qələbənin səbəbləri olduğu kimi, məğlubiyyəti də doğuran real səbəblər var. Əlbəttə, ötən əsrin 90-cı illərinin əvvəllərində bir-birinin ardınca rayonlarımızın – Şuşa, Xocalı, Xocavənd, Laçın, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Zəngilan, Füzuli, Ağdamın itirilməsi bizim məğlubiyyətimiz idi və həmin məğlubiyyətimizin səbəbləri – tükürpədici, ürəkyandırıcı səbəbləri də məhz bu kitabda öz əksini tapmışdır. Ordudakı özbaşınalıq, pərakəndəlik, səriştəsizlik, biganəlik, milli satqınlıq, mənəm-mənəmlik, qarşıdakı düşmənin qüvvələrini hesaba almadan plansız hücum əmrlərinin verilməsi və s. kimi hallar üzləşdiyimiz məğlubiyyətlərin baş verməsi ilə nəticələndi. Lakin bütün nöqsanlarla bərabər “Quba-Qusar batalyonu”nun simasında Azərbaycanın mərd, mübariz, qorxmaz döyüşçülərinin, Vətənin ölümsüz qəhrə-

manlarının, torpağımızın hər qarışı uğrunda gözünü qırpmadan ölümə getməyə hazır olan cəsur oğullarımızın da varlığından, onların məğlubiyyət, eyni zamanda müəyyən uğurlarla keçən döyüş yolundan bəhs edən əsər insanın, hər bir oxucunun qəlbində gələcəyə, tarixi qələbəmizə, torpaqlarımızın ən qısa müddətdə geri qaytarılacağına inam yaradır.

Və belə kitabların hər bir evdə, gələcəyin vətəndaşlarının böyüyüb boya-başa çatdığı, tərbiyə aldığı hər bir ailədə olması gərəkdir. Bu günümüzün ən aktual məsələlərindən biridir. Hər bir insanın qəlbində vətənpərvərlik ruhu, vətənsevərlik duyğusu ilk öncə ailədən, ona tərbiyə verən, yetişdirən valideyinlərdən, evində hökm sürən ab-havadan qaynaqlanır...

**Esmira Fuad (Şükürova),**
filologiya elmləri üzrə fəlsəfə doktoru

# MÜƏLLİFDƏN

Tale 1987-ci ilin oktyabr ayından məni Azərbaycanımızın gözəl diyarlarından biri olan Quba ilə bağladı. Həmin vaxt mən Quba rayon prokuroru vəzifəsinə təyin olundum. Rayonda daxilən dinclik, əmin-amanlıq dövrü olsa da SSRİ Baş prokurorluğu və Daxili İşlər Nazirliyi Qubanın təsərrüfatlarına müdaxilə etmək, yoxlama aparmaqla Moskva hüquq-mühafizə orqanlarında nüfuz sahibi olan erməni Qıdılyanın təhriki ilə bu rayonda repressiyalara hazırlaşırdılar. Lakin biz Moskvanın bu çirkin niyyətlərini əvvəlcədən pozub, Quba rayonunda başlanmış cinayət işlərinin öhdəsindən özümüz gələcəyimizi xalqa sədaqətlə sübuta yetirib, Quba əhalisini məhrumiyyətlərdən qoruya bildik.

1988-ci ilin fevral ayında Qarabağda “Miatsum” erməni millətçi hərəkatı başlandı. Bu hərəkatın əsasını terrorçu, qiyamçı “Daşnaksütün” partiyasının proqramı və məqsədi təşkil edirdi. Erməni terrorçuları 1988-ci ildən bəri başladıqları qondarma Dağlıq Qarabağ hadisələri və onun ətrafında törətdikləri siyasi oyunlar hadisələrin gedişini daha da mürəkkəbləşdirirdi. Təcavüzkar daşnakların əsas məqsədi torpaqlarımızın bir hissəsinin işğalı, respublikamızı daxildən parçalanması, xalqımızı vətəndaş müharibəsinə cəlb etməsi, gənc müstəqil Azərbaycanı beynəlxalq aləmdə nüfuzdan salması və s. Xalqımız və vətənimiz çox çətin anlar, əzablı günlər yaşayırdı. Qarabağda azərbaycanlılar sıxışdırılmağa, evlərindən, dədə-baba yurdlarından qovulmağa başladılar. Həmin vaxt baş verən hadisələrə quba əhalisi də biganə qalmır, öz cəsarətli sözlərini deyir, ermənilərin bu qanunsuzluqlarına qarşı etiraz mitinqləri keçirir, ermənipərəst Moskvaya və Sovet Hakimiyyətinə, onun rəhbərlərinə bu qanunsuzluqlara son qoyulmasını tələb edən minlərlə müraciətlər, teleqramlar, məktublar göndərilirdi.

1988-ci ilin noyabr-dekabr aylarında, 1989-cu ilin yanvar-mart ayılarında Azərbaycanda Dağlıq Qarabağ və onun ətrafında vəziyyət daha da kəskinləşdi. Sovet kəşfiyyat orqanları Moskvada fəal fəaliyyətdə olan nüfuzlu erməni lobbisinin diktəsi ilə Sumqayıt və Bakı faciələrini törətdilər. Bununla da onlar azərbaycanlıları dünya ictimaiyyəti qarşısında gözdən salmağa çalışırdılar. Həmin dövrlərdə milli münasibətlər çox kəskinləşmişdir. Qərbi Azərbaycanda, Dağlıq Qarabağda azərbaycanlıların deportasiya planı zorla həyata keçirilirdi. Həmin ərazilərdə azərbaycanlıların əmlakı məhv edilir, qətllər törədilir, onlar doğma yurd-yuvalarından zorla qovulurdular. Ermənilərin vəhşiliklərinə dözməyən Azərbaycan xalqı Bakıda "meydan hərəkatına" başladı. Xalq Moskvanın ermənilərin bu etnik təmizləmə planının həyata keçirməsində, onları müdafiə etmələrinə etirazlarını bildirirdilər. O zaman Bakıda, Sumqayıtda və b. bölgələrdə azərbaycanlılarla-ermənilər arasında milli münaqişə zəminində toqquşmalar baş verirdi. Ona görə də ermənilər həmin şəhərləri, bölgələri tərk edir, Rusiyaya və onları dəstəkləyən digər xarici ölkələrə üz tuturdular. Belə gərgin vaxtda Bakıdan köçən yüzlərlə erməni ailəsinin Qubadan Rusiya istiqamətinə köçərkən erməni vəhşiliklərinə dözməyən qubalıların hücumuna məruz qaldılar. Qubalıların bu etiraz hərəkatı ilə bağlı SSRİ prokurorluğu azərbaycanlılara qarşı süni olaraq çoxsaylı cinayət işlərinə başladı. Aparılan danışıqlar zamanı çox çətinliklə həmin cinayət işlərinin sonrakı istintaqlarının Quba rayon Prokurorluğunda aparılmasına nail ola bildik. Nəticədə heç bir azərbaycan vətəndaşı cinayət məsuliyyətinə cəlb olunmadı. Həmin cinayət işləri icraatına son nəticədə xitam verə bildik. Qədirbilən Quba əhalisi 1989-cu ilin sonlarında Dağlıq Qarabağ və onun ətraf rayonlarda azərbaycanlılara qarşı erməni terrorlarına, hücumlarına, qətl və talanlarına qarşı mübarizədə həm maddi, həm də mənəvi cəhətdən həmin bölgələrin əhalisinə köməklik göstərdilər. Həmin dövrdə Quba könüllüləri silahlanaraq Ağdam, Kəlbəcər, Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl və s. rayonlara üz tutub, orada yerli özünümüdafiə dəstələrinə qoşulur,

erməni daşnaklarına qarşı mərdliklə mübarizə aparırdılar. 1989-cu ilin noyabr ayında Quba rayonundan 40 nəfərdən ibarət könüllü dəstə əhalinin köməkliyi ilə silahlandırılaraq Zəngilan və Qubadlı rayonlarının müdafiəsinə göndərildi. Nəinki könüllülərin ailələrinin, eyni zamanda özlərinin bütün təminatlarını öz üzərimizə götürdük. Həmin könüllü dəstə Zəngilan və Qubadlı ərazisində döyüşür, yerli əhalinin erməni hücumlarından qorunmasında fəal iştirak edirdilər.

20 yanvar 1990-cı il faciəsindən dərhal sonra SSRİ hakimiyyəti tərəfindən bütün Azərbaycanda fövqəladə vəziyyət elan edildi. Bütün yollar Sovet hərbçiləri tərəfindən tutuldu, vətəndaşların gediş-gəlişi ciddi nəzarətə götürüldü. Bütün rayonlar, o cümlədən Qubadlı və Zəngilan rayonları əsasən ermənilərdən ibarət olan Sovet ordusunun tam nəzarəti altına götürüldü. Müvəqqəti olaraq ermənilərin azərbaycanlılara qarşı hücumlarının qarşısı alındı. Bu zaman əhalini tərksilah etmək, özünümüdafiə dəstələrini, həbsə götürmək Sovet hərbçilərinin qarşısında qoyulan əsas vəzifələrdən biri idi. Yadımdadır, həmin vaxt Dağlıq Qarabağ və onun ətrafında özünümüdafiə dəstələrində vuruşan və 1989-cu ilin noyabr ayında tərəfimizdən Zəngilan, Qubadlı rayonlarının müdafiəsinə göndərilən 40 nəfər silahlı qubalıların Sovet hərbçiləri tərəfindən həbs olunmamaları üçün fəal tədbirlər həyata keçirirdik.

Hər gün həmin rayonların polis rəisləri və prokurorları ilə əlaqə saxlayıb, özünümüdafiə dəstələrində olan qubalıların hansı yolla olursa-olsun bu bölgələrdən çıxarılıb Qubaya yola salınmasına köməklik göstərmələrini xahiş etdim. Nəhayət 1990-cı ilin yanvarın 24-də 40 nəfər Quba könüllüləri silahlarının Zəngilan rayon milis (polis) rəisinin köməkliyi ilə həmin rayonun meşələrinin birində, “N” yerdə basdırıb, onların Qubaya yola salınmasını təşkil edə bildik. Həmin şəxslər sağ-salamat Qubaya çatdılar.

Respublika son dərəcədə ağır və idarəolunmaz vəziyyətə düşmüşdü. Həmin dövrlərdə Azərbaycan rəhbərliyi ermənipərəst Moskvanın əlində alətə çevrilmişdi. Düzgün milli siyasət aparılmırdı. Qərbi Azərbaycandan qovulmuş 500 minə yaxın azərbaycanlı

Dağlıq Qarabağa üz tutub, orada məskunlaşmaq arzularında olduqları halda, onların bu istəkləri qarşısına həmin vaxt Azərbaycana rəhbərlik edən Vəzirov, Mütəllibov və onların komandası hər vəchlə maneçilik törədib, ermənilərin mövqeyində qaldılar. Lakin bu tarixi səhv olmasa idi, Qərbi Azərbaycandan qovulmuş əhali Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağda yerləşdirilsəydi, Azərbaycanın sonrakı çətin problemləri olmazdır. Doğma Vətənimiz siyasi-ideoloji və hərbi təxribatları dəf edə bilmir və tarixi sınaqlarla üz-üzə qoyulmuşdu. Lakin bütün bunlar xalqımızın mübarizliyini, gələcəyə inamını, milli-mənəvi mətanətini sarsıda bilmədi.

Qərbi azərbaycanlıların dərdlərinə və problemlərinə yaxından bələd olan şəxs kimi bir qrup ziyalı ilə Azərbaycan rəhbərliyini qəbulunda olub, Qərbi Azərbaycandan qovulan soydaşlarımızın Dağlıq Qarabağda yerləşdirilməsinin tarixi, strateji tələblərdən irəli gəlməsinin zəruriliyini əsaslandırsaq da, belə tələblə çıxış etsək də, bizim mövqeyimiz çox təəssüf ki, müdafiə olunmadı, əksinə bu fikirlərimizə görə biz ciddi təqiblərə məruz qaldıq.

Bu çətin ağır günləri yaşadıqca hiss edirdik ki, Azərbaycanda idarəçilik böhrana və dərin uçuruma gedir. Hər kəs özünü hakimiyyətdə görür. Bu məqsədlə silahlı dəstələr yaradılırdı.

İlk anlarda xalq hərəkatı kimi fəaliyyətə başlayan Azərbaycan Xalq Cəbhəsində səriştəsiz, idarəçiliyi bilməyən, təcrübəsiz şəxslər toplaşdı. Onlar elə kortəbii şəkildə hakimiyyəti zorla ələ keçirdikləri kimi Azərbaycanda dövləti, dövlətçiliyi, ərazi bütövlüyünü qorumaq iqtidarında olmadılar. Qısa müddətli hakimiyyətləri dövründə korrupsiyaya, anarxiyaya mübtəla oldular. Azərbaycan uçurum təhlükəsində, vətəndaş müharibəsi vəziyyətində idi. Hakimiyyətə gələn AXC-Müsavat rəhbərliyinin açıq-aşkar səriştəsizliyi və naşılığı qısa müddətdə öz acı nəticələrini göstərdi – ölkədə daxili stabillik və birlik pozuldu, özbaşınalıq hökm sürməyə başladı. Cəbhəçilər layiqli kadrların işdən uzaqlaşdırılmasına, onların təqib olunmasına şərait yaratdılar. Hərbi quruculuq başlı-başına buraxıldı.

Müqəddəs torpaqlarımızın bütövlüyünü qorumaq uğrunda mübarizə əvəzinə Bakıda hakimiyyət uğrunda mübarizə get-gedə qızışırdı. Qoşun hissələri döyüş bölgələrindən çıxarılıb Bakıya doğru irəliləyirdilər.

Xalq özünün və vətəninin xilasını ulu öndərimiz, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyə gətirilməsində görürdü. Bu məqsədlə ziyalılar, vətənpərvər şəxslər dəstə-dəstə Naxçıvan Muxtar Respublikasına gedir, Heydər Əliyevi Azərbaycana rəhbərliyə dəvət edirdilər. Respublikada bu məqsədlə geniş işlər aparılırdı. Xalq Cəbhəsinin səriştəsiz kadrları belə şəxsləri təqib edir, onların özlərini və ailələrini cismani məhv etmək üçün planlar hazırlayır və bəzən bunları həyata keçirməyə nail olurdular. Hətta bu terror aksiyaları ölkəmizin Ali Qanunverici Orqanının qarşısında da baş vermişdir. Güclü təqib və təzyiqlərə məruz qalanlar arasında ulu öndərin yaxın silahdaşlarından olan Cəlal Əliyev (akademik, Milli Məclisin deputatı), Arif Rəhimzadə (Milli Məclisin deputatı, Daimi Komissiyanın sədri), mərhum xalq şairimiz Bəxtiyar Vahabzadə, mərhum professor Səfiyar Musayev, Şəmsəddin Xanbabayev (hazırda Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı), Murtuz Ələsgərov (hazırda Milli Məclisin deputatı), Eldar İbrahimov (Milli Məclisin deputatı), Əli Əhmədov (Milli Məclisin deputatı), Fəttah Heydərov (Milli Məclisin deputatı) və bir sıra görkəmli ziyalılarımız var idi.

1993-cü ilin may-iyun aylarında Azərbaycanda ictimai-siyasi və hərbi vəziyyət son dərəcə dözülməz həddə çatdı. Gəncə qiyamı baş verdi. Dövlətçilik və Azərbaycanın ərazi bütövlüyü, onun siyasi xəritədən silinib-silinməməsi məsələsi şübhə altında idi. Bu ağır günlərdə uzaqgörən Azərbaycan xalqı təkidlə Heydər Əliyevin rəhbərliyə gətirilməsini tələb edirdi. Bu şəraitdə xalqın siyasi fəallığı daim yüksəlirdi, Heydər Əliyevin elektoratı günü-gündən artırdı.

Şimal bölgəsində, Quba, Qusar, Siyəzən, Dəvəçi (Şabran), Xaçmaz rayonlarının əhalisi arasında Heydər Əliyevin müdafiəsinin təşkili və hakimiyyətə gətirilməsi üçün gərgin işlər görürdük. Sözügedən rayonlarda mən ziyalılarla, ağsaqqallarla, nüfuzlu

şəxslərlə ardıcıl olaraq çoxlu görüşlər keçirirdim və 8 iyun 1993-cü ildə bu məqsədlə biz böyük aksiya başlamağa hazırlaşırdıq. Ona görə də 1993-cü il iyunun 7-dən 8-ə keçən gecə Qusar rayonundan əhali ilə görüşdən qayıdarkən Xalq Cəbhəsinin silahlı dəstəsi Xaçmaz rayonunda həmin vaxt Polis rəisi işləyən İlyasovun rəhbərliyi ilə üzərimə hücum çəkərək məni tərksilah edib Xaçmaz rayonuna apardılar. Orada Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı, Xaçmaz rayon Xalq Cəbhəsinin sədri Müqəddəs Mehdiyevin kabinetində Heydər Əliyevin qayıdışına dair Şimal bölgəsində mühüm işlər təşkil etdiyimə görə ittiham olundum. Onlar məni həbs və cismani məhv edəcəkləri ilə hədələdilər. Lakin həmin vaxt Xaçmaz rayon prokuroru olan Seyfəddin Həsənovun köməyi ilə Qubaya yola salındım. Oradan isə həmin gecə ailəmlə birlikdə Bakıya gəldim.

Bunlara baxmayaraq ulu öndərimizin hakimiyyətə qayıdışını dəstəkləmək üçün Şimal bölgəsində əhalinin 1993-cü il 8 iyun tarixinə planlaşdırılan kütləvi çıxışları baş tutdu. Xalq Cəbhəsinin rəhbərliyi də artıq başa düşürdü ki, xalqı, ölkəni bu çətin böhrandan ancaq ulu öndər Heydər Əliyev xilas edə bilər.

14 iyun 1993-cü ilə qədər mən ailəmlə birlikdə gizli şəraitdə yaşadım. 14 iyun 1993-cü ildə mən Qubaya qayıdaraq vəzifəmin icrasına başladım. Məni Quba əhalisi yekdilliklə müdafiə edirdi.

15 iyun 1993-cü ildə xalqın təkidi və tələbi ilə Heydər Əliyev hakimiyyətə qayıtdı. Vətəndaş müharibəsinin qarşısı alındı, dövlətçiliyin möhkəmləndirilməsinə və ordu quruculuğuna başlandı.

Lakin Xalq Cəbhəsi hakimiyyətinin səriştəsizliyi üzündən nizami ordu vaxtında formalaşdırılmamışdır. Xalq Vətənin müdafiəsinə səfərbər olunmamışdı. Bundan istifadə edən erməni işğalçıları xarici qüvvələrinköməkliyi ilə Dağlıq Qarabağ ətrafı rayonları işğal etmək, “Böyük Ermənistan” yaratmaq kimi mənfur niyyətlərini həyata keçirmək məqsədi ilə geniş hərbi əməliyyatlara başladılar. Vətəni yenə də çətin günlər gözləyirdi.

Bu anlarda ulu öndərimiz Heydər Əliyev yaranmış çətin vəziyyətdən çıxış yolunu hərbi hissələrin möhkəmləndirilməsində, bütün

rayonların hərbi batalyonlarının yaradılmasında və cəbhəyə yola salınmasında, xalqı bu işə səfərbər etməsində gördü.

Ali Baş Komandan, xalqımızın ümummilli lideri Heydər Əliyev 2 noyabr 1993-cü ildə televiziya vasitəsi ilə yaranmış çətin vəziyyət və ondan çıxış yollarını müəyyən edən tarixi, hərbi, strateji çıxışı ilə xalqa müraciət etdi. Bu müraciətdən sonra başqa bölgələrdə olduğu kimi Quba rayonunda da batalyonun yaradılmasına başladıq, gənclər, könüllülər səfərbər olundu. Qusarlılar da qubalılara qoşuldular.

Həmin vaxt batalyonun döyüşə hazırlanması məqsədi ilə Qusar rayonunda Sovet İmperiyasından miras qalmış və dağıdılmış vəziyyətdə olan hərbi hissənin bərpasına başladıq. Səfərbər olunanların hərbi təlim məşqlərini təşkil etmək üçün Rusiya Federasiyasından muzdla ixtisaslı hərbi kadrların gətirilməsini təmin etdik. Quba və Qusar rayonlarının öz daxili imkanları hesabına batalyonun maddi təminatı qısa müddətdə həyata keçirildi. Təlim-məşq toplantısından sonra 487 nəfərdən ibarət Quba-Qusar batalyonu Beyləqana döyüş bölgəsinə yola salındı. Quba və Qusar ictimaiyyəti, analar, bacılar, döyüşə gedən əsgərləri yola salırdılar. Batalyon Beyləqan rayonunda erməni hərbçiləri ilə üzbəüz özlərinin hərbi düşərgəsini saldı və buradan da döyüş əməliyyatlarına başladılar. Batalyona rəhbərliyi və onun maddi-texniki təchizatının təmin olunması işinin təşkilini rayon prokuroru kimi öz üzərimə götürdüm və hər an əsgərlərlə birgə oldum. Batalyon öz tarixi vəzifəsini layiqincə yerinə yetirdi. Əsgər və zabitlər Beyləqan, Xocavənd rayonları ərazisində gedən döyüşlərdə mərdlik, igidlik nümayiş etdirdilər və 1994-cü ilin may ayında imzalanan atəşkəsə qədər şanlı döyüş yolu keçdilər.

Batalyonun 48 nəfər əsgəri şəhid oldu, 7 nəfər itkin düşdü, 114 nəfər isə yaralandı.

23-cü Quba-Qusar batalyonunun şəxsi heyətinə Zaqatala batalyonunun qalan hissəsi birləşdirildi. Batalyonun şəxsi heyətini 1994-cü ilin iyun ayında Füzuli rayonunun Əhmədbəyli kəndində

709 nömrəli hərbi hissəyə təhvil verərək rayona qayıtdım. 23-cü Quba-Qusar batalyonunun tarixi döyüş yolu başa çatdı.

Hazırda 23-cü Quba-Qusar batalyonunun istefada olan, yaşa dolmuş əsgər və zabitləri o çətin günləri xatırlayır, şəhid olan və itkin düşən yoldaşlarımızın xatirələrini yad edirlər.

Ulu öndərimiz Heydər Əliyevin göstərişi və tövsiyəsi ilə hər il 27 dekabr günü 23-cü Quba-Qusar batalyonunun yaranma günü kimi geniş qeyd edilir. Bu toplantılarda erməni işğalçılarının zəbt etdikləri torpaqlarımızın azad olunması üçün yenidən səfərbər olunmaq arzularını bildirərək Ali Baş Komandan, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin əmrini gözlədiklərini bildirir, Vətənimizə sədaqət andı içirlər.

Biz hamımız müsəlləh əsgər kimi Ali Baş Komandanımız, Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək onun ideyalarının və apardığı siyasətin uğurla həyata keçirilməsinə bütün imkanlarımızı səfərbər etməyə hazırıq. İnanırıq ki, Azərbaycanın haqq işi qalib gələcəkdir. Qələbələrə doğru, Azərbaycan!!!

**Əli Eyvazov,**
tərtibçi–müəllif,
hüquq elmləri üzrə fəlsəfə doktoru

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN 1993-cü İL NOYABRIN 2-də TELEVİZİYA VƏ RADİO İLƏ XALQA MÜRACİƏTİ

Əziz həmvətənlər, hörmətli bacılar və qardaşlar!

Son vaxtlar erməni silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü nəticəsində respublikada yaranmış vəziyyətlə əlaqədar mən bu gün televiziya studiyasına gəlib, bəzi fikirlərim və mülahizələrim haqqında sizinlə söhbət aparmaq, öz rəyimi bildirmək istəyirəm.

Azərbaycan Respublikası, onun vətəndaşları beş ildən çoxdur ki, müharibə şəraitindədirlər. Bu müddətdə erməni silahlı qüvvələrinin Azərbaycana qarşı təcavüzü mütəmadi olaraq davam edib, respublikamızın ərazi bütövlüyü aybaay, ilbəil pozularaq, onun torpaqları təcavüzkar tərəfindən işğal olunubdur, indi isə böyük bir qismi işğal altındadır.

Son həftələr Azərbaycanda, respublikanın Ermənistanla həmsərhəd bölgə və rayonlarında vəziyyət daha da gərginləşmiş, erməni silahlı qüvvələrinin təcavüzkar hücumları şiddətlənmiş və bunun nəticəsində Füzuli, Cəbrayıl rayonlarının cənub hissəsində olan yaşayış məntəqələri – kəndlər, qəsəbələr dağıdılıb viran edilmişdir. Bu rayonlar tamamilə erməni silahlı qüvvələrinin işğalı altına keçmişdir. Sonra Zəngilan rayonuna hücumlar olmuş və nəticədə bu rayon da işğal edilmişdir. Beləliklə, respublikamızın vətəndaşlarına, həyatına, Azərbaycanın ərazi bütövlüyünə yeni zərbələr endirilmiş, insanlar tələf olmuş, yaralanmış, on minlərlə vətəndaşımız yerlərindən didərgin düşüb, qaçqına çevrilmişdir. Onların çox hissəsi başqa yol olmadığına görə Araz çayı vasitəsilə

İran ərazisinə keçmiş və oradan respublikamızın digər rayonlarına, məntəqələrinə gəlib çıxa bilmişdir.

Müharibə dövründə, yəni beş ildən artıq bir müddətdə Azərbaycan Respublikası vətəndaşlarının bir qismi tələf, şəhid olmuşdur. Son hadisələr zamanı da həlak və şəhid olanlar var. Ümumiyyətlə, Ermənistanın təcavüzü başlanandan indiyə qədər təxminən 16 min azərbaycanlı şəhid, tələf olmuş, 22 minə qədər adam yaralanmış, 100 minlərlə adam qaçqın düşmüşdür. İndi qaçqınların sayı 1 milyon nəfərdən artıqdır. Kəndlərimiz, şəhərlərimiz, qəsəbələrimiz viran olmuşdur.

Mən bu gün sizin önünüzdə çıxış edərək şəhid olmuş azərbaycanlıların ruhu qarşısında baş əyirəm, onların ailələrinə, qohum-əqrəbalarına başsağlığı verirəm.

Bəli, Azərbaycan indi ağır vəziyyətdədir. Son həftələr vəziyyət daha da ağırlaşmış və gərginləşmişdir. Mən bu gün həmin vəziyyətə geniş təhlil vermək fikrində deyiləm. Sadəcə olaraq bəzi məsələlərə toxunub öz fikirlərimizi sizə çatdırmaq, eyni zamanda bəzi məsələləri aydınlaşdırmaq istəyirəm.

Azərbaycan vətəndaşlarına məlumdur ki, mən Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən gündən indiyə qədər, indi isə prezident vəzifəsində olduğum zaman Ermənistanla Azərbaycan arasında gedən müharibəyə son qoyulması, işğal edilmiş torpaqlarımızın geri qaytarılması və ümumiyyətlə, bu hərbi münaqişənin kəsilməsi tərəfdarı olmuşam. Münaqişənin həll edilməsində sülh yoluna üstünlük vermişəm və bu məsələlərin danışıqlar yolu ilə həll olunmasını daha lüzumlu bilmişəm. Milli Məclisin iclaslarında bu barədə dəfələrlə fikir mübadiləsi olubdur və Milli Məclis, Azərbaycan ictimaiyyəti bu siyasəti bəyənmişdir. Biz bu yolla getməyə çalışmışıq.

Məlumdur ki, biz bu siyasəti həyata keçirərək, bu yolla gedərək birinci növbədə beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışmışıq. Cəsarətlə deyə bilərəm ki, bu sahədə çox səmərəli və çox fəal tədbirlər görmüşük. Birləşmiş Millətlər Təşkilatının, onun

Təhlükəsizlik Şurasının, ATƏM-in, onun çərçivəsində olan Minsk qrupunun imkanlarından maksimum istifadə etməyə çalışmışıq. Bununla yanaşı, böyük dövlətlərin təşəbbüslərindən və vasitəçilik imkanlarından da istifadə etməyə səy göstərmişik. ABŞ-ın, Rusiyanın, Türkiyənin bu barədə təşəbbüslərindən və imkanlarından istifadə etməyə çalışmışıq. Həmişə də hesab etmişik ki, bu yolla getsək, müvəffəqiyyət qazanarıq. Təəssüf ki, bu görülən tədbirlər indiyə qədər lazımı nəticə verməyib. Lakin bu o demək deyildir ki, biz həmin yoldan çəkinirik.

Bu məqsədlərə nail olmaq üçün biz, şəxsən mən və mənim məsləkdaşlarım Ermənistan Respublikasının rəhbərliyi ilə danışıqlar aparılmasını da lüzumlu hesab etmişik. Dağlıq Qarabağda olan qüvvələrlə bilavasitə əlaqəyə girib, onlarla danışıqlar aparıb, məsələlərin sülh yolu ilə həll olunmasına da səy göstərmişik və bu barədə də sizə məlum olan danışıqlar aparılmışdır. Bunların nəticəsində atəşin kəsilməsi və atəş kəsildiyi dövrdə müəyyən danışıqlar aparılması, məsələnin sülh yolu ilə olunması, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından çıxması məsələlərini qəti surətdə qoymuşuq.

Sizə məlumdur ki, uzun müddət atəş kəsilmişdir və biz bu vaxt danışıqlar aparırdıq. Sazişə görə, atəşin kəsilməsi noyabrın 5-nə qədər davam etməli idi. Təəssüf ki, atəşin kəsilməsi pozulmuşdur. Bu ilk dəfə oktyabrın 10-da, yəni mən Azərbaycan Respublikasının prezidenti vəzifəsinə başladığım gün olmuşdur. Cəbrayıl rayonu ərazisində erməni silahlı qüvvələri tərəfindən, bizim silahlı qüvvəllərimiz tərəfidən hərbi əməliyyatlar aparılmışdır. Bundan sonra danışıqlar nəticəsində atəşin yenə də kəsilməsinə nail olmuşduq. Fəqət, oktyabrın 21-dən bu saziş yenə də pozulmuş, erməni silahlı qüvvələri şiddətli hücumlara keçmiş və əvvəllər Füzuli, Cəbrayıl rayonlarının şimal hissələri işğal olunmuşdusa, cənub bölgəsindəki qəsəbələr və kəndlər, o cümlədən İranla həmsərhəd olan hissə Azərbaycan Respublikasının nəzarəti altında olduğu halda, indi bunlar da əldən getmişdir.

Daha sonra Zəngilan rayonuna hücumlar olmuşdur. Bu hücumları dayandırmaq və Zəngilan rayonunu müdafiə etmək üçün lazımi tədbirlər görmüşdük. O vaxt İran İslam Cümhuriyyətinin prezidenti ağayi Haşimi-Rəfsəncani də burada idi. İran rəhbərliyi də bu işə qoşuldu. Ermənistan rəhbərliyi ilə danışıqlar aparıldı, atəşin kəsilməsi və Zəngilana hücumların dayandırılması haqqında təkliflər verildi. Eyni zamanda Zəngilanın müdafiə olunması üçün lazımi tədbirlər görüldü. Lakin bunlar da nəticə vermədi. Zəngilan rayonundan da həm əhali, həm də ordu çıxdı.

Bunlar hamısı, şübhəsiz ki, bizdə çox böyük narahatlıq hissi doğurubdur. Birinci növbədə ona görə ki, torpaqlarımızın bir qismi də işğal edilib, bu ərazidə olan yaşayış məntəqələrimiz dağıdılıbdır. Respublikaya yenə də böyük zərbə vurulubdur. On minlərlə adam qaçqın düşübdür. Şübhəsiz ki, bunlar həm bizi, həm də Azərbaycan Respublikasının ictimaiyyətini narahat edir. Biz bunların heç birinə biganə qalmamışıq və biganə deyildik.

Bu dövrdə biz gecə-gündüz həmin işlərlə məşğul olmuşuq, lazımi tədbirlər görməyə, mövcud imkanların hamısından istifadə etməyə çalışmışıq. Lakin bu, gözlənilən nəticələri verməyib. Bunun səbəblərini indi sizin qarşınızda tam təhlil etmək fikrində deyiləm. Ancaq onu qeyd etmək lazımdır ki, bizim məğlubiyyətlərimiz bir tərəfdən Azərbaycan Ordusunun döyüşən hissələrinin bir çox yerlərdə gücsüzlüyü nəticəsində, döyüş qabiliyyətinin olmaması nəticəsində baş vermiş, digər tərəfdən, bu ərazidə yaşayan vətəndaşların, bizim soydaşlarımızın öz torpaqlarını qorumaq, saxlamaq əvəzinə dərhal qaçmaq, yurdlarını qoyub didərgin düşmək əhval-ruhuyyəsi ilə əlaqədar olmuşdur.

Bu heç də sirr deyildir ki, son hadisələr zamanı Cəbrayıl rayonunun ərazisində, Horadizdə və başqa məntəqələrdə əsgərlərimiz, döyüşçülərimiz öz mövqelərini vuruşmadan, yerli əhalidən qabaq tərk etmişlər. Zəngilandakı vəziyyətə nəzarət edərək, orada olan silahlı qüvvələrimizin rayonu müdafiə etməsi üçün dəfələrlə tədbirlər görərək müşahidə etdik ki, həmin döyüşçülərin də çox hissəsi müdafiə

edəcəyi yerləri döyüşsüz, müqavimətsiz, heç bir atəş açmadan tərk edib geriyə, İran ərazisinə qaçmağa üstünlük vermişdir.

Bunların hamısı bizi böyük dərdə salan hallardır. Bunları etiraf etmək bizdən ötrü ağırdır, çətindir. Ancaq nə qədər acı olsa da, bu, həqiqətdir.

Son vaxtlar torpaqlarımızın bir qisminin işğal olunması bəzi adamlar tərəfindən belə qiymətləndirilir ki, bu, yəqin Azərbaycanın müdafiə qabiliyyətinin olmamasının, yaxud bu işdə respublika rəhbərliyinin lazımi tədbirlər görməməsinin nəticəsidir. Lakin bu, belə deyildir. Uğursuzluqlar, məğlubiyyətlər beş ildən artıq müddətdə Azərbaycanda gedən proseslərin məntiqi nəticəsidir. Ermənistan tərəfindən, erməni silahlı qüvvələri tərəfindən Azərbaycana təcavüzlər 1988-ci ilin fevralından etibarən başlanmışdır. Altı ilə yaxındır ki, biz bu vəziyyətdəyik. Təəssüf ki, bu müddətdə Azərbaycan Respubkasını idarə edən şəxslər, orqanlar dövlətimizi qorumaq, saxlamaq, onun ərazi bütövlüyünü təmin etmək üçün lazımi tədbirlər görməmiş, nəticədə təcavüzkar qüvvələr dalbadal irəliləmiş, respublikamızın mövqeləri itirilmiş və bütün bunlar indi bizi bu faciəli vəziyyətə gətirib çıxarmışdır.

Bunun bir hissəsi Azərbaycan Respublikası Sovetlər İttifaqının tərkibində ikən olmuşdur. Ancaq iki ildən artıqdır ki, Azərbaycan Respublikası müstəqil bir dövlətdir. Bu iki il müddətində müstəqil dövlətimiz öz müdafiə qüvvələrini, öz ordusunu yaratmalı idi. Bundan ötrü Azərbaycan Respublikasının bütün imkanları vardı. Ordunu bir gündə, beş gündə, bir ayda, üç ayda yaratmaq mümkün deyil. Ancaq iki il, üç il müddətində ordu da yaratmaq, Azərbaycanın etibarlı müdafiəsini təşkil etmək və ərazi bütövlüyünü də təmin etmək mümkün idi. Lakin bu fürsətlər əldən verilib və Azərbaycanın müdafiə imkanları get-gedə möhkəmlənmək əvəzinə zəifləmişdir. Ayrı-ayrı dəstələr, qruplar, yaxud batalyonlar tərəfindən aparılan ayrı-ayrı döyüşlərin hamısı pərakəndə şəkildə olmuş, müxtəlif qüvvələrə, məqsədlərə xidmət etmiş, böyük bir hərbi strategiya, müdafiə strategiyası əsasında, hərbi nizam-intizam əsasında görülən tədbirlər olma-

mışdır. Belə hallar bəzən Azərbaycan ictimaiyyəti arasında cürbəcür əsassız təbliğatların yayılmasına gətirib çıxarmışdır. Əslində isə Azərbaycanın müdafiə qüvvələri, dediyim kimi, günbəgün, aybaay zəifləmişdir.

Mən indi bütün bunlara qiymət vermək istəmirəm. Ancaq bir neçə sözlə Azərbaycan vətəndaşlarını, xalqımızı agah etmək istəyirəm ki, haradan başlamışıq, nə üçün bu günə gəlib düşmüşük, böyük potensialı, imkanları, 7 milyon əhalisi olan Azərbaycan Respublikası nə üçün indi ağır vəziyyətə düşmüşdür.

Təəssüf ki, bütün bu dövrdə Dağlıq Qarabağ məsələsindən Azərbaycanda bir çox qruplar tərəfindən hakimiyyət uğrunda mübarizə üçün istifadə edilmişdir. Ayrı-ayrı qüvvələr, siyasi qruplar, ayrı-ayrı şəxslər Azərbaycanın bu faciəli vəziyyətində biri o birinə üstün gəlib, üstün gəlməyə cəhd göstərib, biri digərini yıxaraq onun yerinə keçmək istəmişdir. Belə bir şəraitdə Azərbaycanın aqibəti, xalqımın ümumi vəziyyəti unudulub, müxtəlif qüvvələrdən hər biri baş verən proseslərdən istifadə edərək hakimiyyətə gəlmək istəmişdir. 1992-ci ildə hakimiyyətə gələn qüvvələr də elə Qarabağ problemindən istifadə etmişdilər. İndi də ayrı-ayrı siyasi qüvvələr yaranmış fürsətdən öz məqsədləri, siyasi hikkələri üçün istifadə etməyə çalışırlar.

Əgər son dövrə nəzər salsaq, bu ilin əvvəlindən götürsək, Azərbaycanın müdafiə imkanlarının böhranı, dövlət rəhbərliyinin böhranı o vaxtdan başlanmışdır. Xatırlayın, bu ilin fevralında Azərbaycanda dərin böhran əmələ gəldi, respublikanın rəhbərliyində toqquşmalar, ayrı-ayrı qrupların qarşıdurması və bir-biri ilə mübarizəsi Azərbaycan Respublikasının müdafiə qüvvələrini çox zəiflətdi. Bu qüvvələr birləşmək, respublikanı qorumaq əvəzinə, bir-biri ilə toqquşmağa başladılar. Nəticədə martın axırında Kəlbəcər rayonu əldən getdi.

Bu ilin iyun ayını yada salın. Respublika dərin hakimiyyət böhranı keçirirdi. Azərbaycanı bürümüş ictimai-siyasi, iqtisadi böhranlara yenisi də əlavə olundu – dövlət rəhbərliyi böhranı baş verdi. Bəzi qüvvələr öz şəxsi məqsədlərinə nail olmaq üçün respublikanı

parçalamaq səviyyəsinə gətirib çıxardılar. Ordu parçalandı. Bunları unutmaq lazım deyil. Silahlı qüvvələrin bir hissəsi Gəncə tərəfdə, bir hissəsi Qarabağda, bir hissəsi Lənkəran zonasında qaldı. O vaxt Lənkəran zonasında milli-etnik problemlər qabarıq şəkildə üzə çıxdı. Azərbaycan vətəndaş müharibəsi səviyyəsinə gəlib çatdı. Bir tərəfdən "Talış-Muğan Respublikası" yaratmaq istəyən quldur dəstələri, ikinci tərəfdən süni surətdə "ləzgi problemini" ortaya atan adamlar, üçüncü tərəfdən guya başqa etnik qrupların mənafeyini müdafiə edənlər – bunların hamısı dövlət rəhbərliyinin siyasətində böyük səhvlərin nəticəsində, eyni zamanda həmin rəhbərliyin daxilində gedən çəkişmələrin nəticəsində, yenə də hakimiyyət uğrunda mübarizə nəticəsində meydana çıxdı. Bu da, şübhəsiz, Azərbaycanda ordunun yaradılmasına və möhkəmlənməsinə mane oldu, hətta mövcud qüvvələrin dağılmasına, parçalanmasına gətirib çıxardı.

İyun hadisələri dövründə Gəncədə, Bakının yaxınlığında qardaş qanı töküldü, adamlar bir-birinə atəş açdılar, tələf oldular. Nə üçün? Hakimiyyət uğrunda mübarizə üçün, ayrı-ayrı qüvvələrin öz şəxsi məqsədlərinə nail olması üçün. Bir daha qeyd edirəm ki, o zaman Azərbaycan vətəndaş müharibəsi ərəfəsinə gəlib çatmışdır.

Bu gün deyə bilərik ki, biz Azərbaycanı həmin təhlükədən qurtara bildik. Məhz həmin dövrdə mən böyük təkidli dəvətlər nəticəsində Naxçıvandan Bakıya gəldim. Mən heç vaxt hakimiyyət üçün, vəzifə üçün mübarizə aparmamışam, bu niyyətdə də olmamışam. Ancaq Azərbaycanın belə ağır dövründə dəvət olundum və gəldim. Azərbaycan xalqının iradəsi bir yerə toplandı, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı, lazımi tədbirlər görüldü. Lakin ayrı-ayrı qüvvələr yenə də respublikanı parçalamaq, ölkədəki ictimai-siyasi qrupları bir-birinə qarşı qoymaq, beləliklə də Azərbaycanın müdafiə imkanlarını zəiflətmək istədilər. Onlar bu əməlləri indi də davam etdirirlər.

Əgər son iki il ərzində, Azərbaycanın müstəqil dövlət olduğu dövrdə respublikanı etibarlı müdafiə etmək üçün lazımi silahlı qüvvələr yaransaydı, daxili sabitlik olsaydı və bütün qüvvələr torpaq-

larımızı qorumağa, ərazi bütövlüyümüzü qorumağa, ərazi bütövlüyümüzü təmin etməyə yönəldilsəydi, indi bu günə düşməzdik. Son aylarda cəbhə bölgələrindəki uğursuzluqlar, bəzi rayonların erməni silahlı qüvvələri tərəfindən işğal olunması bu böhran proseslərinin, daxildəki çəkişmələrin, toqquşmaların, rəqabətin nəticəsində baş vermiş böhranın məntiqi yekunudur.

Bu qısa müddətdə istənilən səviyyədə ordu yaratmaq, Azərbaycanı müdafiə etmək çox çətin vəzifədir. Çünki çox şey pozulduğu kimi, müdafiə qüvvələri də pozulmuşdur. Əgər son həftələrdə bizim minlərlə döyüşçümüz öz mövqelərini vuruşmadan qoyub qaçıbsa, bunu necə qiymətləndirmək olar? Demək, orduda nizam-intizam, tələbkarlıq, qanun-qayda olmamışdır. Eyni zamanda, bizdə olan məlumata görə, ordu hissələrinin bəzilərinin döyüşsüz, müqavimətsiz geri çəkilməsi, bəzən isə yerli əhalini vahiməyə salaraq, qorxudaraq vaxtından əvvəl öz yerlərindən çıxarılması ayrı-ayrı cinayətkar dəstələrin, müxtəlif siyasi qrupların yenə də şəxsi mənafelərinə, məqsədlərinə nail olmaq üçün apardıqları təxribatların nəticəsidir. Bunu demək üçün əlimizdə çox əsaslı dəlillər var.

Ona görə də vəziyyətə düzgün qiymət verilməlidir və heç kəs belə düşünməməlidir ki, guya bu vəziyyət ancaq son vaxtlarda yaranmışdır. Yox. Bu, Azərbaycanda gedən proseslərin, həm ordu içərisində, həm siyasi qüvvələr arasında gedən proseslərin məntiqi nəticəsidir, indiyə qədər Azərbaycanda silahlı qüvvələrin təşkil olunmamasının, Müdafiə Nazirliyində, ordu hissələrində yol verilən kobud səhvlərin, bəzən isə cinayət hallarının, xəyanətlərin nəticəsidir. Belə hesab edirəm ki, biz bu məsələlərə doğru-düzgün, obyektiv münasibət bəsləməliyik və heç kəs yaranmış vəziyyətdən öz şəxsi məqsədlərinə nail olmaq üçün istifadə etməməlidir. Bir daha qeyd edirəm, bu günlərdə biz gecə-gündüz bu məsələlərlə məşğul olmuşuq. Ola bilər, başqa məsələlərlə məşğul olmağa vaxt tapmamışıq.

Dünən biz yaranmış vəziyyəti Müdafiə Şurasında müzakirə etdik, ciddi tədbirlər gördük. Müdafiə nazirinin birinci müavini, sərhəd bölgələrində hərbi hissələrə rəhbərlik edən general-mayor Zadir Rza-

yev vəzifəsindən kənarlaşdırıldı. Onun general rütbəsindən məhrum edilməsi məsələsi də müzakirə olundu. Ancaq keçmiş xidmətlərini nəzərə alaraq, bu qərarı qəbul etmədik, yalnız onu vəzifəsindən götürdük. Eyni zamanda tapşırıq verdik ki, bu məsələlər daha dərindən təhlil olunsun. Müdafiə nazirinin birinci müavini, baş qərargah rəisi Səfər Əbiyev vəzifəsindən kənarlaşdırıldı. Müdafiə naziri yeni təyin olunub, cəmi ikinci aydır ki, işləyir, ona töhmət verildi.

Eyni zamanda qeyd olundu ki, Nazirlər Kabineti, onun rəhbərliyi son aylarda müdafiə məsələlərinin təşkilini öz üzərinə götürsə də, lazımi tədbirlər görməmiş, ordunun təchizatı məsələləri ilə yaxından məşğul olmamış, ordunun təşkili işində səhvlərə yol vermişdir. Bununla əlaqədar onlara xəbərdarlıq edilmişdir. General Nəcməddin Sadıqov baş qərargahın rəisi təyin olunmuşdur. Başqa tədbirlər də görülür.

Ancaq güman etmirəm ki, son hadisələrə qiymət verməyimiz bu tədbirlərlə qurtarır. Xeyr. Hüquq-mühafizə orqanlarına, prokurorluq orqanlarına göstəriş vermişik ki, ordu hissələrində xəyanətkar, cinayətkar hərəkət etmiş adamlar haqqında lazımi tədbirlər görülsün. Bu şəxslərin hamısı həm qanun qarşısında, həm də xalq qarşısında cavab verməlidir.

Dünənki müzakirənin gedişində məlum olan bir məsələni də qeyd etmək istəyirəm. Son günlərdə işğal olunan ərazilərdəki ordu hissələrində xidmət edən adamların əksəriyyəti həmin rayonların vətəndaşlarıdır. Məsələn, Zəngilan rayonundan çıxan hərbi hissədə əsgərlərin, zabitlərin əksəriyyəti yerli adamlardır. Onlar döyüşmək əvəzinə, öz topraqlarını müdafiə etmək əvəzinə atəş səsi eşidən kimi tez-tələsik ailələrini çıxarmaqla və başqa işlərlə məşğul olmuşlar. Şübhəsiz ki, dinc əhali döyüş bölgələrindən çıxarılmalıdır, bunun üçün lazımi tədbirlər görülməlidir. Lakin bu o demək deyildir ki, döyüşçü öz mövqeyini tərk edərək, yalnız özü və ailəsi haqqında düşünsün, qaçmağa çalışsın. Qeyd etmək istəyirəm ki, bu rayonların ərazisində bizim vətəndaşlarımız, öz torpaqlarını müdafiə etməyə qadir olan cavanlar da var idi. Onların da çoxu vaxtından əvvəl qaçıb

getmişdir. Əgər adam öz evini, öz ocağını, öz torpağını, öz yaşayış yerini qorumursa, onun əvəzinə kim gəlib qoruyacaqdır?

Bəli, Azərbaycan xalqı qəhrəman xalqdır. Onun tarixində igidlik ənənələri həmişə güclü olmuşdur. Xalqımız öz qəhrəmanları ilə daim fəxr etmişdir. Azərbaycan xalqının qüdrəti bu gün də itməmişdir. Ancaq qeyd etdiyim kimi, son illərdə gedən mənfi proseslər insanların bir çoxunun mənəviyyatını pozmuş, onların bəzilərində vətənpərvərlik hissini tamamilə kütləşdirmişdir. Vətəni qorumaq, torpağa bağlı olmaq hissini, "ölsəm də, öz torpağımda şəhid olum" hissini çoxları itirmişdir. Bu, onların günahı deyil, onlara rəhbərlik edən adamların təqsiridir.

Ordumuzda narahatlıq doğuran, adamı dəhşətə gətirən başqa hallar da var. Mən bunu sizə çox böyük təəssüflə, həyəcan hissi ilə deyirəm, lakin bu həqiqəti etiraf etməyə məcburam bütün bu proseslər bir neçə il ərzində yığılmış bu günahlar, nöqsanlar, çatışmazlıqlar, ayrı-ayrı yerlərdə mənəviyyat pozğunluğu, cinayətkarlığın artması, cinayətkar ünsürlərin üstün mövqe tutması – bunların hamısı bütövlükdə qəhrəman, mərd, mətanətli, cəsarətli Azərbaycan xalqını belə ağır, çətin vəziyyətə salmışdır.

Ancaq bu o demək deyildir ki, biz çıxılmaz vəziyyətdəyik. Xeyr. Bu vəziyyətdən çıxmaq üçün Azərbaycan xalqının qüdrəti və imkanları var. Lakin bundan ötrü gərək xalq bir məqsədə xidmət etsin. Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, onun suverenliyini, müstəqilliyini qorumaq hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır. Qalan hisslər, duyğular, qalan cəhdlər hamısı bir kənara qoyulmalıdır. Ancaq indiyə qədər biz bunu etməmişik.

Yəqin indi hamı başa düşür ki, Azərbaycan çox gərgin vəziyyətdədir. Ona görə də, bir daha qeyd edirəm, bu barədə lazımi tədbirlər görüləcəkdir. Müdafiə Nazirliyinin rəhbərliyində aparılmış dəyişikliklər və başqa tədbirlərimiz şübhəsiz ki, öz nəticəsini verməlidir. Biz müdafiə qüvvələrimizi hər cəhətdən gücləndirməliyik.

Hətta belə ağır vəziyyətdə də mən yenə atəşin dayandırılması, sülh danışıqları aparılması, məsələnin sülh yolu ilə həll olunması və

işğal edilmiş torpaqlarımızın bu yolla geri qaytarılması tərəfdarıyam. Mənim mövqeyim belədir və ona əsaslanaraq ayrı-ayrı dövlətlərlə əlaqə saxlayıram. Ermənistanla bəzi danışıqlar aparırıq. Bu mövqeni gələcəkdə də davam etdirəcəyik. Eyni zamanda biz təkcə buna ümid bəsləmirik. Azərbaycanın gərək etibarlı müdafiəsi olsun. Biz işğalçılıq, qəsbkarlıq siyasəti yeritmirik. Biz sadəcə olaraq torpaqlarımızı özümüzə qaytarmalıyıq, işğal edilmiş ərazilərimizi geri almalıyıq. Azərbaycanın ərazi bütövlüyünü təmin etməliyik. Bu, haqq işidir. Biz bu haqq yolda bütün imkanlardan istifadə etməliyik.

Müdafiə qüvvələrini möhkəmləndirmək üçün Azərbaycanda bütün mənəvi-psixoloji vəziyyət dəyişməlidir. İndiki əhval-ruhiyyə ilə Azərbaycanın bütövlüyünü təmin etmək mümkün olmayacaqdır. Bir tərəfdə torpaqlarımız əldən gedib, yüz minlərlə adam qaçqın düşüb ağır vəziyyətdə yersiz-yurdsuz, çadırlarda (bəzən bunlar da çatışmır) yaşayır, o biri tərəfdə isə Azərbaycan torpağında yaşayan, onun çörəyini yeyib suyunu içən, havası ilə nəfəs alan, sərvətlərindən istifadə edən adamlar eyş-işrət içərisindədirlər. Hələlik onlarda Azərbaycanı qorumaq, müdafiə etmək əhval-ruhiyyəsi yoxdur. Şübhəsiz ki, belə vəziyyətdə biz bu uğursuzluqların təbii olduğunu qeyd etməliyik. Ona görə də gərək bütün qüvvəmizi toplayaq.

İndi Müdafiə Nazirliyi lazımi tədbirlər görür, səfərbərlik aparılır. Bu, ümumi səfərbərlik deyil. Adi səfərbərlikdir. Sizə xatırlatmaq istəyirəm ki, Azərbaycan Sovetlər İttifaqının tərkibində olanda hər il Sovet Ordusuna 60 min nəfər çağırışçı yola salınırdı. İndi, Azərbaycan müstəqil bir dövlət olanda nə üçün bunu etmək mümkün olmasın?

Nə üçün gənclərin bir hissəsi çağırışdan boyun qaçırır, orduda xidmət etmək istəmir, valideynləri isə cürbəcür vasitələrlə onları hərbi xidmətlərdən azad etdirirlər? Bəziləri orduda xidmət etməli olan oğlanlarını Azərbaycandan kənara, başqa ölkələrə göndərmişlər. Bəs onda Azərbaycanı kim qoruyacaq, onun müstəqilliyini kim təmin edəcəkdir? İndi adamları ayağa qaldırmaq, milli-vətənpərvərlik hissini yüksəltmək, xalqı səfərbər etmək əsas vəzifələrimizdən biridir.

Mən bu gün televiziya ilə verilən kiçik bir xəbəri dinlədim. 1941-ci ildə Böyük Vətən müharibəsinin ilk günündə Azərbaycandan 18 min nəfər könüllü yazılaraq cəbhəyə getmişdi. O vaxt Azərbaycanın əhalisi cəmi üç milyon nəfər idi. İndi nə üçün bunu edə bilmirik? O zaman Sovetlər İttifaqını qorumaq üçün cəbhəyə gedirdilər. İndi isə doğma torpağımızı, öz dövlətimizi, müstəqil Azərbaycanı qorumaq üçün adamları səfərbər edə bilmirik.

Doğrudur, son günlər bizə məlumatlar gəlmişdir ki, bəzi yerlərdə hərbi komissarlıqlar, polis idarələri bu işdə də əyintilərə yol vermişlər. Bu əyintilər nədən ibarətdir? Bir tərəfdən onlar adamları qanunsuz toplayaraq çağırış məntəqələrinə aparır və orada qeyri-qanuni hallara yol verirlər. Bu isə xalqın narazılığına səbəb olur. Biz dünən Müdafiə Şurasında müzakirə zamanı belə halları pislədik. İkinci tərəfdən isə xəbər verirlər ki, adamları yığıb çağırış məntəqəsinə aparırlar, səhəri gün burada həmin adamların cəmi 20 faizi qalır, 80 faizi yox olur. Bu, nə təhər olur? Rüşvət alıb buraxırlar.

Azərbaycanda rüşvətxorluq indi ən dəhşətli bir haldır. Həyatın hər sahəsində rüşvətxorluq baş alıb gedir. Azərbaycan vətəndaşları, xüsusilə 70-ci illərdə fəaliyyət göstərən adamlar bilirlər ki, mən o dövrdə respublikaya rəhbərlik edəndə rüşvətxorluqla mübarizəni fəaliyyətimin əsas istiqaməti kimi qəbul etmişdim.

Azərbaycana rəhbərlik etdiyim 14 il ərzində fəaliyyətimin çox hissəsini rüşvətxorluqla mübarizəyə sərf etmişdim. Doğrudur, mən Azərbaycandan gedəndən sonra, xüsusən də istefaya çıxandan sonra bəzi adamlar həmin rüşvətxorları, oğruları milli qəhrəman səviyyəsinə qaldırdılar, onları 70-ci illərin guya qurbanları hesab etdilər. Nəticədə nə oldu? Azərbaycanda rüşvətxorluq on qat, iyirmi qat, yüz qat artdı. İndi bu vəziyyət bütün xalqı dəhşətə gətirir. Elə bu səfərbərlik hadisəsində də, hərbi komissarlıqların əksəriyyətində rüşvətxorluq halları var.

Kim məndən inciyirsə, qoy incisin, həqiqəti demək lazımdır. Heç belə iş olarmı? Rüşvət verən, öz oğlunu çağırışdan azad edən adam Vətən haqqında, torpaq haqqında düşünürmü? Yaxud da ki, rüşvət

alıb, cinayət yolu ilə cibini pulla dolduran adam Vətən haqqında, torpaq haqqında, Azərbaycanın müstəqilliyi haqqında düşünürmü? Bunların hamısı aradan götürülməlidir. Biz bu sahədə ciddi tədbirlər görəcəyik. Mən hamıya xəbərdarlıq edirəm və bildirmək istəyirəm ki, biz bu hallara dözməyəcəyik. Lakin biz nə qədər mübarizə aparsaq da, – mən bunu öz həyat təcrübəmə əsasən deyirəm, – əgər insanların mənəviyyatında dəyişiklik olmasa, pozulmuş mənəviyyat bərpa edilməsə, insanlarda vətənpərvərlik, namus, şərəf, qeyrət hissi baş qaldırmasa, biz heç nə edə bilmərik.

Buna görə də sizə müraciət edirəm. İndi bizim ordumuz yaranmalı və qurulmalıdır. Bir də qeyd edirəm, ordumuz ancaq Azərbaycanı müdafiə etmək məqsədi daşıyır. İşğalçılıq məqsədi daşımır. Bizim işimiz haqq işidir, gərək hər bir vətəndaş bunu özünün şərəfli borcu kimi qəbul etsin. Kim özü orduda qulluq edə bilirsə, qoy könüllü surətdə getsin. Kim özü qulluq edə bilmirsə, yanındakıları başa salsın ki, gedib orduda xidmət etmək lazımdır. Yaxud əgər özü orduda qulluq edə bilmirsə, fikirləşsin ki, orduya necə kömək etmək lazımdır. İndi bunların hamısı ən zəruri vəzifələrdir. Bütün xalqa, Azərbaycan vətəndaşlarına müraciət edirəm ki, bu tədbirlərin həyata keçirilməsində fəal iştirak etsinlər.

Azərbaycan böyük təhlükə altındadır. Lakin biz bu təhlükənin qarşısını ala bilərik, almalıyıq da. Hər kəs öz vəzifəsini başa düşməlidir. Polis orqanları, hərbi komissarlıqlar, başqa hüquq mühafizə orqanları, prokurorluq orqanları qanun-qayda yaradılması üçün, adamların qanuna riayət etməsi üçün lazımi tədbirlər görməlidirlər. Amma bunun üçün gərək həm polis, həm prokurorluq orqanlarında, həm hərbi komissarlıqlarda, həm də başqa sahələrdə, ordumuzun zabit heyətində, yüksək təbəqələrində mənəviyyatca saf adamlar olsunlar. Əgər belə olmasa, onlar öz vətəndaşlıq, azərbaycanlılıq, vətənpərvərlik məsuliyyətini hiss etməsələr, bu vəzifələri yerinə yetirə bilməyəcəklər.

Bəli, polis, prokurorluq orqanlarına, hərbi komissarlıqlara böyük səlahiyyətlər verilib. Ancaq bu səlahiyyətlərdən yalnız və yalnız dövləti

möhkəmləndirmək, nizam-intizamı gücləndirmək, ordunu qurmaq, müdafiə qüvvələrini möhkəmləndirmək, ərazi bütövlüyümüzü təmin etmək üçün istifadə etmək lazımdır. Şəxsi məqsədlər bir yana atılmalıdır. İndi hər şey cəbhə üçün, müdafiə üçün olmalıdır. 1941-45-ci illər müharibəsi dövrünü bir daha yadınıza salın. O dövrü yaşayan adamlardan biri də mənəm. O vaxt insanlar ac da, çılpaq da qalırdılar, çox şeydən məhrum idilər. Lakin bir şey hamı üçün ümdə idi, əsas vəzifə idi: cəbhəyə, orduya kömək etmək, Vətənin müdafiəsini təşkil etmək. İndi də hamı belə etməlidir, indi də belə olmalıdır.

İndi biz respublikamızda iqtisadiyyat sahəsində islahatlar keçiririk. Bazar iqtisadiyyatı əsas yolumuzdur, sərbəst iqtisadiyyata böyük meydan vermişik və bu yolla da gedəcəyik. Lakin bu o demək deyildir ki, bəzi adamların çıxışlarında, bizə gələn məktublarda deyildiyi kimi, Bakıda cavan oğlanlar alver eləsin, kommersiya mağazalarında otursun, eyş-işrətlə məşğul olsun, xalqımızın bir hissəsi – onsuz da ağır vəziyyətdə, kənd rayonlarında yaşayan hissəsi isə gedib torpaqları müdafiə etsin. Bu torpaq hamımızındır – təkcə orada yaşayan adamların, təcavüzə məruz qalanların deyil, bütün Azərbaycanın torpağıdır. Hesab edirəm ki, bizim vətəndaşlarımız, ictimai-siyasi təşkilatlarımız məni düzgün başa düşərlər. Bir tərəfdə restoranlarda çalğı, həddindən artıq pullu adamların cürbəcür kef məclisləri, digər tərəfdə isə şəhidlər, cəbhədə vuruşanlar, qaçqın düşüb ağır vəziyyətdə yaşayanlar. Yox, hamı bərabər yaşamalıdır. O adamların hamısı bu işlərini qoyub cəbhəyə getməlidirlər. Ümumiyyətlə, indi Azərbaycanda hamıda Vətəni müdafiə əhval-ruhiyyəsi olmalıdır. Mən bütün vətəndaşları bu yola dəvət edirəm. Kim bu yolla gedəcəksə, o, xalqını sevən, Vətəninə sədaqətli olan adamdır. Kim bizim əxlaqımıza, mənəviyyatımıza, milli ənənələrimizə zidd olan yollarla gedəcəksə, o cür həyat tərzi ilə yaşayacaqsa, onların Azərbaycanda yaşamaq hüququ yoxdur.

Hətta bəzi hərbçilər də mənə deyirlər ki, bu ağır vəziyyətdə Azərbaycanı atıb başqa ölkələrə gedən, vəziyyət dəyişdikdən sonra geri qayıtmaq istəyən adamları respublikanın vətəndaşlığından

məhrum etmək lazımdır, onların Azərbaycana qayıtmasına imkan verilməməlidir. Bu təkliflərdə həqiqət var. Həmin təklifləri irəli sürənlər Azərbaycana canı yanan adamlardır. Güman edirəm ki, mənim bu sözlərimi düzgün başa düşəcəksiniz.

Biz çoxlu məktub alırıq, bizə xeyli müraciətlər də olur. Əhalinin əksər hissəsi qanun-qaydanı möhkəmlətməyi, tələbkarlığı artırmağı, adamları nizam-intizama tabe etməyi, qanunları ciddiləşdirməyi istəyir. Bunların hamısı təbiidir. Ürəyi Vətən üçün, xalq üçün, torpaq üçün yanan adam belə düşünür və belə də düşünməlidir. Biz bu sahədə də lazımi tədbirlər görəcəyik.

Qeyd etdim ki, Azərbaycanda 1 milyon nəfərdən çox qaçqın var. Son vaxtlar onların sayı artıb. Qaçqınların bir hissəsi İmişli rayonunun ərazisində yerləşdirilib, İran İslam Cümhuriyyətindən oraya yardım, çadırlar və sair şeylər göndərilib. Qaçqınların bir hissəsi başqa rayonlarda yerləşdirilib, bir hissəsi də Bakıya gəlib. Onların hamısına mütləq qayğı göstərilməlidir. Lakin lazımi qayğı yoxdur. Mən yenə də əlli il bundan əvvəlki müharibəni yada salıram. O vaxtlar Sovetlər İttifaqı ərazisinin xeyli hissəsi faşist qoşunları tərəfindən zəbt edilmişdi. Çox adam öz yerlərini tərk etmiş, qaçqın vəziyyətinə düşmüşdü. Ancaq o vaxtlar həmin adamları ayrı-ayrı ailələr öz himayəsinə götürürdülər. Mən hesab edirəm ki, Bakı şəhərində də, başqa şəhər və rayonlarımızda da hər ailə bir qaçqın ailəsini qəbul etmək imkanına malikdir. Bu, böyük bir xeyirxah iş olardı. İndi bizim rayonlarda, qəsəbələrdə, kəndlərdə və şəhərlərdə bəzi adamların iri evləri, bir neçə otaqlı mənzili vardır. Nə olar ki, qoy onların hərəsi bir qaçqın ailəsini götürüb saxlasın. Bunu etmək lazımdır. Biz qaçqınları yağışın, qarın altında qoya bilmərik. Bununla yanaşı, dünən biz ciddi tədbirlər görmüşük, Nazirlər Kabinetinə göstəriş vermişik. Qaçqınların məskunlaşdığı yerlərdə əlavə tədbirlər görmək niyyətindəyik.

Eyni zamanda belə bir fikir də meydana çıxıb və mən onu sizə çatdırmaq, müraciət etmək istəyirəm. İndi Azərbaycan Respublikasının, məsələn Bakı, Gəncə, Sumqayıt və başqa şəhərlərdə, digər yerlərində həm dövlət müəssisələrimiz var, həm də çoxlu şirkət, iş

adamları, kommersiya ilə məşğul olan təşkilatlar var. Bunların bir çoxu son illər müvəffəqiyyətlə fəaliyyət göstərir, xeyli vəsait toplaya bilib. Bəs onlar nə iş görürlər? Onların gördüyü işlərə etirazımız yoxdur. Qeyd etdiyim kimi, biz bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yolu ilə gedirik və bunların hamısına imkan verilib və veriləcəkdir. Lakin bununla yanaşı, bax, həmin strukturlar – həm dövlət müəssisələri, həm də xüsusi bölmə, şirkətlər, firmalar, assosiasiyalar, iş adamları qaçqınlara kömək etməlidirlər. Şübhəsiz ki, bu işlər pərakəndə halda ola bilməz. Biz Nazirlər Kabinetinə göstəriş vermişik ki, bu işi mütəşəkkil hala salsınlar.

Lakin elə olmasın ki, kimsə balaca bir iş görməklə, qaçqınlara aparıb yemək verməklə öz vəzifəsini bitmiş hesab etsin. Yaxşı olar ki, qaçqınların müəyyən bir hissəsini ayrı-ayrı şirkətlər, iş adamları və başqaları öz öhdəsinə götürsün, qaçqınların yerləşdirilməsi, maddi cəhətdən təmin edilməsi qeydinə qalsınlar. Ta qaçqınlar öz torpaqlarına qayıdana qədər. Əlbəttə, onlara bundan sonra da kömək edilməlidir. Çünki qaçqınlar öz yurdlarına qayıtdıqdan sonra çətinlikləri çox olacaqdır. Axı onların evləri dağıdılmışdır, bu adamlar var-dövlətlərini itirmişlər. Bu sahədə lazımi işlər görmək lazımdır. Bizdə Qaçqınlar Komitəsi var. Mən onun fəaliyyətini qənaətbəxş hesab etmirəm. O, öz işini genişləndirməlidir. Biz bu sahədə də lazımi tədbirlər görəcəyik.

Mən bütün rayonların, bütün şəhərlərin icra hakimiyyəti başçılarına, bütün nazirliklərin rəhbərlərinə, bütün iş adamlarına, firma rəhbərlərinə – hamıya müraciət edirəm ki, gücümüzü, imkanlarımızı toplayıb qaçqınlara lazımi kömək göstərməliyik.

Son vaxtlar baş vermiş hadisələrdən bəzi qüvvələr Azərbaycanda daxili sabitliyi pozmaq üçün istifadə edirlər. Biz bunu görürük. Həmin qüvvələr, birinci növbədə Xalq Cəbhəsinin qüvvələri və başqa qüvvələr orduda təxribatla məşğul olmuş, cəbhəyanı rayonlara gedərək əhalini yalandan qorxudub geri çəkilməyə məcbur etmişlər. Bu qüvvələrin bəziləri rayonların işğal olunmasına qəsdən imkan yaratmağa cəhd göstərmişlər və fürsətdən istifadə edərək, öz fəaliyyətini

davam etdirməyə can atırlar. Bunların hamısı xəyanətdir. Xalqına xəyanət edən, torpağa xəyanət edən adam əsl xəyanətkardır. Lakin bu, bir adamın işi deyildir, bunlar qruplardır, təşkilatlardır. Bizdə belə məlumatlar var. Azərbaycanın bu vəziyyətə düşməsinin əsas günahkarı olan bu adamlar fürsəti əldən verməyib, itirilmiş mövqelərini geri qaytarmaq, qisas almaq məqsədi güdürlər. Bunun üçün onlar çox çirkin yollara gedirlər və çirkin işlər görürlər. Adamlar arasında cürbəcür təbliğat aparmağa, xalqı çaşdırmağa, ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstərirlər.

Son günlər alınan məlumatlar göstərir ki, Xalq Cəbhəsinin bəzi dəstələri, bəzi təşkilatlar yerlərdə adamlara silah paylayırlar və silahlı üsyan qaldırmaq fikrinə düşüblər, hakimiyyəti ələ keçirmək niyyətindədirlər. Halbuki, hakimiyyət onlarda idi. Amma siz onu saxlaya bilmədiniz. Heç kəs hakimiyyətinizin əldən getməsinə çalışmırdı. Əgər siz bu hakimiyyəti saxlaya bilmədinizsə, özünüz qaçdınızsa, geri çəkildinizsə, buna kim təqsirkardır? Bəs indi nə istəyirsiniz?

Götürək elə həmin iyun hadisələrini. Bu hadisələrin nə üçün və nədən baş verdiyini təhlil etmək istəmirəm. Bu barədə Milli Məclisin qərarı var. Ancaq baş nazir Pənah Hüseynov iyunun 6-da istefa verib, qaçıb, indiyə qədər tapılmır. Ali Sovetin sədri İsa Qəmbərov iyunun 13-də istefa verib. Azərbaycan prezidenti Əbulfəz Elçibəy iyunun 17-də Bakını tərk edərək gedib və indiyədək Kələki kəndində yaşayır. Əgər onlar günahkar deyildilərsə, hakimiyyəti özlərində saxlamaq fikrində idilərsə, nə üçün istefa verdilər, nə üçün qaçdılar? Halbuki hakimiyyət də, dövlət də onların əlində idi. Onlar hakimiyyətdən də, dövlətdən də, bütün imkanlardan istifadə edib, Azərbaycanda sabitlik yaratmalı, vətəndaş müharibəsinin qarşısını almalı və silahlı qüvvələri gücləndirib, Azərbaycanın müdafiəsini təmin etməli idilər. Ancaq bunu etmədilər. Ona görə etmədilər ki, onlar hakimiyyətə gələn gündən daxildə bir-biri ilə mübarizə aparmaq, bir-birini yıxmaq, bir-birinin vəzifəsini əlindən almaq niyyətləri ilə yaşayır, cürbəcür qanunsuz hərəkətlərə yol verir, xalqda narazılıq yaradırdılar. Ona görə də bu hakimiyyət öz-özünə yıxılıb getmişdir.

Bir sözlə, bu hakimiyyəti onların özləri təhvil verib, özləri çıxıb gediblər, onları heç kəs yıxmayıbdır. İndi bu vəziyyətdə torpağı, Vətəni qorumaq əvəzinə Xalq Cəbhəsinin fürsətdən istifadə edib ara qızışdırması, insanları çaşbaş salması, qaçqın vəziyyətinə düşən adamlardan öz çirkin məqsədləri üçün istifadə edib təxribatlar törətməsi, dövlət orqanlarına qarşı təbliğat aparması nəyə lazımdır? Halbuki Xalq Cəbhəsi torpağı qorumaq, Vətəni qorumaq məqsədilə yaradılmışdı. Demək belə çıxır ki, beş ildən bəri gedən proseslər indi də davam edir. Bunlara son qoymaq lazımdır.

Buna görə də oktyabrın 10-da prezident vəzifəsinin icrasına başlayarkən xalqa müraciətimdə də bildirdim ki, mən prezident kimi Azərbaycan Respublikasında siyasi dünyabaxışından asılı olmayaraq bütün qüvvələri əl-ələ verib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa dəvət edirəm. Ola bilsin ki, kiminsə kimdən xoşu gəlmir, birinin bir cür, başqasının ayrı cür dünyagörüşü var, – bunların hamısı kənara qoyulmalıdır. Ola bilər ki, tarixi biri bir cür, başqası ayrı cür təhlil etsin, – bunlara son qoyulmalıdır. İndi Azərbaycan üçün bir amal, bir məqsəd var: Azərbaycanı bu ağır vəziyyətdən xilas etmək, onun ərazi bütövlüyünü, müdafiəsini təmin etmək. Kimin əlindən nə gəlirsə, bu amal, bu məqsəd naminə etməlidir.

Hamımız üçün bir böyük məfhum var: Azərbaycan Respublikası, Azərbaycan xalqı. Bu məfhumun ətrafında hamı sıx birləşməlidir.

Azərbaycanın müstəqilliyi, müdafiəsi, ərazi bütövlüyü təmin edildikdən sonra kim hansı vəzifəni istəyirsə, gəlib götürsün. Ancaq indi durub vəzifə davası döymək, bu fürsətdən, bu yazıq, məzlum adamlardan, onsuz da ağır bəlaya düçar olmuş insanlardan, qaçqınlardan istifadə edib təbliğat aparmaq, qisas əhval-ruhiyyəsi ilə yaşamaq – bunların hamısı xalqımıza xəyanətdir. Mən başa düşmürəm, nədən ötrü qisas almaq istəyirlər. Ona görə də mən Xalq Cəbhəsinə və başqa siyasi qüvvələrə xəbərdarlıq edirəm ki, bu əməllərindən əl çəksinlər. Azərbaycanın dövlət qanunları qorunacaqdır, Azərbaycan dövləti özünü və respublikanı qorumağa qadirdir. Hesab edirəm ki, bundan hərə özü üçün nəticə çıxarmalıdır. Biz belə hallara yol

verməyəcəyik! Bununla əlaqədar mən xalqa, hamıya – bütün siyasi partiyalara, siyasi qüvvələrə, Azərbaycanı sevən, vətəninə hörmət bəsləyən bütün adamlara bir daha müraciət edirəm: Hamı qüvvələri toplayıb bir hədəfə vurmalıdır, Azərbaycanı müdafiə etmək, bu ağır vəziyyətdən çıxarmaq lazımdır.

Azərbaycan iqtisadiyyatında da dağıntılar çoxdur. Mən bunu dəfələrlə demişəm. Hazırda sənayemiz də, kənd təsərrüfatımız da ağır vəziyyətdədir. Bir tərəfdən torpaqların bir hissəsi işğal edilib, digər tərəfdən kənd rayonlarında lazımi işlər görülmədi, məhsul yığılmadı. Əlaqədar nazirliklər üzərlərinə düşən vəzifələri yerinə yetirmədilər, rayon rəhbərləri lazımi işləri görmədilər. İqtisadiyyatda da çətinliklərimiz çoxdur. Ancaq həm sənayedə, kənd təsərrüfatında, həm də adamların təchizatı sahəsində olan çətinlikləri aradan qaldırmaq mümkündür. Xalqımız dözümlü xalqdır, bu ağır vəziyyətə dözəcəkdir. Ola bilər az yesin, ola bilər nəyi isə çatmasın, ola bilər lazımi paltarı olmasın. Lakin torpağı itirmək olmaz. Ona görə də indi bütün qüvvələr cəlb olunmalıdır ki, hamımız birləşək və hamımız Azərbaycanın müdafiəsini təmin edək, yaranmış vəziyyətdən birlikdə çıxaq.

Bu baxımdan hesab edirəm ki, işğal olunmuş rayonların əhalisi də fəaliyyət göstərməlidir. Həmin rayonlarda çox qəhrəman, cəsur adamlar, hörmətli adamlar olubdur.

Laçın rayonundan da, Kəlbəcər rayonundan da, Dağlıq Qarabağın ərazisindən, Şuşadan, Ağdamdan, Füzulidən, Cəbrayıldan, Qubadlıdan, Zəngilandan olan hörmətli, nüfuzlu şəxslər, bu rayonların əhalisi müdafiə üçün imkanlara malik adamların səfərbər edilməsində bizə kömək etməlidirlər. Bu rayonların əhalisi arasından bizim orduda xidmət etmək imkanı olan adamları gətirib özləri təqdim etməlidirlər. Belə etsələr səfərbərlikdə buraxılmış səhvlər də yəqin ki, olmaz, yaxud da az olar.

Ona görə də həmin rayonların hörmətli adamlarına, vətəndaşlarına müraciət edirəm. Mən bu rayonların səlahiyyətli nümayəndələri ilə – özü də beş-on nəfərlə yox, böyük tərkibdə, hər rayondan 500,

600, 700 nəfərlik tərkibdə – ayrı-ayrılıqda görüşməyə hazıram. Onlarla görüşüb, bu rayonların geri qaytarılması üçün hansı tədbirləri görmək barədə məsləhətləşmək əzmindəyəm və dəvət edirəm ki, bu görüşlər yaxın günlərdə təşkil olunsun. Mən buna hazıram. Eyni zamanda bütün başqa nüfuzlu şəxslərin hamısı ilə, bu işdə iştirak etməyə imkanı olan hər bir adamla görüşməyə hazıram. Bu gün mənə xəbər verdilər ki, böyük bir dəstə – Əfqanıstanda vuruşmuş azərbaycanlı döyüşçülər, təxminən min nəfər adam mənimlə görüşmək üçün müraciət ediblər. Mən onlarla görüşməyə razılıq vermişəm. Onlar Azərbaycanın müdafiəsi üçün vuruşmağa hazırdırlar. Bu, yaxşı təşəbbüsdür. Arzu edərdim ki, belə təşəbbüslər davam etsin. Beləliklə biz müdafiə qüvvələrimizi möhkəmləndirər, Azərbaycanda milli həmrəyliyi, milli birliyi təmin edərik. Ancaq bunlarla yanaşı, bizə gələn məktubların , təkliflərin hamısında bizdən bir şey tələb olunur: qanun-qaydanı möhkəmlətmək, tələbkarlığı gücləndirmək, cinayətkarlığa qarşı mübarizəni ciddiləşdirmək, hüquq-mühafizə orqanlarında qanun-qayda yaratmaq, ordunu möhkəmlətmək, orduya qayğı göstərmək.

Baxmayaraq ki, bəzi səbəblərdən, ya qorxaqlığa görə, yaxud pis niyyətlərə görə ordunun ayrı-ayrı hissələrindən qaçıb gedən adamlar var, biz ordumuza, əsgərlikdə olan adamlara hörmət etməliyik, ordumuzu hörmətlə, qayğı ilə əhatə etməliyik. Mən xalqı buna dəvət edirəm. Bəzi qəzetlər belə məlumat verirlər ki, guya bizim uğursuzluqlarımıza səbəb budur ki, ayrı-ayrı batalyonlar vardı, onlar ləğv edildi. Bunlar hamısı yalan sözdür. Onların necə batalyonlar olduğu məlumdur, çoxusu cinayətkar batalyondur. Onlar cəbhə bölgələrində yerli əhalini qarət etməklə məşğul olublar. Erməni silahlı qüvvələri ilə əlaqəyə girib, var-dövlətimizi onlara satmaqla məşğul olublar. Onların adları da məlumdur. Mən bu adları çəkməyə ehtiyac görmürəm.

Onların çoxu Xalq Cəbhəsi ilə, bəziləri başqa qüvvələrlə bağlı olubdur. Bədbəxtlik də burasındadır ki, biz bu ikiillik müstəqillik dövründə Azərbaycanda dövlət strukturu əsasında nizami ordu yaratmaq əvəzinə, ayrı-ayrı adamlar, ayrı-ayrı qüvvələr hərəsi özünə bir batal-

yon yaradıb, gedib haradasa balaca bir kəndi guya alıb, guya böyük bir şücaət göstəribdir. Əslində isə bunlar heç bir nəticə verməyib, bizi gətirib bax, bu dağıntı vəziyyətinə çıxarıb.

Ona görə də mən cürbəcür ittihamları tamamilə rədd edirəm. Kim istəyirsə bizim müdafiə qüvvələrimiz möhkəmlənsin, hamı bir mərkəzdə – Müdafiə Nazirliyində, ordumuzda cəmlənməlidir. Kim orada qulluq etmək istəyirsə, gəlib qulluq etsin.

Qanun-qaydanı, nizam-intizamı möhkəmləndirmək üçün bizə təkliflər gəlir ki, Azərbaycan müharibə şəraitindədir, buna görə də hərbi vəziyyət elan etmək lazımdır. Yaxud bəziləri təklif edirlər ki, fövqəladə vəziyyət elan olunmalıdır. Bu təkliflərdə əsas var. Mən bunlara da müəyyən dərəcədə bəraət qazandırıram. Biz bu barədə düşünürük. Ancaq güman edirəm ki, hər bir şəxs öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirərsə, hər bir azərbaycanlı öz torpağına, vətəninə, öz elinə, obasına sadiq qalarsa və vətənini, torpağını hər şeydən üstün tutarsa, belə tədbirlərə əl atmağa ehtiyac olmayacaqdır. İndi bütün siyasi qüvvələr bir məqsədə qulluq etsələr, dövlətin ətrafında toplaşıb, dövlətçilik yolu ilə, qanun-qayda yolu ilə Azərbaycanı bu ağır vəziyyətdən xilas etmək əzmində olsalar, onda bu tədbirlərə əl atmaq lazım gəlməyəcəkdir. Ancaq ola bilər ki, vəziyyət bizi belə tədbirlərə də əl atmaq məcburiyyətinə gətirib çıxarsın. Güman edirəm ki, əgər biz milli həmrəyliyə, vətəndaş birliyinə, vətəndaş həmrəyliyinə nail ola bilsək, bu tədbirlərin hamısından, şübhəsiz imtina edə bilərik və onlara ehtiyac olmaz.

Bu fikirlərimi sizə çatdıraraq qeyd etmək istəyirəm ki, biz öz diplomatik, siyasi fəaliyyətimizi də davam etdiririk və davam etdirəcəyik. Danışıqlar yolu ilə atəşkəsin davam etdirilməsinə nail olmağa çalışacağıq. Məsələlərin sülh yolu ilə həll edilməsinə bundan sonra da üstünlük verəcəyik. Ancaq hər bir vətəndaş, hər bir azərbaycanlı hiss etməlidir ki, indi vətəni qorumaq üçün hərə öz payını verməlidir, hərə öz yerini tapmalıdır. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur. Bütün qalan problemlər sonra həll ediləcəkdir. Bütün digər problemlər ikinci, üçüncü sıraya keçməlidir. Ön cərgədə birinci növbədə bu problem durmalıdır. Hamı onun ətrafında birləşməlidir.

Mən bəzi acı həqiqətləri sizə çatdıraraq, eyni zamanda bildirmək istəyirəm ki, doğrudan da Azərbaycan xalqının potensialı – həm qəhrəmanlıq, həm döyüşkənlik, həm də intellektual potensialı böyükdür. Biz bu potensialdan səmərəli istifadə etməliyik. Bu sahədə ziyalılarımız daha fəal çalışmalıdırlar. Onlar sərhəd bölgələrində, qaçqınların arasında, ordu hissələrində olmalıdırlar.

Burada oturub ah-vay etməkdən, yaxud qeybətlə məşğul olmaqdansa, ayrı-ayrı məsələlərə cürbəcür qiymət verməkdənsə gedib hərə bir cəbhə bölgəsində, ordu hissəsində adamların əhval-ruhiyyəsini, vətənpərvərlik hissini qaldırsa müdafiə qüvvələrinin möhkəmlənməsində iştirak etdiklərini göstərə bilərlər.

Mən yenə də əlli il bundan əvvəlki müharibə dövrünə qayıdıram. O zaman bizim ziyalılarımız – yazıçılar, mədəniyyət xadimləri, alimlər bu məsələlərdə çox fəal iştirak edirdilər. İndi də ziyalılarımızı dəvət edirəm, çox xahiş edirəm ki, bu işə qoşulsunlar. Ancaq bir məqsədlə – adamların fikrini, mənəviyyatını düzgün istiqamətə yönəltmək üçün qoşulsunlar, onları çaşdırmaq, ayrı-ayrı təxribat işləri aparmaq üçün yox. Güman edirəm ki, bu yolda hamımız bir olmalıyıq. Belə hesab edirəm ki, din xadimləri də bu sahədə öz işlərini görməlidirlər. Azərbaycan xalqının zəngin, milli ənənələri var. Torpaqlarımızın etibarlı müdafiəsi üçün bu ənənələrdən istifadə olunmalıdır.

Bir sözlə, vəziyyət ağırdır, gərgindir. Ancaq bu o demək deyil ki, biz vəziyyəti çıxılmaz hesab edirik. Xeyr. Yenə də deyirəm, bu gün Azərbaycanın böyük gücü, potensialı, xalqımızın zəngin qəhrəmanlıq ənənələri – bunların hamısı birləşdirilməlidir. Bütün imkanlardan istifadə edərək Azərbaycanın işğal olunmuş torpaqlarını geri qaytarmağa bizim imkanımız var.

Sizə bu fikirlərimlə, bu arzularımla müraciət edərək, hamınızı bu yolda fədakar mübarizəyə, Azərbaycanın müdafiəsinə qalxmağa dəvət edirəm və hamınızdan təşəbbüs, əməli fəaliyyət gözləyirəm. Diqqətinizə görə sağ olun, gecəniz xeyrə qalsın. Azərbaycan xalqına həyatın bu ağır dövründə uğurlar diləyirəm. Sağ olun.

AzərTAC.

# BİR BATALYONUN TARİXİ

Sənədli povest

## 1. QUBA-QUSAR BATALYONUNUN YARANMASI

*"Dağlıq Qarabağ Azərbaycanın*
*ayrılmaz tərkib hissəsidir...*
*Azərbaycan öz torpaqlarını nəyin*
*bahasına olursa olsun azad edəcəkdir".*
* * *
*Xalqımız qəhrəman xalqdır, millətimiz də*
*özünü müdafiə etməyə qadirdir".*

*Azərbaycan xalqının ümummilli lideri*

***Heydər Əliyev***

Hər bir xalqın tarixində ağır dövr, çətin sınaq illəri olmuşdur. Həyatın hər dönəmi tarixə həkk olaraq əbədiləşir və gələcək nəsillər üçün məktəb olur. Dərs ala biləcəyimiz tarixi-siyasi hadisələri ya tarix kitablarından, ya da bədii sənədli əsərlərdən öyrənməli oluruq. Bəzən tarix kitablarında oxuduqlarımız yadımızda qalmır, amma bədii dillə yazılanlar isə yaddaşımızda dərin iz salır. Çünki ədəbiyyat qəlbə, ruha təsir edən, hiss, həyəcan doğuran ən gözəl tərbiyə vasitəsidir. Gənclərdə vətənə, xalqa məhəbbət hissini, vətənpərvərlik duyğusunu yaradan, möhkəmləndirən tarixi-siyasi əsərlərin yazılması bu gün Azərbaycan üçün daha vacibdir. 20 ildən artıqdır ki, müharibə şəraitində yaşayan, torpaqlarının 20 faizini itirən, bir milyondan çox qaçqını, köçkünü olan, hər bölgədə şəhid xiyabanları boy-boya verən bir xalqın ağrılı taleyini tarixə salmaq, ədəbiyyata köçürmək əli qələm tutan hər bir vətəndaşın vicdani borcu olmalıdır.

Tarix isti-isti, ağrısı çəkilməmiş, qanı qurumamış yazılmalıdır ki, heç bir təhrifə yol verilməsin. Oxuculara təqdim olunan bu sənədli povest də tariximizin yarası qaysaq tutmayan ən çətin, ağrılı vaxtlarına həsr edilmişdir. Real hadisələri, insan talelərini əks etdirən kitaba bir batalyonun qəhrəmanlıq dastanı kimi də baxmaq olar.

Bu qısa sənədli povest tariximizin çətin vaxtlarına həsr edilmişdir. Burada Azərbaycan əsgərlərinin – bir batalyonda təmsil olan döyüşçülərin Qarabağ uğrunda fədakar mübarizəsindən, ağır döyüş yolundan bəhs olunmuşdur. Bu yol eyni zamanda müharibə yoludur – Quba-Qusar batalyonunun döyüş yolu (1993, 15 noyabr – 1994, fevral).

1988-ci ildən başlanıb bu ədalətsiz, qanlı müharibə... və bu amansız, qanlı müharibədə torpaqlarımızın 20 faizi erməni işğalçıları tərəfindən zəbt edilib, yüzlərlə insan həlak olub, əsir düşüb, əlil olub. Şəhərlərimiz, rayonlarımız və kəndlərimiz ... gözlərimizin önündə sanki yoxa çıxmış, yerində viran olmuş, yandırılmış, yerlə yeksan edilmiş evlər, doğma ocaqlar, sinəsinə çalın-çarpaz dağlar çəkilmiş yaralı torpaqlar qalmışdı...

Bütün bu dəhşətli səhnələr, ölüm saçan müharibə Sovet imperiyasının süqutu illərinə təsadüf edirdi.

Müharibə tarixin ən faciəli, ən dəhşətli səhnəsidir. Bu səhnənin iştirakçıları yaranmış və yaşamaq haqqı olan canlı insanlardır. Müharibə təkcə şəhərləri, kəndləri viran etmir, həm də insan həyatından, taleyindən keçərək bəşərin qəlbində yandırıcı iz qoyur. Hər anı ölümlə üz-üzə olan insanlar müharibədən mərhəmət ummurlar. Çünki müharibə heç nəyə, heç kəsə mərhəmət göstərməyən, kəndləri, şəhərləri, insanları bir göz qırpımında udan əjdahadır. Azərbaycan xalqı 20 ildən artıqdır nəfəs-nəfəsə yaşadığı müharibə adlı dəhşətdən mərhəmət istəmir. Çünki hamı bir müqəddəs amalla yaşayır, bir məqsədi düşünür: Vətənin, xalqın taleyini, yurdun, Ana torpağın gələcəyini...

Qəhrəmanlığın ölçüsünü təyin etmək çox çətindir. Tarixən belə vəziyyətlərdə Azərbaycan əsgəri məhz ölçülərə sığmayan əfsanəvi

qəhrəmanlıqlar göstərmiş, dünyalar qədər sevdiyi Vətən uğrunda canını fəda etməkdən çəkinməmişdir.

Azərbaycan tarixinin qəhrəmanlıqlarla bəzənmiş şanlı səhifələrində yüzlərlə qəhrəmanın adı ulduza dönüb parlayır, gələcəyə nur saçır. Bu günün qəhrəmanları da məhz bu şölələrdən nur alanlardır.

Müharibə bu və ya hər hansı bir dövlətin möhkəmliyinin, monolitliyinin ağır sınaq mərhələsidir.

Məlumdur ki, müharibələrin tarixi insan cəmiyyətinin tarixi qədər qədimdir. Döyüş üsulları dəyişsə də, müharibələrin məqsəd və xarakteri əvvəlki dövrlərdə olduğu kimi dəyişməmişdir. Bütün dövrlərdə qanlı döyüşlərlə paralel şəkildə psixoloji müharibə də aparılmış, bu proses indi də davam edir. Fatehlər bu amilə həmişə üstünlük vermişlər. Məsələn, Makedoniyalı İsgəndər hücum etməzdən əvvəl elçilərini hədə-qorxu ilə rəqib hökmdarın hüzuruna göndərər və danışıqsız təslim olmağı tələb edərdi. Əks təqdirdə böyük faciə baş verəcəyini bildirərdi. Məhz bu taktika nəticəsində onlar hücum etdikləri torpaqları bəzən ciddi müqavimət görmədən fəth edirdilər.

Ermənilərin başladığı işğalçılıq müharibəsi bizim Qarabağın sərhədlərini aşaraq geniş miqyas almışdır. Artıq Azərbaycan torpaqlarının 20 faizi işğalçıların əlindədir. Unutmamalıyıq ki, Azərbaycan regionda mühüm geostrateji mövqeyə malikdir. Avropanı Asiya ilə birləşdirən cənub və şərq yolları buradan keçir. Odur ki, qəsbkarlar həmişə Şərqlə Qərb arasında qızıl körpü olan Azərbaycana sahib olmaq üçün cəhd göstərmişlər.

Tarixin hər dönəmində bu gözəl diyar qəsbkarlar caynağında əzilmiş, parçalanmışdır. Bir əsrdə iki dəfə müstəqilliyi uğrunda böyük çarpışmalardan keçmiş Azərbaycan xalqı XX əsrin sonunda çox ağır və məsuliyyətli zamanın burulğanında idi.

Bax, belə bir ağır məqamda yurdumuza 1993-cü il qədəm qoymuşdu. Azərbaycan dövləti tarixi müstəqilliyinə yenicə qovuşmuşdu. Çox ağrılı və çətin zaman idi. Ata-baba torpaqlarımız bir-birinin ardınca erməni təcavüzü nəticəsində zəbt olunurdu. Cəbhədəki keçmiş hakimiyyətdən qalmış komandirlər çox səriştəsiz idilər.

Ölkəyə yeni Prezident seçilmiş ulu öndərimiz Heydər Əliyev vəziyyətdən çıxış yolunu 1993-cü il noyabrın 2-də xalqa müraciət etməkdə gördü. O, xalqa müraciətində bütün vətəndaşları ayağa qalxmağa, respublikanın bu ağır vəziyyətində öz səylərini birləşdirməyə çağırdı. Ümummilli lider Heydər Əliyevin bu müraciəti torpaqlarımızın erməni quldurlarından azad edilməsi naminə Azərbaycanda yaşayan bütün xalqların birliyinə çağırış kimi qiymətləndirildi. Ulu öndər böyük siyasi uzaqgörənliklə vətəndaş müharibəsi ərəfəsində olan Vətənin dadına yetmiş, son dərəcə məntiqli qərarlar vermişdi.

Atalar yaxşı deyiblər: “Allahsız yerdə otur, böyüksüz yerdə oturma!”

Uçurumun kənarında, bircə addımlığında olan Azərbaycana müdrik siyasətçi, iti ağıllı, uzaqgörən, təcrübəli dövlət xadimi Heydər Əliyevin qayıtması xalqın xoşbəxtliyi idi. Tanrı bu əvəzolunmaz şəxsiyyəti sanki Azərbaycan xalqına məhz bu zaman üçün bəxş etmişdi.

Qeyd etmək lazımdır ki, respublika Prezidenti Heydər Əliyevin xalqa müraciəti məğlubiyyətlərin törətdiyi ruh düşkünlüyünü aradan qaldırdı. Hamı Azərbaycanı düşmən təcavüzündən qorumaq üçün ayağa qalxdı. Çünki Heydər Əliyev bu tarixi müraciətində düşmənə qarşı müharibədə bütün qüvvələri birləşməyə çağırmışdı. Azərbaycan xalqının işi haqq işidir. Prezident öz müraciətində xüsusi vurğulamışdır ki, xalqımız tariximizin bu sərt sınağından da üzü ağ çıxmalıdır və çıxacaq.

“Hər bir azərbaycanlı bilməlidir ki, indi vətəni qorumaq üçün hərə öz payını verməlidir. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur!” Heydər Əliyevin bu sözləri bütün Azərbaycan vətəndaşlarını sanki zəlzələ kimi silkələdi. Vətən oğulları ayağa qalxdı. Könüllülər Vətənin harayına səs verdi, bütün bölgələrdə yerli gənclərdən ibarət xüsusi dəstələr yarandı.

1993-cü il noyabrın əvvəli... Quba-Qusar batalyonunun yaranma tarixi də məhz bu vaxtda, bu tarixi məqama təsadüf etdi. O zaman

mən Quba rayonunun prokuroru vəzifəsində çalışaraq batalyona başçılıq etdim. Öz vəzifəmi, Vətən qarşısında müqəddəs borcumu, gəncləri Vətən məhəbbəti, təəssübkeşliyi ruhunda tərbiyə etməkdə görürdüm. Görülən işlər nəticəsində könüllülərin sayı günbəgün artırdı. "Quba" qəzeti bu günlərdə yazırdı.

### Hər birimizin müqəddəs borcu

Erməni işğalçılarının torpaqlarımıza son təcavüzü rayonumuzun əhalisini də hiddətləndirmişdir. Şəhər mədəniyyət evində keçirilən rayon fəallarının yığıncağında vəziyyətdən çıxış yolları araşdırılmış, vətənin müdafiəsi üçün görülən işlər barədə söhbət aparılmışdır. Rayon icra hakimiyyəti başçısının müavini M.Qəniyev yığıncağı açaraq qeyd etdi ki, 1988-ci ildə başlanan erməni təcavüzü günü-gündən şiddətlənərək daha böyük faciələr törədir. Cəbrayıl, Zəngilan, Qubadlı yaşayış məntəqələrinin işğal edilməsi bir daha sübut etdi ki, biz daha möhkəm səfərbər olmalıyıq. Belə ağır günlərdə mərd oğullarımızın köməyi ilə Quba batalyonu təşkil olunur ki, bunun da bütün xərclərini rayon öz üzərinə götürmüşdür. Artıq onlarla gənc könüllü olaraq bu batalyona üzv yazılır. Dinindən, millətindən, dilindən asılı olmayaraq hər bir şəxs bu gün Azərbaycanın müdafiəsinə çıxmalıdır. Yığıncaqda qeyd olundu ki, respublikada kifayət qədər müharibə əhval-ruhiyyəsinin duyulması, bəzi hakimiyyət strukturlarının öz vəzifə borclarına məsuliyyətsiz yanaşması, ordu quruculuğunda yol verilən nöqsanlar cəbhələrdə məğlubiyyətə səbəb olmuşdur. Bunlara son qoyulmalı, bütün müəssisə və təşkilatlarda, kolxoz və sovxozlarda nizam-intizam möhkəmləndirilməsi, məsuliyyətsizliyə, laqeydliyə, biganəliyə yol verilməməli, əhaliyə mövcud şərait dərindən izah olunmalıdır. Hər bir vətəndaş müharibə dövrünün qayda-qanunu ilə yaşamalıdır. Bu baxımdan rayon prokuroru Ə.Eyvazov öz çıxışında bildirdi ki, bu gün aramızda elə gənclər vardır ki, onlar hərbi çağırışdan qaça-

raq başqa respublikalara üz tutmuşlar. Çox təəssüf ki , bəzi idarə, müəssisə rəhbərləri də öz övladlarını çağırışdan yayındırmaq üçün min bir dona girirlər. Quba batalyonunda hərbi təlim məşğələlərinə başlamış gənclərin bir neçəsi hissəni icazəsiz tərk etmişdir. İndi rayon prokurorluğu bu işlə əlaqədar cinayət işi qaldırmışdır. Səfərbərliyin təşkilində öz işinə laqeyd yanaşan və vəzifə borclarını yerinə yetirməyən bir neçə RİHB-nin KƏB üzrə nümayəndəsi inzibati qaydada cəzalandırılmışdır.

Şəhər 5 nömrəli orta məktəbin direktoru Məsmə Şahverdiyeva isə 1941-45-ci illər müharibəsində qubalıların cəbhəyə göstərdiyi köməklikdə danışmışdır. Sonra o, təəssüf hissi ilə qeyd etdi ki, biz ev-eşiklərindən didərgin düşən qaçqınların halına çox acıyırıq və onların dərdlərinə şərik oluruq. Qaçqınlar arasında döyüşmək qabiliyyəti olan çoxlu gənclər vardır. Onlar geri qayıdıb düşmənlə vuruşmaq əvəzinə isti yerlərdə sığınacaq axtarır. Hətta bazarlarda alver edirlər. Bu , adamın ürəyini ağrıdır.

İndi ziyalılarımız, xüsusilə pedaqoji kollektivlər gənclər arasında hərbi vətənpərvərlik ruhunun qaldırılması üçün məqsədyönlü iş aparmalıdırlar.

"Quba" aqrofirmasının baş direktoru Qədir Paşayev yığıncaq iştirakçılarına müraciətlə dedi:

Son bir neçə gündür ki, əhalinin müharibəyə münasibəti xeyli dəyişmişdir.

Ümid ancaq özümüzədir. Hər kəs cəbhəyə bacardığı köməyi göstərməlidir.

Yığıncaqda rayonda sabitliyin qorunması, xeyriyyəçilik işlərinin gücləndirilməsi və düşmən üzərində qələbəni təmin etmək üçün görüləcək işlər müəyyənləşdirildi.

**M.Məmmədov**

"Quba" qəzeti.–1993.–10 noyabr

## Torpaq hər şeydən müqəddəsdir

Uzun illərdən bəri gözlədiyimiz azadlığı min bir əzab-əziyyətlə əldə etdiyimiz vaxt məkrli düşmənlərimiz ermənilər müstəqilliyimizə zərbə vurmaq üçün altıncı ildir ki, bizimlə müharibə aparır. Vətənin olum, ya ölüm məsələsi həll olunduğu bu ağır günlərdə qubalılar da ayağa qalxaraq torpağımızı qorumağa hazır olduqlarını bildirirlər. Haqlarında söhbət açdığımız bu igidlərin çoxu ailə, ev-eşik sahibləridir. Lakin onlar torpağın müqəddəsliyini hər şeydən uca tutaraq ana vətənin çağırışına öz ürəklərinin hökmü ilə səs verərək könüllü olaraq cəbhəyə getməyə gəlmişlər. İkinci Nügədi kənd sakinlərindən 28 yaşlı bir uşaq atası Fizuli İsmayılov, 26 yaşlı iki uşaq atası Hümmət Məhəmmədov Quba batalyonuna üzv yazılmaq üçün hərbi komissarlığa müraciət etmişlər. Onlara nisbətən hələ çox gənc olan, lakin müharibənin bütün əzab və əziyyətlərini öz gözləriylə görüb, dəfələrlə ölümlə üzbəüz gələn İlqar Nəsirov, Elman Abdullayev də bu çağırışa qoşulmuşlar. İlqar 1991-ci ildən Ağdam, Ağdərə, Murovdağ döyüşlərində fəal iştirak etmişdir. Elman isə 1992-ci ilin mayından Kəlbəcər və Murovdağ döyüşlərində vuruşmuşlar. Bu gün yenə vətənin çağırışına qoşulmuşlar. Zərdabi kənd orta məktəbinin direktoru Niyyət Xalıqovun 46 yaşı vardır. O, zabitdir. Çağırışçılara müraciətlə dedi: məni buraya heç kim çağırmamışdır. Lakin bu gün vətənimizin başı üzərində cərəyan edən faciələrə sükutla baxa bilmirəm. Şagirdlərin qarşısında müharibədən danışmağa utanıram, mənəvi əzab çəkirəm. Bu gün bura gəlmişəm ki, cəbhəyə yola düşüb xalqa, vətənə sədaqətimi sözlə deyil, öz əməlimlə sübut edim.

İkinci qrup müharibə əlili Sabir Məmmədov (Dəlləkli kəndi) isə oğlunun özü ilə gətirmişdi. Hərbi komissar onlardan birinin – Etibarın qalmasını məsləhət görərək İlqarı hələlik evə buraxdı. Araz Orucov da ağsaqqalın sözünə qulaq asıb buraya gəlmişdir. Etibar dedi:

– Biz üç qardaşıq. Buraya atamın arzusu ilə gəlmişəm. Tərəddüd etmədən cəbhəyə gedəcəyəm. Bir şeyi xahiş edirəm. Evdə qalan ailəmə qayğı unudulmasın. Həmişə mənəvi dayaq olsunlar.

Vladimirovka kənd sakini Həmdulla Şeydayev isə öz fikrini belə ifadə etdi:

– Həqiqətən də bu gün çox ağır günlərimizi yaşayırıq. Lakin heç kim bədbinləşməməli, ümidini üzməməlidir. Hamı bir nəfər kimi ayağa qalxıb vətəni müdafiə etməlidir. Mən iki uşaq atasıyam. Özüm də ailədə tək oğulam. Mən günahsız öldürülən qardaş və bacılarımızın intiqamını almaq üçün cəbhəyə gedirəm. O, bir olan Allah görür ki, biz haqq və ədalət uğrunda mübarizəyə qalxmışıq.

Doğrudan da bu gün hərbi komissara müraciət edən könüllülərin sayı əvvəlki günlərə nisbətən xeyli çox idi. Bilmirsən ki, hansının adını çəkəsən, hansından yazasan. Hamı haqqında bir yazıda söhbət açmaq mümkün deyildir. Kiminlə söhbət etdikcə son sözü bu olurdu. Əsgər ailələrinə qayğı bir an da olsun unudulmamalıdır.

Biz də onların sözlərinə ürəkdən tərəfdar çıxır və bir daha hər bir qubalıya müraciət edərək deyirik: cəbhədə həlak olan, yaralanan, döyüşən hər bir əsgər ailəsi diqqətdən, qayğıdan kənarda qalmamalıdır. Axı, onlar sənin, mənim və balalarımızın azadlığı uğrunda vuruşurlar.

**Məzahir Məmmədov**

“Quba” qəzeti.–1993–17 noyabr

Quba-Qusar batalyonunun döyüşçüsü İsmət Cəfərovun gündəliyindən: “Axşam saat $19^{\underline{00}}$ olardı. Quba rayonunun hərbi komissarlığı adamla dolu idi, vəzifəli şəxslər oturmuşdular.”

Mən rayon prokuroru kimi ehtiyatda olan zabitləri könüllü batalyon yaratmağa çağırdım və qeyd etdim ki, vəziyyət ağırdır, cəbhədə dövlətin çağırışına cavab verməliyik. Hansısa şəhidin sözüdür: “Vətəni, Qarabağı televizor qabağında qorumaq olmaz, nə qədər

rahat, nə qədər yaxın otursan da, lap ikiəlli qucaqlasan da, Vətən qorunmaz"".

Heç kimə gizli deyil ki, hamı üçün ağır olan bu dövrlərdə gənclərin əksəriyyəti müxtəlif bəhanələrlə çağırışdan yayınırdılar. Rayon İcra Hakimiyyəti Aparatının təşəbbüsü ilə ağsaqqallardan, müharibə və əmək veteranlarından, Qadınlar Şurasının üzvlərindən, dindarlardan və ziyalılardan ibarət təbliğat qrupları müəssisə və təşkilatlarda, hərbi komissarlıqda və s. yerlərdə əhali arasında söhbətlər aparır, mövcud reallıqları xalqa çatdırırdı.

Quba-Qusar batalyonunun yaradılması ilə əlaqədar Quba rayon Aqrar–Sənaye Bankında 747102 nömrəli hesab açılmışdı.

Quba-Qusar batalyonunun yarandığı günlərdə "Ana Vətən çağırır!" şüarı ilə xalqa müxtəlif müraciətlər oldu.

## ANA VƏTƏN ÇAĞIRIR...

*Quba rayonundan olan şəhid və əsgər analarının rayon qadınlarına müraciəti*

Əziz analar!

Doğma Vətənimiz Azərbaycan yeddinci ildir ki, erməni işğalçılarının təcavüzünə məruz qalmışdır. İlk vaxtlar "Qarabağ" iddiası ilə qan tökən, yurddaşlarımızı öz yurdumuzda didərgin edən düşmən bu gün bütövlükdə Azərbaycan ərazisini viran qoymaqda davam edir. Böyük siyasət oyunbazlarının öz məqsədləri naminə xəlvət-aşkar arxa durduqları işğalçı ermənilər bu ağılsız oyunda vasitə olduqlarını dərk etməkdən çox uzaqdırlar və müvəqqəti uğurlardan daha da coşaraq Azərbaycan xalqını məhv etmək niyyətindədirlər. Belə məkrli niyyəti olan düşmənə yalnız xalqın birliyi və səfərbərliyi ilə qələbə çalmaq mümkündür. Varlı-kasıb, imkanlı-imkansız cəbhələşməsi Azərbaycan dövlətçiliyi və xalqı üçün ermənidən qorxulu düşməndir. Bu gün bütün xalq üçün bir cəbhə – qeyrət cəbhəsi ol-

malıdır. Əlbəttə, biz Analar müharibənin nə demək olduğunu yaxşı başa düşürük. Yüzlərlə igid oğullarımız Vətən yolunda, bizim yolumuzda şəhid olmuşlar. Ancaq bizim ruhdan düşməyə, övladlarımızı hansı yollarlasa gizləyib “qorumağa” haqqımız yoxdur. Biz Analar bir nəfər kimi ayağa qalxmalı, övladlarımıza xeyir-dua verərək onları Vətənin müdafiəsinə göndərməliyik. Vətənin bu dar günündə övladlarımızın mərdlik, mübarizlik, kişilik imtahanından uğurla çıxması üçün onlara mənəvi arxa durmaq bizim borcumuzdur. Onlarda Vətən məhəbbəti, torpaq təəssübkeşliyi tərbiyə etmək – budur bizim vəzifəmiz.

Unutmayaq ki, Azərbaycan torpağından başqa bizim üz tutası başqa Vətənimiz yoxdur. Bizdən əvvəl yaşayanlar öz payına düşənləri – Vətəni qorumağı, övladı Vətən üçün böyütməyi layiqincə yerinə yetiriblər.

Bir də ki, bu düşmənin kim olduğunu biz qubalılar hələ əsrin əvvəllərində görmüşük. Nənə-babalarımızın hələ o zaman günahsız axıdılan qanlarının qisasını, məzarları toy libası geyən şəhid balalarımızın intiqamını almaq vaxtı çatıbdır.

Vətən birdir, Vətən dardadır, bizdən imdad diləyir.
Ana Vətənin harayına biganə qalmağa heç birimizin haqqı yoxdur!

*Şəhid və əsgər analarının*
*rayon yığıncağının iştirakçıları*

Dünyanın hər yerində, bütün dövrlərdə müharibədə ən çox əziyyət çəkən, sonsuz iztirab yaşayan qadınlar olmuşdur. Qadın müharibələrdə əzizlərini, doğmalarını itirir, qadın ata, ər, qardaş itirir, ən ağrılısı canından ayrılan canını – övladını itirir. Bütün bu ağrılara, əzablara baxmayaraq Vətən dara düşəndə yenə əzizlərini, göz bəbəyi balasını Vətən naminə, xalq naminə ölümlə savaşa ürəklə göndərir, get düşməni əz, Yurdunu qoru deyir:

## Əsgər balam

Torpağın bağrında qana dönüb ax,
Çağlasın qeyrətin dur, ayağa qalx,
Qoyma ki, yadlara qalsın Qarabağ,
Düşməndən qisası al, əsgər balam!

Yurdlar dilə gəlib elsiz ağlayır,
Ocaq yerlərimiz külsüz ağlayır,
Bulaqlar utanır dilsiz ağlayır,
Bu qəm yaşlarını sil, əsgər balam!

Namusun, şərəfin təhlükədədir,
Ananın ürəyi səksəkədədir,
Qorxaqlıq, acizlik xalqa ləkədir,
Babək nəvəsisən, bil əsgər balam!

Torpağın köksünü yaran səngərdə,
Yumruq tək birləşsin əsgər, sərkərdə.
Son qoy bu həsrətə, son qoy bu dərdə,
Qəhrəman adını al, əsgər balam!

Xalqına arxalan, özünə inan,
Ümid tək sənədir, yox özgə güman.
Yolunu gözləyir el-oban, anan,
Zəfərlə qayıdıb gəl, əsgər balam!
Qələbə marşını çal, əsgər balam!

**Xuraman**

## AYAĞA QALX, VƏTƏN OĞLU!

*Quba rayonunun əsgəri xidmətdə olmuş bütün gənclərinə, çağırışçılara və onların valideynlərinə müraciət*

Əziz qubalılar! Doğma vətənimiz Azərbaycanın ayrılmaz bir hissəsi olan Dağlıq Qarabağda altıncı ildir ki, qanlı müharibə gedir. Ermənilər bu gözəl diyarı zorla əlimizdən almaq istəyirlər. Qarabağ demək olar ki, tamamilə əldən getmişdir. Bu gün müharibə genişlənərək böyük miqyas almışdır. Son günlər düşmən daha da azğınlaşaraq yeni-yeni torpaqlarımızı zəbt etmiş, dinc əhalini qırmış və əsir almışdır. Bu gün biz erməni işğalçılarının qarşısını alıb torpaqlarımızdan qova bilməsək, onlar öz çirkin əməllərini həyata keçirmək üçün daha dəhşətli qırğınlar törədər, daha çox torpaqlarımızı zəbt edərlər. Bu gün hamı bir nəfər kimi düşmənlə mübarizəyə qalxmalıdır.

Bu gün torpaqlarımızın ermənilərdən azad edilməsi uğrunda yüzlərlə qubalı əsgər cəbhələrdə döyüşür. Onlarla igid oğullarımız döyüş meydanlarında şəhid olmuşdur. Onların qanı yerdə qalmamalıdır. Torpaqlarımızın düşməndən azad edilməsinə daha yaxından kömək məqsədilə əvvəllər əsgəri xidmətdə olmuş, qubalı gənclərdən ibarət xüsusi batalyon yaradılması məqsədə uyğun olardı. Bu sahədə qubalıların yaxşı ənənələri vardır. Təkcə ulu və igid babamız Fətəli xanı yada salmaq kifayətdir.

Həmyerlilərin bir batalyonda xidmət etməsi əsgərlərdə bir-birinə daha çox etibar yaradar.

Əziz gənclər, biz əminik ki, bu çağırışa həvəslə qoşularaq döyüşlərdə nəyə qadir olduğunuzu sübut edəcəksiniz. Bu gün ana vətən dardadır. Onu xilas etmək hamının borcudur.

Hörmətli valideynlər, analar və atalar! Azərbaycan dövlətçiliyi və xalqı böyük təhlükə qarşısındadır. Məkrli düşmənimiz ermənilər və onların havadarları Azərbaycan xalqını məhv etmək məqsədlərini

qarşıya qoymuşlar. Bu çirkin niyyətin həyata keçirilməsinin qarşısını almaq üçün hamı bir nəfər kimi ayağa qalxmalı və silaha sarılmalıdır. Gəncləri Vətən məhəbbəti, təəssübkeşliyi ruhunda böyütmək və tərbiyə etmək bu günün ən mühüm vəzifəsidir. Müstəqil Azərbaycan milli ordusu sıralarında xidmət etmək, kişilik məktəbini keçmək hər bir vətəndaşın müqəddəs borcudur. Biz əminik ki, siz övladlarınıza xeyir-dua verərək onları vətənin müdafiəsinə göndərəcəksiniz və onlara mənəvi dayaq olacaqsınız. Vətən ciddi təhlükə qarşısındadır. Bu bəladan qurtarmaq üçün hamı səfərbər olmalıdır.

*Quba rayon əmək və müharibə veteranları şurası*
*Quba rayon qadınlar şurası*
*Quba rayon dindarlar şurası*

## Tanrı sizi qorusun

Biz müharibə veteranları ikinci dünya müharibəsinin odu-alovu içərisindən keçmişik. Buna görə də müharibənin törətdiyi dəhşətləri, ölkəyə, onun xalqına vurduğu yaraları öz gözlərimizlə görmüşük. Müharibə nə qocaya, nə uşağa, nə qadına aman vermir. Onu da yaxşı bilirik ki, ərazisində müharibə gedən hər bir xalq başqasının köməyinə ümid olmadan özü-özünü müdafiə etməli, düşməni torpaqlarından qovub çıxarmalıdır.

Erməni təcavüzkarları son günlər daha da azğınlaşaraq Zəngilan, Cəbrayıl və Füzuli rayonlarının İranla həmsərhəd şəhər və kəndləri istiqamətində qanlı döyüşlər aparırlar. Dinc əhali qırılır. Daha dözmək olmaz. Bütün xalq ayağa qalxmalı, öz torpağını və namusunu qorumalıdır.

Əziz gənclər, Vətəni, ana və bacılarımızın namusunu qorumaq birinci növbədə sizin üzərinizə düşür. Biz möhkəm inanırıq ki, siz bu şərəfli və çətin vəzifəni yerinə yetirmək üçün döyüş meydanlarına cəsarətlə atılacaqsınız. Tanrı sizi qorusun. Vətənin bu ağır

günündə orduda xidmət etməkdən boyun qaçırmaq kimi biabırçı hallar olmamalıdır. Ümid yalnız sizədir.

Hörmətli valideynlər, biz sizə müraciət edirik. Övladlarınıza öyüd-nəsihət verin. Onları çağırışlardan və səfərbərlikdən yayındırmaq kimi xoşagəlməz hallardan çəkindirin. Müharibəni bütün xalqın birliyi və səfərbərliyi ilə udmaq olar. Bunu heç kim yaddan çıxarmamalıdır.

**Ağagül Camalov, Seyfəl Məmmədov,**
**Əsəd İmaməliyev, əmək və müharibə veteranları**
"Quba" qəzeti.–1993.–2 noyabr

## Quba batalyonu ilə bağlı xatirələr

O günləri həyəcansız xatırlamaq mümkün deyil. Yaxşı yadımdadır. 90-cı illərin əvvəlləri idi. Onda rayon partiya komitəsində ikinci katib işləyirdim. Çox ağır dövr idi. Xalqımız, rayonumuzun sakinləri 20 Yanvar faciəsinin ağrısını-acısını hələ də yaşayırdı. Sovet ordusunun Bakıda törətdiyi qırğınlardan sonra xalqın Kommunist Partiyasına, Sovet hökumətinə olan inamı, etibarı tamamilə itmişdi. Dağlıq Qarabağda baş verən hadisələr, erməni separatçılarının ərazimizin bir hissəsini zəbt etməsi, cəbhəyanı bölgələrdəki uğursuz əməliyyatlar hamı kimi, biz dövlət orqanlarında çalışanları da çox narahat edirdi. Ölkənin daxilində-idarəetmə strukturlarında vəziyyət yaxşı deyildi. Xalq cəbhəsi, Milli İstiqlal, Müsavat partiyaları ardı-arası kəsilmədən mitinqlər təşkil edirdi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Xalq təsərrüfatının bütün sahələri, o cümlədən kolxoz və sovxozlarla iş getmirdi. İqtisadiyyat günbəgün zəifləyirdi. Bunlarla yanaşı Dağlıq Qarabağ ətrafında baş verən hadisələr, Azərbaycanın rayonlarının işğalı ciddi narahatçılıq yaradırdı. Belə bir vaxta ayrı-ayrı rayonlarda yerli özünü müdafiə batalyonları yaradılır, könüllülər cəbhəyə yola salınırdı. Bu sahədə rayonumuzda da böyük ruh yüksəkliyi vardı. Gənclərlə

yanaşı yaşı 40, 50-ni ötmüş insanlar ermənilərə qarşı vuruşmaq üçün cəbhəyə getmək istəyirdilər. Mən özüm də dəfələrlə Mərkəzi Komitəyə müraciət etmişdim ki, cəbhəyə getmək istəyirəm. Lakin hər dəfə eyni cavab almışdım: siz ikinci katib kimi öz işinizi görün.

Cəbhədəki uğursuzluqlar ürəyi Vətən, el üçün yanan insanları tutduqları vəzifədən asılı olmayaraq birləşdirmişdi. Respublikamızdan, eləcə də rayonumuzdan ermənilərin qanunsuz hərəkətləri ilə bağlı Moskvaya saysız-hesabsız teleqramlar göndərirdik. Necə deyərlər, “Moskva göz yaşlarına inanmır”, şikayətlərə baxmırdı. Torpaqlarımızsa əldən gedirdi.

Bir vətəndaş kimi Kommunist partiyasına olan inamın tamam qırıldığından onun sıralarını tərk etmək barədə ərizə verdim, partiyadan çıxdım. Bir neçə gün sonra rayonun ən böyük meyvəçilik təsərrüfatlarından biri olan SSRİ-nin 50 illiyi adına sovxoz-zavoda direktor təyin edildim. Təsərrüfatın potensial imkanları geniş olsa da, cəbhədəki uğursuzluqlara görə sanki camaatın qol-qanadı qırılmışdı. İnsanların üzü gülmürdü. Torpaq işğalına heç kəs dözmürdü. Odur ki, biz rayonun fəalları ilə toplaşıb bu qərara gəldik ki, könüllülərdən ibarət bir batalyon yaradıb cəbhəyə yola salaq. İşə başlamaq üçün ilk növbədə silah-sursat almaq lazım idi. Sovet ordusunda xidmət edən çoxlu zabit tanışlarımız var idi. Onlar bu işdə karımıza gəldilər. Rayonun imkanlı adamları bir xeyli vəsait topladılar. Onlarla danışıqlar aparıb silah əldə olundu. Qeyd edim ki, o vaxt cəbhəyanı bölgələrdə avtomat, pulemyot satışı adi hal almışdı. Respublikamızı tərk edərək Rusiyaya gedən sovet hərbi birləşmələri bir çox texnikanı, silah-sursatı dəyər dəyməzinə satırdı.

Könüllülərdən ibarət batalyon yaratmaq barədə müraciət olunan kimi ətrafımıza yüzlərlə gənc toplandı. Yaxşı yadımdadır, elə ailələr vardı ki, üç övladı orduya getmək üçün bizə müraciət etmişdi. Zərdabi qəsəbəsindən Rövşən Şıxəmirov adlı gənc əsgərlikdən yenicə qayıtmışdı, pəhləvan cüssəli bir oğlan idi. Ona məsləhət gördük ki, əsgərlikdən təzə gəlmisən, bir neçə gündən sonra gedərsən. Razılaşmadı. Həmin gün batalyona yazıldı. Sonradan o, Ağdərə uğrunda

gedən döyüşlərdə şəhid oldu. Zərdabi İnzibati Ərazi vahidliyindən 50 nəfərə yaxın gənc batalyona könüllü yazılmışdı.

Qarlı-şaxtalı dekabr günlərində batalyonu nisbətən formalaşdırdıq. Əsgərlər üçün geyim, çanta, ayaqqabı və s. aldıq. Dekabrın 26-da Qusar rayonundakı hərbi hissədə təntənəli mərasim təşkil edilmişdi. Könüllülər cəbhəyə yola düşürdülər. O vaxt mən bir daha hiss etdim ki, xalqın qarşısına düşüb onu düzgün yola istiqamətləndirən rəhbər olarsa dağı-dağ üstünə qoymaq olar. Necə ki, 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra xalqın inamını, etibarını qazandı, uzaqgörən strategiyanı müəyyənləşdirdi. Bu gün əldə edilən bütün uğurlar o böyük insanın məqsədyönlü siyasətinin nəticəsidir.

Batalyon cəbhəyə yola düşdükdən sonra biz onunla müntəzəm əlaqə saxlayırdıq. Demək olar ki, hər həftə cəbhəyə əsgərlərimiz üçün maşınlarla ərzaq, isti pal-paltar göndərirdik. Cəbhədə olan oğullarımızın ailələrinə də qayğı ilə yanaşırdıq. Onların hamısı aylıq əmək haqqı ilə təmin olunmuşdu. Ailələrə ərzaq verilirdi. Bir sözlə, həm əsgərlərə, həm də onların ailələrinə böyük hörmət , ehtiram vardı.

Dəfələrlə mən də cəbhə bölgəsinə getdim. “Kamaz” markalı maşınlarla ərzaq apardım. Yükümüz əsasən ət və konserv məhsulları, meyvə, şirniyyat, isti paltar, siqaret bağlamaları idi. Batalyonun qərargahında yükləri boşaltdıqdan sonra ön cəbhədəki əsgərlərə də baş çəkirdik. Bu dövr elə idi ki, ordu indiki kimi vahid mərkəzdən idarə olunmurdu. Ölkə daxilindəki özbaşınalıq orduda da hiss olunurdu. Düşmənə qarşı təşkilatlanmış şəkildə mübarizə aparılmırdı. Cəbhədəki nailiyyətlər yalnız mərd oğullarımızın qanı bahasına başa gəlirdi.

Bir hadisəni yaxşı xatırlayıram. 1992-ci ilin fevral ayı idi. Cəbhəyə yardım aparmışdıq. Ağır döyüşlər gedirdi. Qaş qaralan, axşam toranı düşən vaxt idi. Şişqaya yüksəkliyi yaxınlığındakı ön xətdən qərargaha qayıdırdıq. Zərdabi qəsəbəsindən olan uşaqlarla öpüşüb-görüşüb yola düşdük. Onlar bizi başa salmışdılar ki, buradan qərargaha təxminən 10 dəqiqəlik yoldur. Sürücü Aliklə bir xeyli

yol qət etsək də yol hey uzanırdı. Qarşıda 10-a yaxın əsgər gördük. Onlarla aramızdakı məsafə 50–60 metr olardı. Nə barədəsə qızğın mübahisə edirdilər. Maşını saxlatdırıb qapını açdım. Soruşmaq istəyirdim ki, qərargaha necə getmək olar. Qəfildən qulağıma erməni danışıq səsləri gədi. Başa düşdüm ki, azıb düşmən tərəfə keçmişik. Əliyalın, silahsız idik. Geri qayıtdıq. Görünür ermənilər bizim azərbaycanlı olmağımızı bilməmişdilər. Öz vətənində, doğma torpağında kimdənsə qaçmaq bilirsinizmi insana necə ağır gəlir? Ürəyim partlamaq dərəcəsinə çatmışdı. Əsəblərim gərilmişdi. Bu, reallıq idi. Evimizin içində ermənilər at oynadırdılar.

Quba batalyonunun yaradılması ilə qayğılarımız, problemlərimiz çoxalmışdı. Hər gün cəbhədən ağır xəbərlər, tabutlar gəlirdi. Şəhid olanların ailələrinə xəbər çatdırmaq bilirsiniz necə çətindir? Bilmirdik ki, düşmən gülləsinə tuş gələn gənclərin valideynlərinə necə deyək ki, oğlun şəhid olub.

Qəbirstanlığa dəfnə gedəndə bilmirdik ki, şəhid ailələrini necə ovudaq. Atalarına, analarına necə ürər -dirək verək. Çox hüznlü, ağır günlər yaşayırdıq.

Allah Heydər Əliyevə qəni-qəni rəhmət eləsin. 1993-cü ildə onun hakimiyyətə gəlişi ilə hər şey dəyişdi. İlk növbədə nizami ordu quruculuğuna başlanıldı. 1994-cü ildə atəşkəsə nail olundu. Yoxsa şəhidlərin sayı günbəgün artacaqdı. Onsuz da biz çox şey itirmişdik. Təkcə Quba batalyonundan 185 nəfər şəhid olmuşdu. Torpaqlarımızın 20 %- i işğal altında qalmışdı.

Bugünkü qüdrətlənən dövlətimizin uğurlarını müşahidə etdikcə, ordumuzun qüvvətləndiyini duyduqca qürur hissi keçiririk. Gələcəyə böyük ümidlə baxırıq və inanırıq ki, gec-tez vətən torpaqları işğaldan azad olunacaqdır. Yalnız onda şəhidlərin ruhu əbədi mənzillərində rahat olar. Allah şəhidlərimizə rəhmət eləsin!

**Mehman İbrahimov,**
fəlsəfə doktoru.

Quba-Qusar könüllülər batalyonunun döyüşçüsü İsmət Cəfərovun gündəliyindən:

Quba-Qusar batalyonuna Quba rayon prokuroru, Baş ədliyyə müşaviri, polkovnik Əli Eyvazov başçılıq edirdi. Və o, gəncləri Vətən məhəbbəti ruhunda tərbiyə etmək vəzifəsini həyata keçirirdi. Onun gördüyü böyük təbliğat-təşkilat işləri nəticəsində sanki gənclər Vətənin son dərəcədə çətin sınaq qarşısında, ölüm-qalım dileması ilə üz-üzə qaldığını daha dərindən dərk edirdilər.

Beləliklə, Əli Eyvazovun təşkilatçılığı və tələbkarlığı nəticəsində demək olar ki, 10 gün ərzində Quba-Qusar batalyonu təşkil edildi. Onun rəhbərliyi və təşəbbüsü ilə Sovet İmperiyasından Qusar rayonu ərazisində dağıdılmış vəziyyətdə qalan hərbi hissənin kazarmaları bərpa edildi. Hərbi mütəxəssislər dəvət edilərək Quba-Qusar batalyonunun döyüşçüləri ilə təlim məşqləri keçirdilər. Batalyonun yaranmasına mane olanlar da tapıldı. Lakin Əli Eyvazov tutduğu haqq yolundan dönməyərək gecəli-gündüzlü könüllülərin yanında olur, təxribatçıların hər bir cəhdini boşa çıxarırdı.

15 noyabr 1993-cü ildə Qusardakı hərbi hissədə 450 nəfərə yaxın batalyon üzvünün yola salınma mərasimi oldu. Müqəddəs Quranın altından keçdi könüllülər.

Vətənin çağırışına qoşulan bu gənclərin, demək olar ki, hamısı yurd eşqi, məmləkət sevgisi ilə döyünən ürəklərinin hökmü ilə cəbhəyə, ölüm-dirim savaşına yola düşdülər. Dəstənin tərkibində müxtəlif dövrlərdə erməni təcavüzkarları ilə vuruşmuş təcrübəli döyüşçülər də az deyildi.

Onlar Rayon Hərbi Komissarının adına yazdıqları ərizələrdə göstərirdilər: ”Sizdən xahiş edirəm ki, Vətənimizin bu ağır günündə könüllü olaraq orduda xidmət etmək üçün məni Quba-Qusar batalyonuna qəbul edəsiniz”.

Könüllülər Şəhidlər xiyabanına gedib Vətən uğrunda canlarını qurban vermiş öz döyüş dostlarının məzarlarını ziyarət etdilər və torpağı son damla qanlarınadək qoruyacaqlarına and içdilər.

Axı Vətən onlara oğul demiş, harayına səs verməyi, düşmən tapdağı altında inləyən, bağrı yaralı torpaqlarımızın fəryadına yetməyi diləmişdi... Ana Vətən çağırırdı... Düşməni yerində oturtmağa, ölümün boğazından yapışmağa, ölümlə çarpışmağa!...

Fəryadına yetməyə tələsirdi Vətənin, bu torpağın ölümün gözünə dimdik baxan ölümsüz mərd oğulları...

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim.
Bu torpaqsız harda, nə vaxt, nə dərdim –
Xəzanımdır, xəzanımdır, xəzanım.

***(xalq şairi Məmməd Araz)***

Onlar Vətən daşı olmağa, ana yurdun göylərə baş vuran sıra-sıra dağların qayasında mamır olub bitməyə tələsirdilər... Sanki xalq şairi Məmməd Araz bu sətirləri məhz Quba-Qusar batalyonunun igid döyüşçüləri üçün qələmə almışdı!

Bir qayaya söykənmişəm, deyirəm kaş,
Bax, beləcə daşa dönəm yavaş-yavaş...
Onda Vətən sanar məni bir balaca vətən daşı,
Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı.

***(xalq şairi Məmməd Araz)***

Andiçmə mərasimindən sonra rayon Xalq Deputatları Sovetinin sədri işləyən N.Abdurrəhmanov və Quba rayon prokuroru kimi mən çıxış edərək cəbhəyə yola düşənlərə bildirdik ki, onlar özlərini tənha hiss etməsinlər! Bu gün bütün xalq onların arxasındadır. Həmin mərasimdə söylədiklərim indiyədək qulaqlarımda səslənir. Cəbhəyə yola düşən uşaqların düşmənə meydan oxuyacaq mərd baxışları gözlərimin önündən getmir. O hadisələr sanki dünən baş vermiş və biz son olaraq belə demişdik: “Allah qoysa, tezliklə qələbə çalıb sağ-salamat evinizə qayıdarsınız. Biz də and içirik ki,

müharibə qurtaranadək bütün imkan və qüvvəmizi sizin və ailənizin təminatına sərf edəcəyik."

Maşın karvanı döyüş bölgəsinə tərəf istiqamət götürdü. Onların arxasınca bu sözlər səslənirdi: "Uğurlu yol sizə, Vətən oğulları!", "Qələbə ilə qayıdın, Azərbaycan torpaqlarının fədailəri!"

Düşünmək belə tükürpədicidir ki, qarşıda gözlənən döyüşlərdə həlak olanlar Azərbaycanın yaxın gələcəkdə necə möhtəşəm bir dövlətə çevriləcəyini görməyəcəkdilər. Döyüşçülər ölüm haqqında düşünməmiş, bu fikri ağıllarına belə gətirməmişdilər. Çünki bu döyüşçülər bu gün yaşayırdılar və sabah nə olacağını heç düşünmürdülər də... Axı sonunu düşünənlər qəhrəman olmurlar...

Mənim müşayiətimlə Beyləqan rayonuna batalyonun şəxsi heyəti üçün silah, yatacaq dəstləri, çadırlar, avtomaşınlar, azuqə və s. gətirildi.

Quba-Qusar batalyonu Beyləqana gəldikdən 12 gün sonra Ağcabədi-Xocavənd istiqamətində səngərdə duran "Prişib" batalyonunu əvəz etdi. Beləcə, bu batalyonun məşəqqətli, şücaətli döyüş yolu başlandı.

Prezident Heydər Əliyevin xalqa müraciətindən sonra təşkil olunmuş Quba və Qusar könüllülərindən ibarət batalyonumuz döyüş bölgəsinə gəldiyi ilk günlərdən xüsusi ilə fərqlənir, sıravi əsgərdən tutmuş yüksək rütbəli zabitə kimi hər kəs verilmiş döyüş tapşırığını dəqiq yerinə yetirirdi. Elə bunun nəticəsidir ki, hərbi qərargah tərəfindən batalyonun işinə yüksək qiymət verilmişdi.

Hörmətli Prezidentimiz Heydər Əliyevin Beyləqanda keçirdiyi görüşlər zamanı dediyi sözlər yadıma düşdü. "Hər kəs öz evini, öz kəndini, öz ata-babalarının uyuduğu qəbiristanlığı qorumalıdır. Bəli, qorumalıdır. Daha dayanıb qıraqdan baxmamalıdır."

Yağılar tapdağında inləyən Qarabağın Nüşabələr, Üzeyirlər, Natəvanlar, Cavanşirlər, Xanlar, Bülbüllər, Rəşidlər, Şıxlınskilər, Mehmandarovlar yetirən mənəviyyat-mədəniyyət ocağının azad olması, ulularımızın ruhunun rahatlığı üçün canından keçməyə hazır

olan vətən oğulları Heydər Əliyevlə görüşdən sonra daha da ruhlanır və döyüşə pələng kimi atılırdılar.

Döyüş səngərlərinə onlarla nümayəndə heyəti gedirdi. Onlar gətirdikləri sovqatı elə səngərdəcə döyüşçülərə təqdim edirdilər.

Torpaqlarımızın ermənilərdən azad edilməsi uğrunda yüzlərlə qubalı, qusarlı gənc cəbhələrdə döyüşmüş, onlarla igid oğullarımız döyüş meydanlarında şəhid olmuşdur. Müxtəlif millətlərdən olan həmyerlilərin bir batalyonda xidmət etməsi əsgərlərdə bir-birinə daha böyük inam və etibar yaradırdı. Ana Vətən darda idi, onu xilas etməyi isə hər bir Vətən övladı özünə borc bilirdi. Azərbaycan dövlətçiliyi və xalqı böyük təhlükə qarşısında idi. Məkrli düşmənimiz ermənilər və onların havadarları bu müharibədə yalnız bir məqsəd güdürdülər: tarixi Azərbaycan torpaqlarını, ulu və müqəddəs yurd yerlərimizi zəbt etmək, zəngin yeraltı və yerüstü sərvətlərimizə sahib olmaq, tariximizi saxtalaşdırmaq, mədəniyyətimizi özününkiləşdirmək, Azərbaycan xalqını məhv etmək...

Quba-Qusar batalyonunda xidmət edən hər bir fədakar oğula yaxından köməklik göstərilirdi. Bu batalyonun komandiri kimi mən də onların qayğıları ilə maraqlanır, hər birinə doğma ata məhəbbəti ilə yanaşır, hər birini övladım sanır, uğurları, qəhrəmanlıqları ilə fəxr edirdim. Sanki ağır döyüşlər zamanı mən də onlarla bir sırada, bir səngərdə idim.

Beyləqan bölgəsində hücuma keçən düşmən Quba-Qusar batalyonunun döyüşçülərinin mərdliyi və igidliyi nəticəsində əvvəlki mövqelərinə geri oturdulmuş, Beyləqan şəhərinin işğalının qarşısı alınmışdı. Düşmənin onlarla əsgəri və texnikası məhv edilmişdi. Aldığımız məlumata görə, erməni işğalçıları arasında fərarilik halları çoxalmışdı. Onlar aydın başa düşürdülər ki, gec-tez qələbə bizim olacaqdır. Batalyon Xocavənd rayonunun və Azərbaycanın başqa ərazilərinin azad olunmasında xüsusi fəallıq göstərmişdi.

## 2. ARXA CƏBHƏ ÖN CƏBHƏNİN YARDIMINDA

Müharibənin özünəməxsus bir qanunu da var. Arxa cəbhə ön cəbhənin arxasında maddi-mənəvi dayaq olmalıdır. Belə olmasa ön cəbhədə ruh düşkünlüyü, küskünlük yaranar və döyüş meydanlarında məğlubiyyətlər baş verər. Ön cəbhə bilməlidir ki, arxada qalan əzizləri əmin və rahat yaşayır. Arxa cəbhə ön cəbhəni də təmin etməlidir ki, döyüşçülər korluq çəkməsin, gücdən düşməsin.

Quba-Qusar batalyonunun xərclərini rayon ictimaiyyəti öz üzərinə götürmüşdü. O zaman hamı döyüşçülərin qayğıları ilə yaşayırdı. Onlar üçün cəbhəyə ərzaq məhsulları, isti paltar, yanacaq və s. göndərilirdi. Hər kəs cəbhəyə yardım etməyi ön plana çəkmişdi. Əsgər ailələrinə müəyyən köməkliklər göstərilirdi. Sanki bu yardımlarla təsəlli tapır, Vətənin müdafiəsində az da olsa müəyyən dərəcədə iştirakdan qəlbləri nisbi sakitlik tapırdı...

1992-1994-cü illərdə Quba rayon İcra Hakimiyyəti başçısının müavini Buxsay Səməndər oğlu İskəndərovun xatirələrindən: “Quba-Qusar batalyonu yarananda qeyri-rəsmi olaraq mən təchizat üzrə batalyon komandiri olmuşam. 1993-cü ilin noyabrın 16, 19, 21, 27, habelə dekabrın 11 və 19, 1994-cü ilin 14 yanvar tarixlərində əhali bizə müxtəlif əşyalar toplayıb təhvil vermişdilər. Onların arasında çarpayı, açılıb-bükülən çarpayı, corab, çaydan, mişar, şam, əl radiosu, ülgüc, çoxlu ərzaq məhsulları və s. var idi. Biz onları şiddətli döyüş əməliyyatları gedən Beyləqan, Şişqaya və Kaftarqayaya göndərdik.

1994-cü ilin yanvarında isə mən eyni zamanda rayon Hərbi Komissarlığında çağırış komissiyasının sədri olmuşdum və insani riqqətə gətirən çoxlu faktlarla qarşılaşmışdım. Ən dəhşətli və tükürpədici hadisələri isə oxucularla bölüşmək istəyirəm.

Qubaya cəbhə bölgəsindən 1 şəhid cənazəsi gətirilmişdi. Rayonun Hərbi Komissarı, mən, rayon Müdafiə Şurasının üzvləri və s. şəhid Şəmiyev Şəmsəddinin cənazəsini yaşadığı kəndə gətirdik. O, Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdu. Şəmsəddin döyüş yoluna ilk dəfə olaraq minaaxtaran kimi başlamışdır. O, 1994-cü ilin yanvarın 9-10-da Horadizin azad olunması uğrunda gedən ağır döyüşdə düşmənin bir neçə əsgərini məhv edərək qəhrəmancasına şəhid oldu. Onun döyüş yolu çox qısa olsa da, göstərdiyi qəhrəmanlıq misilsiz idi. Şəmsəddinin cənazisini məscidə aparandan təxminən 45 dəqiqə sonra Qubaya daha bir "qara" xəbər gəldi. Quba-Qusar batalyonunda şücaət və qəhrəmanlıq göstərən Şəmsəddinin doğma qardaşı Sərvər Şəmiyevin cənazəsi Qubaya gətirildi. Biz və Batalyonun komandiri (Quba rayon prokuroru) Əli Eyvazov çox çətin anlar yaşayırdıq. Lakin ikinci qəhrəmanın da cənazəsini biz doğma evinə İsnov kəndinə təhvil verməli idik. Dənizdəki sular, göydəki yağışlar, yerdəki ağaclar da bu iki qəhrəman qardaş üçün acı-acı göz yaşı tökürdü... Çox ağır mənzərə idi... Bir gündə Şəmiyevlər ailəsinin iki üzvü İsnovqışlaq kəndində doğma torpağa tapşırıldı. Mən əminəm ki, əsrlər boyu bu torpaq belə faciə ilə rastlaşmamışdı.

1992-ci ilin dekabr ayından başlayaraq 1993-cü ilin aprel ayına qədər arxa cəbhə ön cəbhəyə çoxlu köməkliklər etmişdir. Mən batalyonun komandiri kimi hesab edirəm ki, bu sənədli povestdə o təşkilatların və müəssisələrin hamısının adı çəkilməlidir:

| Sıra №-si | Tarix | Yardım göstərən təşkilatın və ya şəxsin adı | Yardımın növü və miqdarı | Yardım hara göndərilmişdir |
|---|---|---|---|---|
| 1 | 18 dekabr 1992-ci il | “Quraşdırıcı” kooperativ | 1000 rubl | Zəngilan rayonuna |
| 2 | | 30 nömrəli Tikinti və Quraşdırma İdarəsi | 100 ədəd pambıq qış şalvarı | Zəngilan rayonuna |
| 3 | | Raykoopittifaq | 100 kq şəkər tozu, 100 ədəd alt paltar | Zəngilan rayonuna |
| 4 | | Quba rayon Polis Şöbəsi | 10 min rubl | Zəngilan rayonuna |
| 5 | | “M.Əsədov” adına Sovxoz | 10 min rubl | Zəngilan rayonuna |
| 6 | | Kolxoz bazarı | 17 kq yağ, 10 kq çay | Zəngilan rayonuna |
| 7 | | “Jdanov” adına sovxoz (direktor Tofiq Ağabalayev) | 1000 rubl | Zəngilan rayonuna |
| 8 | | “Ümid” Kiçik Müəssisəsi | 5000 rubl | Zəngilan rayonuna |
| 9 | 19 dekabr 1992-ci il | “Kalinin” adına Sovxoz | 10 000 rubl | Zəngilan rayonuna |
| 10 | | 1 saylı Konserv zavodu | 550 kq tomat, 800 kq povilla | Zəngilan rayonuna |
| 11 | 21 dekabr 1992-ci il | Sovxoz “Meyvə Tingliyi” | 5 000 rubl | Zəngilan rayonuna |
| 12 | | Şəhər İctimai İaişə İdarəsi | 2 000 rubl | Zəngilan rayonuna |
| 13 | | Kənd İctimai İaşə İdarəsi | 2 000 rubl | Zəngilan rayonuna |

| Sıra №-si | Tarix | Yardım göstərən təşkilatın və ya şəxsin adı | Yardımın növü və miqdarı | Yardım hara göndərilmişdir |
|---|---|---|---|---|
| 14 | | Quba İstehsalat Kombinatı | 2 000 rubl | Zəngilan rayonuna |
| 15 | | Quba Aqrar-Sənaye Bankı | 5 000 rubl | Zəngilan rayonuna |
| 16 | | Quba Əmanət Bankı | 10 000 rubl | Zəngilan rayonuna |
| 17 | 22 dekabr 1992-ci il | "SSRİ-nin 50 illiyi" adına Sovxoz (direktor Mehman İbrahimov) | 10 000 rubl | Zəngilan rayonuna |
| 18 | | Quba Elektrik Şəbəkələr kollektivi | 10 000 rubl | Zəngilan rayonuna |
| 19 | | "Turan" kiçik müəssisəsi | 10 000 rubl, 80 balon pomidor turşusu, 18 balon alma şirəsi, 240 banka alça kampotu, 180 banka gilas kampotu | Zəngilan rayonuna |
| 20 | | Şəhər İctimai İaşə İdarəsi | 8 000 rubl | Zəngilan rayonuna |
| 21 | | Quba rayon Mənzil Tikinti Təsərrüfat və Mənzil İstehsalat Birliyi | 7 000 rubl | Zəngilan rayonuna |
| 22 | | "Magistral" Kiçik Müəssisəsi | 2 000 rubl | Zəngilan rayonuna |
| 23 | | Quba Məişət Xidməti İdarəsi | 3 000 rubl | Zəngilan rayonuna |

| Sıra №-si | Tarix | Yardım göstərən təşkilatın və ya şəxsin adı | Yardımın növü və miqdarı | Yardım hara göndərilmişdir |
|---|---|---|---|---|
| 24 | 23 dekabr 1992-ci il | Deka Bankın Quba Filialı | 1500 rubl | Zəngilan rayonuna |
| 25 | 16 yanvar 1993-cü il | Aşağı Atuc İcra Nümayəndəliyi | 6 cüt corab, 1 ədəd jilet, 10 cüt corab, 2 cüt yük, 1 cüt əlcək | Müdafiə fonduna |
| 26 | 18 yanvar 1993-cü il | Aşağı Atuc İcra Nümayəndəliyi | 37 cüt corab, 2 cüt əlcək, 1 ədəd yun jilet | Müdafiə fonduna |
| 27 | 19 yanvar 1993-cü il | Vəvlələ kənd orta məktəbi | 10 000 rubl | Müdafiə fonduna |
| 28 | | "Qırmızı qəsəbə" Sovxoz Fəhlə Kooperativi | 5 000 rubl | Zəngilan rayonuna |
| 29 | | Quba "İnam" Kiçik Müəssisəsi | 4300 rubl | Zəngilan rayonuna |
| 30 | | Quba Tara Müəssisəsi (Ələkbərov Bayram) | 3 000 rubl | Zəngilan rayonuna |
| 31 | | "Şərq" Sovxozu | 15 000 rubl | Zəngilan rayonuna |
| 32 | | Süd Zavodu | 80 kq pendir, 20 kq yağ | Zəngilan rayonuna |
| 33 | | "Səməd Vurğun" Sovxozu | 1.5 ton soğan | Zəngilan rayonuna |
| 34 | | "Şəfəq" Sovxozu | 2.5 ton alma | Zəngilan rayonuna |
| 35 | | Vəvlələ kənd orta məktəbi | 10 000 rubl | Müdafiə fonduna |

| Sıra №-si | Tarix | Yardım göstərən təşkilatın və ya şəxsin adı | Yardımın növü və miqdarı | Yardım hara göndərilmişdir |
|---|---|---|---|---|
| 36 | 27 yanvar 1993-cü il | Aşağı Atuc İcra Nümayəndəliyi, “Şahdağ” Aqrofirma ilə birlikdə | 116 cüt corab, yarımcorab 5 ədəd, jilet 1 ədəd, alt paltar 1 ədəd, 54 cüt əlcək | |
| 37 | 3 fevral 1993-cü il | 1 saylı orta məktəb (II Nügədi) | 10 min rubl | Müdafiə fonduna |
| 38 | 4 fevral 1993-cü il | 1 saylı orta məktəb | 45 cüt corab, 1 cüt əlcək, 1 cüt şərf, 150 kq alma | Müdafiə fonduna |
| 39 | 5 fevral 1993-cü il | “Şahdağ” Kiçik Müəssisəsi | 30 cüt corab | Cəbhəyə |
| 40 | | Qədrət İcra Nümayəndəliyi | 60 cüt corab, 1 cüt əlcək | Müdafiə fonduna |
| 41 | 8 fevral 1993-cü il | İspik kənd İcra Nümayəndəliyi | 28 cüt corab | Cəbhəyə |
| 42 | | Cici ərazi İcra Nümayəndəliyi | 34 cüt corab, 30 ədəd “Astra” siqareti, 1 cüt əlcək | Cəbhəyə |
| 43 | | Qanköçürmə stansiyası | 10 cüt corab | Cəbhəyə |
| 44 | 10 fevral 1993-cü il | Zərdabi kəndinin sakinləri | 26 000 rubl | Müdafiə fonduna |

| Sıra №-si | Tarix | Yardım göstərən təşkilatın və ya şəxsin adı | Yardımın növü və miqdarı | Yardımın növü və miqdarı |
|---|---|---|---|---|
| 45 | 16 fevral 1993-cü il | Məişət Xidməti İdarəsi | 24 ədəd sanitar sumkası | Müdafiə fonduna |
| 46 | | Giləzi İcra Nümayəndəliyi | 40 cüt corab, 16 cüt əlcək | Müdafiə fonduna |
| 47 | 18 fevral 1993-cü il | Quba rayon Aqrar-Sənaye Bankı | 20 000 rubl | Şəhid Mustafayev Əlhüseyn Məmməd oğlunun yas mərasimi (40 mərasimi) üçün |
| 48 | 22 fevral 1993-cü il | Mərkəzi rayon Xəstəxanası | 16 cüt corab, 8 cüt əlcək | Müdafiə fonduna |
| 49 | 1 mart 1993-cü il | Alekseyevka kənd nümayəndəliyi | 38 cüt yun corab, 10 cüt yun əlcək | Müdafiə fonduna |
| 50 | 1 mart 1993-cü il | Qəcərzeyid kənd Nümayəndələri və AXC dayaq dəstəsinin üzvləri | 51 ədəd pambıq şalvar, 33 cüt yun corab | Müdafiə fonduna |
| 51 | | Qarxun kənd sakinləri | 35 cüt corab | Müdafiə fonduna |
| 52 | 11 mart 1993-cü il | “Şahdağ” Aqrofirma | 83 cüt corab, bir alt paltar | Müdafiə fonduna |
| 53 | 14 aprel 1993-cü il | 1 saylı Konserv zavodu | 2, 187, 242 rubl dəyərində müxtəlif ərzaq məhsulları | Cəbhəyə və qaçqın ailələrinə |

Həmin dövrdə Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Mahmudovun iştirakı ilə bir qrup rayon fəalları cəbhəyə yola düşdü. Qrupa rayon prokuroru kimi mən başçılıq edirdim və rayon ictimaiyyəti tərəfindən toplanmış xeyli miqdarda müxtəlif ərzaq məhsullarını, gündəlik tələbat mallarını və 100 milyon rubl pulu cəbhə bölgəsinə apardım. Əsgərlərin hər birinə 50 min rubl, komandirlərə isə 100 min rubl miqdarında yardım edildi.

Əsgərlər Qusar Rayon İcra Hakimiyyətinin başçısı İkram Əmirovu və rayonun rəhbər işçilərini, Quba rayon İcra Hakimiyyəti başçısının müavini Buxsay İsgəndərovu, “Şahdağ” aqrofirmasının baş direktoru İldırım Məmmədovu, Hərbi Komissar Vadim Rəhimovu və məni görüb çox sevindilər. Elə buradaca Qusar rayon İcra Hakimiyyətinin başçısı İkram Əmirov və mən çıxış etdik. Vətənin bu ağır günündə göstərdikləri şücaətə görə əsgərlərə minnətdarlığımızı bildirdik. Və qeyd etdik ki, Quba və Qusar əhalisi onlarla bir nəfəs alır, daim onları düşünür, əllərindən gələn köməyi əsirgəmirlər və bundan sonra da onların ailələrinə hər cür yardım göstərəcəklər. Döyüşçülər böyük minnətdarlıq duyğularını dilə gətirdilər və göstərilən təmənnasız yardıma, qayğıya görə Quba və Qusar rayonlarının əhalisinə təşəkkür etdilər. Batalyonun əsgərləri xüsusən məktəb şagirdlərinin göndərdiyi bağlamaları alanda çox sevindilər. Bu, əsgərlər üçün ən böyük mükafat idi. Balacaların, məktəbli uşaqların cəbhədəki böyük qardaşlarını düşünərək onlara öz imkanları çərçivəsində sovqat göndərmələri müqəddəs torpağımızın hər qarışı uğrunda döyüşə atılan cəngavərlərin qəlbini riqqətə gətirirdi, kiçiklərin böyükləri düşünməsi qürurverici idi. Qubalı döyüşçülərlə yanaşı batalyonda çoxlu sayda qusarlı igidlər də döyüşürdülər.

Cəbhə bölgəsinə öz oğlunu görməyə gəlmiş bir əsgər atası döyüşçülərə həyəcanla dedi: “Mən qubalı döyüşçülərlə fəxr edirəm. İkinci dəfədir ki, buraya gəlirəm, hamını öz övladım kimi sevirəm və lazım gəlsə, mən də vuruşmağa hazıram”.

Lakin, ata öz oğlu ilə görüşə bilmədi, çünki oğlu hələ də əməliyyatdan qayıtmamışdı.

Nə etmək olar, müharibənin də öz qanunları var.

Kommersiya və istehsal müəssisəsi olan “İnterturan” şirkəti (rəhbəri Saday Əhmədov) Quba batalyonuna 50 milyon rubl məbləğində yardım göstərmişdir. Təzə təşkil olunan, təbii ki, müəyyən çətinlikləri olan batalyonun təchizatını öz üzərinə götürən, iqtisadi-maliyyə vəziyyəti heç də ürəkaçan olmayan Quba üçün, qubalılar üçün, batalyon üçün bu məbləğin sanbalı-çəkisi haqqında nə isə demək artıqdır. Quba-Qusar batalyonunun məsrəfləri “İnterturan” şirkətinin əsas qayğılarından idi. Şirkət batalyonun, eləcə də buradakı döyüşçülərin hər birinin qayğısını çəkməyi, onların ailələrinə kömək etməyi axıradək öz borcu hesab edir.

Quba-Qusar batalyonuna əvəzsiz yardım edən “İnterturan” şirkəti Bakıda yaşayan qubalı biznesmenlərə, şirkət başçılarına da üz tutur. Biz də, bütün qubalılar da bu çağırışı alqışladıq.

– Güman edirik ki, Quba batalyonunun təşkilindən hələlik xəbərsizsiniz. Sözsüz ki, bu çağırışımıza qoşulacaq, Quba batalyonuna hər cür yardım göstərəcəksiniz!

Cəbhədə döyüşən əsgərlərimizə maddi yardım göstərənlərdən biri də “Əbədi naxışlar” kooperativinin kollektivi olmuşdur. Kollektivin üzvləri Quba batalyonunda xidmət edən döyüşçülərə 80 min rubl yardım göstərmişlər.

Bundan əlavə, onlar xeyli sayda yataq dəsti, səyyar çarpayı və təsərrüfat malları alıb döyüşçülər üçün yola salmışlar. Ağcabədi rayonunun Yeni Qaradolaq kənd sakinləri də Quba batalyonunun əsgərlərinə qayğı ilə yanaşırdılar. Onlar igid əsgərlər üçün 11 kiloqram kolbasa, 33 qutu konserv, 100 çörək, 150 qutu siqaret, 2 kiloqram çay, 7 kiloqram qənd, 15 ədəd sabun, 50 qutu kibrit və başqa məhsullar gətirmişdilər. Quba batalyonunun bütün döyüşçüləri Yeni Qaradolaq kənd sakinlərinə bu xeyirxah işə görə öz dərin minnətdarlıqlarını bildirdilər.

Quba rayonunun fəalları da Vətənin müdafiəsi üçün əllərindən gələni əsirgəmirdilər. Onlar Quba batalyonunun təşkili işində, istərsə də əsgər ailələrinə maddi yardım göstərilməsində həvəslə iştirak

edirdilər. İndi bütün rayon əhalisi bir nəfər kimi döyüşçülərin qayğıları ilə yaşayırdı.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu iş ötən illərdən fərqli olaraq pərakəndə halda deyil, mərkəzləşdirilmiş şəkildə həyata keçirilirdi. Rayon mal-qara tədarükü və ət kəsmə müəssisəsinin kollektivi Quba batalyonunun döyüşçülərinə ərzaqla yanaşı, xeyli məişət malları, üzqırxan aparatlar, sabun, sap, yorğan-döşək, mələfə, yun corab, yun əlcək, əl radio-qəbulediciləri və s. göndərmişdilər.

Müəssisənin rəhbəri İldırım Məmmədov bu işdə xüsusi vətənpərvərlik nümunəsi göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciətindən sonra cəbhədə vəziyyət tam dəyişdi. Xalq özünün dünya şöhrətli siyasətçi və təşkilatçı oğluna inanır və onun ətrafında daha sıx birləşirdi. Hər kəs əmin idi ki, Azərbaycan əsgəri tezliklə cəbhədə dönüş yaradacaq və torpaqlarımızı düşmən tapdağından azad edəcəkdir. Hər bir qubalı isə bu qələbəyə öz töhfəsini verməyə hazır idi.

Quba-Qusar batalyonu yaranan gündən dağ yəhudiləri yaşayan Qırmızı qəsəbə sakinləri də, batalyonun təchizatı üçün 3 milyon rubl toplayıb təhvil verdilər. Vətənsevər dağ yəhudiləri batalyonun gündəlik tələbatı üçün lazım olan bir sıra əşyaların toplanmasında da fəal iştirak etmişlər.

Qırmızı qəsəbənin xeyirxah sakinləri pul toplayaraq "Quba" batalyonunun 50 nəfər döyüşçü ailəsinin hər birinə, əlavə olaraq iki şəhid ailəsinə də 50 min rubl həcmində yardım göstərmişdilər. Bununla yanaşı, Qırmızı qəsəbəlilər döyüşlərdə ağır yaralanmış Vəlvələ kənd sakini Zamanlı Namiq Mikayıl oğlunun xaricdə müalicəsi üçün ailəsinə bir milyon rubl yardım etmişdir. Xəstəxanada müalicə olunan Dağlı kənd sakini, döyüşçü Şahin Məmmədrzayevin ailəsinə isə bir kisə un, iki kiloqram ət, iki kiloqram şəkər tozu, iki kiloqram yağ verilib.

Yerli İstehsalat Kombinatının kollektivi Prezidentimizin müraciətinə birincilər sırasında səs vermişdir. Əməkçilərimizin yeni ya-

radılan Quba batalyonuna kömək məqsədilə üç ədəd soba, xeyli yataq dəsti, səyyar çarpayı yola salınmışdır. Kollektiv Vətən torpağı uğrunda döyüşlərdə həlak olmuş iki şəhid ailəsinə himayədarlıq edirdi. Həmin ailələrə hər ay 5 min rubl miqdarında yardım göstərilirdi. Bundan əlavə, müdafiə fonduna idarənin hesabından 350 min rubl həcmində vəsait köçürülmüşdür.

Quba şəhər sakinləri öz büdcələri hesabına pul, yağ, çay, qənd, vermişel, siqaret və sair məhsulları Quba-Qusar batalyonunda döyüşən əsgərlər üçün cəbhəyə yola salmışlar. Əsgər ailələrinə isə ərzaq məhsulları verilmişdir.

Respublika Prezidenti Heydər Əliyevin xalqa müraciətinə həvəslə qoşulan "Azad" kiçik müəssisəsinin kollektivi cəbhədə vuruşan oğullarımıza yardım etmək üçün səylərini əsirgəməmişdir. Polietilen qapaqlar, müxtəlif ölçülü şüşə qablar üçün tıxaclar hazırlayan kollektiv cəbhəyə yardım etməyi ön plana keçirmiş, Quba batalyonuna 250 min rubl miqdarında maddi vəsaitlə yardım göstərmişlər. Sexdə çalışan qız-gəlinlər əsgərlər üçün corab və əlcək toxuyur, öz imkanları çərçivəsində onların isti geyimlərlə təminatına çalışırdılar.

Quba Sərnişin Nəqliyyat Müəssisəsi də Quba batalyonunun təşkilində fəallıq göstərmiş, əsgərlərin istifadəsi üçün 5 yataq dəsti, 2 soba, 20 fənər vermişdilər. Batalyona könüllü xidmətə gedən 3 sürücünün hərəsinə 40 min rubl pul həcmində vəsait çatdırılmışdır. Onların ailələrinə isə hər ay 20 min rubl pul verməyi qərara almışdılar. İdarənin mənfəəti hesabına batalyon üçün daha 500 min rubl vəsait köçürmüşdülər.

Vətənimizin bu ağır günlərində respublikamızın Prezidenti Heydər Əliyevin xalqa müraciəti qeyrəti olan hər bir azərbaycanlını hərəkətə gətirmişdi. Kimi silaha sarılıb könüllü olaraq cəbhəyə gedir, kimi də müxtəlif vasitələrlə haqq işimizə özköməyini göstərirdi.

Quba rayon 1 nömrəli orta məktəbin müəllim və şagird kollektivi Quba-Qusar batalyonuna tibbi ləvazimatlar alaraq göndərmişdir.

H.Zərdabi adına sovxoz-zavodun əməkçiləri Quba batalyonunun döyüşçüləri üçün 2,5 milyon rubl həcmində pul toplamış, xeyli sayda isti paltar, yataq dəsti, səyyar çarpayı alıb göndərmişlər. Təkcə 15 nömrəli briqadanın bağbanları öz ailə büdcələrindən 140 min rubl həcmində yardım etmişlər. Sovxoz direktoru Mehman İbrahimov dəfələrlə cəbhədə olmuş, əsgər və zabitlərlə görüşmüş, batalyona yardım işində xüsusi fəallıq göstərmişdir.

Altay vilayətinin Barnaul şəhərindəki "Abuzər" kiçik müəssisəsi batalyonun hesabına 1 milyon rubl pul köçürmüşdür.

Onlarla qubalı ana batalyon döyüşçülərini öz oğulları sanaraq ailələrinin büdcəsindən Müdafiə fonduna pul köçürmüş, yatacaq və qabqacaq göndərmişdilər. Bütün bunlar cüzi də olsa cəbhəyə, haqq işimizə yardım, kömək idi. Atalarımız "Varın verən utanmaz", – demişlər.

Azərbaycan Prezidenti Heydər Əliyev noyabrın 2-də televiziya ilə xalqa müraciətində söylədi ki, "Qarabağ millətin tale məsələsidir". Bu fikir bütün respublika əhalisinin, həm də "Şahdağ" aqrofirması heyvandarlarının ürəyinin, düşüncəsinin gündəlik əməli proqramı oldu. Onlar həmin müraciətdən irəli gələn vəzifələri həyata keçirmək üçün kompleks tədbirlər planı hazırlamış və işlərini bu plana uyğun şəkildə qururdular. Quba batalyonunun döyüş qabiliyyətini daha da yüksəltmək üçün kollektivin üzvləri aylıq əmək haqlarının 3 faizini batalyonun fonduna keçirməyi qərara almış və bu ürək titrədən qərarı həyata keçirmişlər.

Respublika Prezidenti Heydər Əliyevin xalqa müraciətindən sonra Quba və Qusar rayonlarında könüllü olaraq orduda xidmət etmək istəyən gənclərin sayı gündən-günə artırdı.

Xalq inandığı, güvəndiyi rəhbərin sözü ilə ölümə də getməyə hazır idi. Çünki hazırda yeganə xilaskar, ümid yeri Heydər Əliyev idi. Xalq tərəddüd etmədən inamla onun ardınca gedirdi.

Müraciətdə həmçinin göstərilirdi ki, rəhbər işçilərin övladları orduya getmirlər. Bu sahədə xeyli dönüş yaranmışdır. Rəhbər vəzifədə çalışan valideynlər çağırış gözləmədən öz övladlarını könüllü olaraq Quba batalyonunda xidmət etməyə göndərirdilər.

Ümimiyyətlə, Quba-Qusar batalyonunu hər vasitə ilə möhkəmləndirmək üçün hamı əlindən gələni edirdi.

Quba-Qusar batalyonuna həmçinin mənəvi köməklik də göstərilirdi. Ziyalılar, mədəniyyət işçiləri, dövlət rəhbərləri dəfələrlə cəbhə xəttində olur, müxtəlif görüşlər keçirir, döyüşçülərlə söhbət aparır, incəsənət xadimləri həvəslə qaynar xətdə vuruşan qorxmaz əsgərlərin görüşünə gəlir, rəngarəng konsert proqramları ilə onların qarşısında çıxış edirdilər.

Bütün Quba sakinləri, Azərbaycan vətəndaşları sanki ulu şairimiz Məmməd Arazın –

Gözünü sil vətən oğlu,
Ayağa qalx!
Üfüqünə bir yaxşı bax,
Sərhədinə bir yaxşı bax,
Sərhədinin kəməndinə bir yaxşı bax!
Dur içindən qorxunu boğ,
Ölümünlə qalımını ayırd elə.
Dur içindən dovşanı qov,
Dur özünü Boz Qurd elə!
Varım - yoxum səninləyəm,
Azım – çoxum, səninləyəm!

– misralarını özünə şüar etmiş, bütöv Azərbaycan naminə torpaqlarımızın müqəddəsliyini qorumaq naminə ayağa qalxmış, bir yumruq kimi birləşmişdilər. Ata-babalarımızın “güc birlikdədir” məşhur kəlamı sanki bu vəziyyətlərdə yaranaraq xalqın dilində yaşamaq hüququ qazanmışdır.

Ziyalı Qədirov Paşanın xatirələrindən: insan ömrü qısa da olsa elə dünya boydadır. Çünki insan bədəni kiçik olsa da, onun beynində neçə kainat sığar. Rəhmətlik Nəsimi demişkən: “Məndə sığar iki cahan, Mən bu cahana sığmazam”.

Artıq tarixə dönmüş iki illik həyatımda ağlı-qaralı çox hadisələr olsa da onların içində bir hadisə yaddaşıma qızıl hərflərlə həkk olunmuşdur. Bu tarixi hadisə 1982-ci ilin 18 sentyabrında müstəqil dövlətimizin flaqmanı Heydər Əliyevin, möhtərəm Prezidentimiz İlham Əliyev, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Quba Aqrofirmasında olmasıdır. O günki el sevinci heç vaxt qəlbimi tərk etmir. Təsərrüfata rəhbərlik etdiyim 24 il ərzində ittifaqın və respublikanın 19 keçici bayrağına layiq görülmüşdür. Kollektivimiz Qarabağ cəbhəsində də fəallıq göstərmişdir.

Dəfələrlə şəxsən cəbhələrdə olmuşam. Ərzaq ləvazimatı göndərmişəm. Ağdamın Şelli kəndində, Ağcabədidə, Beyləqanda Kaftar təpədə olmuşam. Quba-Qusar batalyonunun yaradılmasında çəkdiyim zəhmət Vətən qarşısında borcun ödənilməsində mənə rahatlıq verir.

Yaxşı yadımdadır. Cəbhəyə kömək barədə sovxozun Mədəniyyət evində keçirilmiş yığıncaqda 40 nəfər Quba batalyonuna könüllü yazıldı. Ertəsi gün onlar batalyona qoşuldular.

Cəbhəyə gedənlərin ailələrinə hər bir yardım göstərməyi öhdəyə götürdük və bu işi yüksək səviyyədə yerinə yetirdik. Taleyi kəm Quba-Qusar batalyonu cəbhədə xeyli itki verdi. Lakin cəbhədə o vaxtki hərc-mərclik, ölkədə olan sahibsizlik batalyonun işinə təsir etmədi. Ağcabədi və Beyləqanın Kaftar təpəsində batalyonun yaradılmasında böyük zəhmət sərf etmiş Əli Eyvazovla (o vaxt Quba rayon prokuroru işləyirdi) birlikdə olduq. Rövşən Kəmərbəndinin, Nurəddin Hüseynovun idarə etdiyi qoşqulu KAMAZ-larla dolu ərzaq və gündəlik tələbat mallarını cəbhə bölgəsinə aparırdıq.

Cəbhə bölgəsində Əli Eyvazovla birgə əsgərləri ruhlandıran çıxışlar etdik, tələb və xahişlərini dinlədik və əməl etdik. Heç vaxt məni incidən bir fakt yaddan çıxmaz. Ağdam şəhərinə 2 min dəst əsgər paltarı, ərzaq ləvazimatını elə maşından qəbul edənlər satdılar. Hələ etiraz etdiyimə görə Kəmərbəndli Rövşənin əngini də şişirtdilər. Cəbhədə olan o vaxtki özbaşınalığa, anarxiyaya göz yum-

maq mənim üçün ən ağır dərd idi. Məhz bu səbəbdən də ermənilərin əl-qolu açıldı və daha rahat və sərbəst döyüş əməliyyatları aparmağa başladılar.

Quba şəhidləri haqqında poema yazaraq rayonun yerli “Şəfəq” qəzetində çap etdirdim, habelə kitab buraxdıq.

Qubalılar cəbhə bölgəsindən uzaqda olsalar da özlərini cəbhədə göstərir, maddi və mənəvi cəhətdən, ən başlıcası canlı qüvvə ilə köməklik edirdilər. Kim nə bacarırdısa köməklik edirdi. Yan keçmək istəyən az idi. Onların içində o vaxt rayon prokuroru işləyən Əli Eyvazov, qardaşım Yolçu Paşayevin və onlarla başqalarının əməyi xüsusi ilə qeyd olunmalıdır.

“Bir sözlə Vətən sağ olsun, yolunda ölməyə hazırıq”. Bu bizim həm o zaman, həm də indi həyat şüarımızdır.

Biz batalyona döyüşçülər yola salanda mən aşağıdakı şeirləri yazıb əsgərlərə payladım:

**Quba batalyonu**

Sinəsini etdi sipər,
Yurda arxa, yada çəpər,
Üçrəngli bayrağı öpər,
Bizim Quba batalyonu.

Yetişibdir hünər dəmi,
Qırıb şəri, hər tilsimi,
Birləşibdir yumruq kimi,
Bizim Quba batalyonu.

Doğma Vətən bizi eşit,
And içibdir hər ər igid,
Yağı düşmən, yurdu tərk et,
Gəlir Quba batalyonu.

Andına sadiq qalacaq,
Düşmənlərdən öc alacaq,
Bu yurd ilə ucalacaq,
Bizim Quba batalyonu.

Quba-Qusar batalyonunun əsgərlərinə müxtəlif şeirlər ithaf olunurdu. Ürək qanı ilə yazılmış həmin şeirlərdən bir neçəsini əziz oxuculara təqdim etməyi məqsədəuyğun saydım.

## Əhsən sizə, qubalılar!

*Quba batalyonunun əsgərlərinə ithaf olunur*

Eşidənlər alqış dedi, əhsən dedi əzminizə,
Sizi qeyrət gətiribdir Beyləqana, qubalılar!
“Ana”, “Vətən” kəlmələri müqəddəsdir bizim üçün,
Uğur deyir yolunuza hər bir ana, qubalılar!

Hər biriniz bir cəngavər, igid ərlər oğlusunuz,
Yağılara sinə gərən qorxmaz nərlər oğlusunuz,
Bu torpağın qədir bilən, vətənpərvər oğlusunuz,
Durun döyüş meydanında mərd-mərdana, qubalılar!

Fətəlixan övladısız, düşmən bağrın üzənsiniz,
Qələbəyə çatmaq üçün hər cəfaya dözənsiniz,
Yağı düşmən qarşı gəlsə, onun başın əzənsiniz,
And içibsiz bayraq altda siz Qurana qubalılar!

Səməd, Kamal, Azay kimi igid-igid oğulların
Qabağında duruş tutmaz bircəsi də dığaların,
Əziləcək bu gün-sabah ilan başı o əğyarın,
Ermənilər çəkiləcək haqq-divana, qubalılar!

Zəfər yolu keçəcəkdir Füzulidən, Cəbrayıldan,
Azad olar Xankəndimiz, azad olar Şuşa... Ağdam.
Bu haqq işdə kömək olsun sizə bizi yaradan,
Qovun azğın düşmənləri Yerevana, qubalılar!

Qədir Paşa oğlu Paşayev fərəh hissi ilə bizə danışırdı ki, 1982-ci ilin sentyabr ayının 18-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev (o zamanlar Azərbaycan KP MK-nin I katibi işləyirdi), habelə indiki prezidentimiz İlham Əliyev onun rəhbərlik etdiyi Aqro-firmada olmuşlar. Qədir müəllim isə 1985-1990, 1990-1995-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur.

Batalyonun qəhrəmancasına şəhid olmuş igid oğlu Pərviz Şirinbəyovun yazdığı bu şeir isə o vaxt “Quba” qəzetində çap olunmuşdu:

**Qələbə yaxındır**

Qeyrətlə, namusla vuruşaq, dostlar
Yaxındır qələbə, yaxındır zəfər.
Dığalar it kimi qaçır meydandan
Müjdələr gözləyir bizi, müjdələr.

Vətəni qoymayaq heç zaman darda,
Düşmənin canına salaq vəlvələ.
Qoy artsın, möhkəmlənsin sıralarımız,
Bir olaq həmişə, verək əl-ələ.

Vətən müqəddəsdir, Vətən anadır,
Onun xilaskarı biz olmalıyıq.
Nə qədər şəhid var, əsir-yesir var
Düşməndən qisasın biz almalıyıq.
Zəfər yaxındadır o gün gələcək,

Qələbə bayrağı dalğalanacaq.
O şadlıq günündə, sevinc günündə

Qorxaqlar lənətlə xatırlanacaq.
Pərviz Şirinbəyov,
Quba-Qusar batalyonunun
şəhid olmuş döyüşçüsü

**Sizi çağırıram Oğuz elləri!**

Qoy qalxsın ayağa Oğuz elləri,
Azəri Yurdunun mərd igidləri.
Son döyüş anımız yetişib həmən,
Gərək yurdumuzdan qovulsun düşmən.

Alınsın qanları Şəhidlərimizin,
Qoy yurdu dağılsın mənfur düşmənin.
Xocalı dağı tək, dağ çəkək ona,
Əbədi dərs olsun namərd düşmənə.

Bir də baş qaldırmağa cürət etməsin,
Bu gözəl yurdumdan yox olub getsin.
Qələbə sevinci yaşasın Vətən,
Hər zaman, həmişə var olsun Vətən!

**Gülağa Sultanov,**
Quba-Qusar batalyonunun zabiti

Qeyd edim ki, Quba-Qusar batalyonunun yaranmasında Quba rayon prokuroru kimi mənim müəyyən rolum olmuşdur. Həmin dövr "Quba" qəzetində bu batalyonun bir təşkilatçısı və rəhbəri kimi mənimlə müsahibə dərc edilmişdi. Düşünürəm ki, həmin müsahibəni

17 il sonra dəyərli oxuculara təqdim etmək yerinə düşər: Çünki, bu, bizim o qədər də uzaq olmayan şanlı tariximizdir.

– Əli müəllim, Sizdən Quba batalyonu ilə əlaqədar bir neçə suala cavab almaq istəyirik.

– Buyurun.

– Əli müəllim, Siz ötən il rayonda çağırışın və səfərbərliyin keçirilməsində, Quba batalyonunun təşkilində və onun cəbhə bölgəsində yerləşdirilməsində çox fəal iştirak etmisiniz. İndi də tez-tez cəbhə bölgəsində olur, əsgərlərə baş çəkirsiniz. Hazırda batalyonda vəziyyət necədir?

– Düz buyurursunuz. Hörmətli Prezidentimiz Heydər Əliyevin ötən ilin noyabr ayında xalqa müraciətindən sonra hər yerdə olduğu kimi, Quba rayonunda da Milli Orduda xidmət etmək istəyənlərin sayı artmışdır. Bu tədbiri mütəşəkkil keçirmək üçün rayon qərargahı yaradıldı, təbliğat və təşviqat işlərini genişləndirdik. Biz tez bir zamanda batalyonu təşkil edib qısa müddətli hazırlıqdan sonra döyüş bölgəsinə apardıq. Bununla işimiz bitmədi. Batalyonun əsgərlərini geyim, ərzaq, yatacaq və s. təmin etmək üçün rayon ictimaiyyətini ayağa qaldırdıq. Vaxtaşırı olaraq ictimaiyyətin nümayəndələri batalyonun yerləşdiyi bölgəyə gedir, əsgərlərə hər cür kömək göstərirlər. Bir sözlə, əsgərlərə və onların ailələrinə qayğı bu gün bir nömrəli işimizdir. Bütün valideynlər arxayın ola bilərlər ki, Respublika Müdafiə Nazirliyi batalyona xüsusi qayğı göstərir. Əsgərlər ərzaq, hərbi geyim, hərbi silah və sairlə təmin olunmuşlar. Onu da deyim ki, batalyona səriştəli komandir başçılıq edir.

– Batalyonda xidmət edən əsgərlər arasında olan dostluq və döyüş əhval-ruhiyyəsi barədə nə deyə bilərsiniz?

– Quba batalyonunda xidmət edən əsgərlər və zabitlər arasında münasibətlər hərbi nizamnamənin tələblərinə uyğun qurulmuşdur. Burada müxtəlif xalqların övladları – azərbaycanlılar, ləzgilər, tatlar, talışlar, avarlar xidmət edirlər. Onlar səmimi bir ailənin üzvü kimi yaşayır, bir yerdə yatıb-durur, bir yerdə döyüşə gedirlər. Qubalı əsgərlərin Lənkəran və Astara bölgəsindən olan batalyonun

döyüşçüləri ilə mehriban dostluq əlaqələri vardır. Bunu döyüş bölgəsində olan rayonumuzun nümayəndələri də təsdiq edirlər. Mən qəti deyə bilərəm ki, bölgədə xidmət edən əsgərlər arasında heç bir narahatçılıq yoxdur. Hamının amalı birdir: tezliklə erməni işğalçılarını torpaqlarımızdan qovub çıxarmaq.

– Amma şəhərdə söz gəzir ki, Quba batalyonunun əsgərlərinə münasibət pisdir.

– Bu böhtandır, ağ yalandır. Belə şayiələr rayonda sabitliyi pozmağa, əsgərlərdə ruh düşgünlüyü yaratmağa çalışan qüvvələr tərəfindən yayılır. Digər tərəfdən isə döyüş bölgələrindən qaçan qorxaqlar öz pis hərəkətlərinə haqq qazandırmaq üçün belə söhbətləri qəsdən yayırlar. Belə təxribat xarakterli məlumatlara qətiyyən uymaq olmaz. Onu da deyim ki, bu saat Quba batalyonunun əsgərləri Milli Ordumuzun tərkibində düşmənə qarşı igidliklə vuruşurlar. Bu günlərdə Milli Məclisin üzvləri olan bir qrup deputat qubalı əsgərlərin vuruşduğu "N" hissəsində olmuşdur. Deputatlar əsgərlərin döyüş qabiliyyətindən çox razı qalmışlar. Bu, bizi sevindirir.

Bu gün bizim nicatımız respublika Prezidenti Heydər Əliyevdir. Onun ətrafında sıx birləşib məkrli düşmənə qalib gəlməliyik. Qələbəmiz yaxındadır. O günü daha da yaxınlaşdırmaq üçün hər birimiz əlimizdən gələni etməliyik. Yeri gələndə ölümə belə getməliyik. Bu kəlamı bir an da olsa yaddan çıxarmamalıyıq: ”Torpaq əgər uğrunda ölən varsa, Vətəndir”.

**“Quba” qəzeti. – 1994. – 11 fevral.**

## 3. BATALYON DÖYÜŞÇÜLƏRİNİN CƏBHƏDƏKİ QƏHRƏMANLIQLARI

Quba-Qusar batalyonuna Quba rayon prokuroru, Baş ədliyyə müşaviri, polkovnik Əli Eyvazov başçılıq edirdi. O, gəncləri Vətən məhəbbəti, təəssübkeşliyi ruhunda böyütmək və tərbiyə etmək vəzifəsini həyata keçirirdi. Onun gördüyü işlər nəticəsində könüllülərin sayı günbəgün artırdı.

# İGİD ÖLƏR, ADI QALAR

Quba, Məmmədəmin Rəsulzadə küçəsi 109 nömrəli ev, Zaur Cəfərov bu ünvanda yaşayırdı. Onun Daşaltıda həlak olması xəbəri şəhərə sürətlə yayılmışdı. Həmin gün Zaur Cəfərovla vidalaşmağa minlərlə qubalı gəlmişdir. Gözlərində yaş, ürəklərində qəm və kədər olan insanları bir sual düşündürürdü. Başımıza gətirilən bu müsibətlərin və günahsız ölümlərin sonu olacaqmı? Analarımız nə vaxtadək qara geyəcəklər? Matəm dəstəsi mərd və qorxmaz igidin cənazəsini çiyinlərdə yox, əllərinin üstündə aparırdı. Qabaqda qara lentlə sarılmış Azərbaycanın üçrəngli bayrağını aparırdılar. Məktəblilər Zaurun toy əvəzi olacaq xonçaları və qırmızı qərənfilləri aparırdılar. İnsan axını şəhər məscidinin – pak və müqəddəs Allah evinin, iman yerimizin önündə dayandı. Məscidin sədri Hacı Tağı mərhumun ruhuna dua oxudu. İnsan axını hərəkətə gəldi. Matəm iştirakçıları şəhər qəbiristanlığına tərəf irəliləyirdi. Budur son mənzil. Şəhid oğlumuz Zauru el adəti ilə dəfn etdilər. Sonra matəm mitinqi keçirildi. Rayonun hərbi komissarı Firudin Həmzəyev söz alaraq dedi: “Zaurun keçirdiyi həyat yolu hər birimiz, xalqımızın bütün övladları üçün örnək və nümunədir. O, qubalıların xatirəsində əbədi yaşayacaqdır. Onun qanı yerdə qalmayacaqdır, Vətən torpağı yağı düşməndən təmizlənəcəkdir.”

Çıxış edənlərdən Əzizağa Qasımov, Eldar Sübhanverdiyev, Firudin Mahmudov bildirdilər ki, bağlar diyarının mərd oğlu Zaur torpağımızın müqəddəsliyi uğrunda canını qurban vermişdir. Allah ona rəhmət eləsin. Qəhrəmanlıq xatirəsini əbədiləşdirmək üçün onun oxuduğu 3 saylı şəhər orta məktəbinə və Miçurin küçəsinə şəhid Zaur Cəfərovun adı verilsin.

1968-ci ildə Zaur dünyaya göz açanda anası Rəna bəlkə də heç fikirləşmirdi ki, bir vaxt gələcək onun oğlu qubalıların igidlik mücəssəməsi olacaqdır. Lakin tale elə gətirdi ki, torpaq və Vətən uğrunda öz canlarını qurban verənlərdən biri də onun övladı oldu.

Oğul toyu görmək əvəzinə anaya övlad tabutu görmək qismət oldu. Az müddət ərzində Cəfərovlar ailəsinə kədər və qəm üst-üstə gəlirdi. 1991-ci ilin martında hərbi xidmətdə olan oğlu Araz xəstəlikdən vəfat etdi. Bu sarsıntıdan altı ay sonra həyat yoldaşı Sadıq dünyasını dəyişdi. İndi də Zaur...

Qarabağda silahlı münaqişələrin gərgin şəkil aldığı ilk dövrlərdə (1990-cı ildə) o, 15 nəfər həmyerlisi ilə birlikdə könüllü olaraq Qubadlının müdafiəsində iştirak etmişdir. Oradan qayıtdıqdan sonra 1991-ci ilin yayında Xocalının qorumağa getmişdir. Dəfn mərasimində mərhumun cəbhə yoldaşlarından bir neçəsi ilə görüşüb söhbət edə bildik. Zaurun gənclik və uşaqlıq dostu Məmməd Abbasov bildirdi ki, Zaurla mən Qubadlının Gürcülü kəndinin müdafiəsində iştirak etmişəm. Sonra biz ayrıldıq. Axırıncı dəfə onu yanvarın 17-də Bakıda gördüm. Dedi ki, sağlıq olsun, bu yaxınlarda Qubada görüşərik. Amma bizə görüşmək qismət olmadı. Cəbrayıl rayonundan olan uşaqlıq dostu Tehran Həsənov söhbətə qoşulur: “Mən Zaurla birgə Milli Ordunun I batalyonunun I rotasında vuruşdum. Dekabrın 11-16-dək Kərgicahanın müdafiəsində bir yerdə olduq. Onun şücaətindən, dönməzliyindən çox danışmaq olar. Dekabrın 14-ü biz postda dayanmışdıq. Səhər saat 5:30-da ermənilərin silahlı quldur dəstələri bizə tərəf gəlirdilər. Zaur bizə tapşırdı ki, atəş açmayın. Özü isə əlində qumbaralarla döyüşə hazır vəziyyətdə dayandı. Quldurlar postun yaxınlığına çatanda o qumbaraları tulladı. 5 erməninin cəsədi yerə sərildi. Biz dərhal döyüşə girib, düşməni geri çəkilməyə məcbur etdik. Həmin döyüşdə iki nəfər yoldaşımız ağır yaralandı. Zaur igidliyi və mərdliyi ilə yoldaşları arasında həmişə seçilirdi.

Dağlıq Qarabağın Daşaltı kəndində vuruşların iştirakçısı canlı şahid Oqtay Bağırov yanıqlı-yanıqlı deyir: yanvarın 25-də Daşaltı əməliyyatı başlandı. Yanvarın 26-da saat 10-11 radələri idi. Mərkəzdən əmr gəldi ki, BTR-lər döyüş zonasını tərk etsinlər. Sonradan məlum oldu ki, bu düzgün əmr olmamışdır. Zaur da BTR sürürdü. Biz geri çəkildik. Lakin Zaur yoldaşlarının darda qaldığını görüb dözə bilmədi. Yaralı yoldaşının avtomatını götürüb yenidən döyüşə getdi.

Bu döyüş xeyli çəkmişdir, hiyləgər düşmən onları əsir tutmaq üçün ayaqlarından vurmuşdu. Lakin Zaurgil namərd əlinə düşməməkdənsə mərd ölümü daha üstün tutdular. Onlar silahlarını öz ürəklərini tuşlayıb sonuncu dəfə tətiyi çəkdilər. Vətən, torpaq yolunda canlarını qurban verdilər. Zaurun və 7 nəfər silahdaşlarının meyitini erməni quldurlarından bu günlərdən ala bilmişlər. İgid dostların 6 nəfəri Bakıda Şəhidlər xiyabanında dəfn edilmişdir. 1 nəfər isə Ağdamda doğma yurdunda dəfn edilmişdir. Bütün qubalılar Zaur kimi oğlanla fəxr edə bilərlər. Onun döyüş rəşadəti bizim hər birimiz üçün örnək olacaqdır. Zaurun ömrü və arzuları yarımçıq qaldı. Biz onu Vətən torpağına tapşırdıq. Qəbri nurla dolsun, Allah ona rəhmət eləsin.

**Məzahir Məmmədov**

"Quba" qəzeti

Bu fəsli yazarkən biz bir neçə batalyon üzvləri və şəhid anaları ilə görüşdük.

Rəna xanım Cəfərova Quba Şəhid Anaları Xeyriyyə Cəmiyyətinin sədri bizimlə söhbətdə o ağır günləri belə xatırladı: – o, illərdə vəziyyət olduqca ağır idi. Söhbət həm, ön cəbhədən, həm də arxa cəbhədən gedirdi. Hətta çörək belə tapmaq çətin məsələ idi. Cəbhədə məğlubiyyət, məğlubiyyət ardınca baş verirdi. Biz isə fövqəladə vəziyyət şəraitində yaşayırdıq. Mənim oğlanlarım cəbhəyə könüllü getdilər. Onlar Vətən, torpaq üçün canlarını belə əsirgəmirdilər. O dövrdə çoxlu provakasiyalar baş verirdi. Bir gün gecə saat 1 radələrində həyəcan siqnalı verildi. Sən demə Sumqayıt hadisələri baş vermişdi. Biz yatağımızdan durduq və Qubanın Mərkəzi Meydanına toplaşdıq. Bizə xəbər verdilər ki, ermənilər Dəvəçi (indiki Şabran) istiqamətində hücuma keçiblər. Gənclər 2 İKARUS markalı avtobusa oturub həmin istiqamətə yola düşdülər. Səhər isə onlar Qubaya qayıtdılar və məlum oldu ki, bütün bunlar təxribat imiş. Mənim oğlum Zaur 1990-ci ildə könüllü hərbi xidmətə getdi və şücaətli qəhrəman jurnalistimiz Salatın Əskərovanın qətlə

yetirildiyi yeri öz gözləri ilə görüb. O, bizə məktub göndərdi ki, qələbəyə qədər evə qayıtmayacağam. Mən işdən qayıdan zaman o məktubu oxudum və bir az sonra Zaurun ölüm xəbəri gəldi. Zaur Qubanın ilk şəhidi oldu. O vaxtlar Şəhidlər Xiyabanının salınmaması səbəbindən onu şəhər qəbiristanlığında dəfn etdik. O, ulu öndər Heydər Əliyevlə görüşən zaman ulu öndərdən bu sözləri eşitdi: "Siz şəhid anaları düşmən qarşısında hər vaxt başınızı dik tutun, ona görə ki, oğullarımız Vətən torpağı uğrunda qəhrəmanlıqla vuruşdular və şəhid oldular".

Bütün qubalılar Zaur kimi oğlanla fəxr edə bilərlər. Onun döyüş rəşadəti bizim hər birimiz üçün örnək olmalıdır.

Başqa bir şəhid anası Qalina Şirinbəyova hal-hazırda Quba Şəhid Ailələri Müdafiə Cəmiyyətinin sədridir. O, ürək ağrısı ilə qeyd etdi ki, onun iki oğlunun Kənan və Pərvizi 1992-ci ilin mart ayında həqiqi hərbi xidmətə çağırdılar. Onlar Ağdərə uğrunda döyüşlərdə əsl qəhrəmanlıq göstərdilər. Heydər Əliyev hakimiyyətə qayıdandan sonra isə hər üç oğlum – Yalçın, Kənan və Pərviz könüllü olaraq Quba, Qusar batalyonuna yazıldılar.

Kənan Şirinbəyov öz xatirələrində qeyd edir ki, Kənan ağır yara aldığı üçün onu 10 günlük evə buraxdılar, qayıdandan sonra isə onu və onun bir neçə cəbhə yoldaşını Sürət Hüseynovun göstərişi ilə Qaradağ həbsxanasında saxladılar. Sonralar isə onu, məni və digər döyüşçüləri Ağdam 6 saylı məktəbinə gətirdilər. Bizi silahlandıraraq Fərrux dağının ətəyinə bir bələdçi ilə göndərdilər. Orada ermənilər bizi atəşə tutdular. Çoxlu yaralananlar, habelə itkilərimiz oldu. Sonra Qubaya qayıtdıq. Quba Hərbi batalyonu 1993-cü ilin noyabr ayında yaradıldı və biz könüllü olaraq hərbi xidmətimizi davam etdirdik. Dekabrın 26-da isə gecə saat 24:00-də biz Şiştəpə istiqamətində döyüşə yollandıq. Düşmənə əsir düşməmək üçün qardaşıma limonka verib, özüm isə yaralı yoldaşlarımıza kömək edirdik. Onları mühasirədən çıxarandan sonra Pərvizi axtarmağa başladım. Gördüm ki, iki şəhid aparırlar. Mən qardaşımın şalvarın-

dan tanıdım. Ancaq məni yaxın buraxmadılar. Çünki mən artıq qardaşımı itirmişdim.

Mən rayon prokuroru kimi göstəriş verdim ki, Pərviz Şirinbəyov şəhid olduğu üçün onun qardaşı Kənan Şirinbəyovu arxa cəbhəyə qaytarsınlar.

Qədirov Elçin isə o günləri belə xatırlayırdı: "... 1993-cü ildə yaradılan Quba batalyonunda könüllü olaraq xidmətimi davam etdirdim. Ağcabədi və Şiştəpə uğrunda gedən döyüşlərdə Şirinbəyov Pərviz və Şirinbəyov Kənan qardaşları ilə birgə döyüşürdük. 26 dekabr gecə saat 24:00-da Şiştəpə istiqamətinə yollandıq. Səhər açılana kimi ermənilər tərəfindən amansızcasına atəşə tutulduq. Mühasirəyə düşənlərimiz də oldu, çoxlu yaralı və şəhidlərimiz də oldu. Allah şəhidlərimizə rəhmət eləsin."

Baş leytenant İsmayıl Babayev o günləri belə xatırlayırdı: "1988-ci ildən Ermənistandan və Qarabağdan ilk azərbaycanlı qaçqınlar respublikamızın bir çox bölgələrinə pənah gətirdilər. Ermənilər onları öz döğma yurd-yuvalarından amansızcasına qovurdular. O zaman respublikamızda cəbhəçilər "xüsusi fəallıq" göstərirdilər, məmləkətimizdə xaos hökm sürürdü. Respublikamızda qaçqın və köçkünləri vaqonlardan boşaldanda məndə də erməni faşistlərinə qarşı nifrət artdı. 1992-ci ildə Ağdam, Şelli və s. ərazilər uğrunda gedən döyüşlərdə iştirak edirdim. Lakin inşaat tağımında olduğum üçün döyüş əməliyyatlarında tam qarışa bilmirdim.

1993-cü ilin oktyabr ayında "Avtovağzal" deyilən obyektdə işləyirdim. Buna baxmayaraq ki, qardaşım Ənvər, Süleyman Qubadov, Müşfiq Qasımov, Fərhad və Rövşənlə təzə yaranan 23 saylı Quba-Qusar özünümüdafiə Batalyonuna qoşulduq. 1993-cü ilin noyabr ayının 2-də Ali baş komandan Heydər Əliyev xalqa müraciət etdi. Xalq onun səsinə könüllü olaraq səs verdi. 23 saylı Quba-Qusar özünümüdafiə Batalyonunu qısa bir zamanda Quba rayon prokuroru Əli Eyvazovun təşəbbüsü ilə yaradıldı. Bu işdə rayonun bir sıra vəzifəli şəxsləri də fəal iştirak etdilər. Hərbi Komissar, İcra Hakimiyyətinin başçısı, icra hakimiyyəti başçısının müavinləri, Polis Şöbəsinin rəisi və s. hörmətli şəxslər.

Yuxarıda qeyd etdiyim kimi batalyonun təşəbbüsçüsü və yaradıcısı Quba rayon prokuroru Əli Eyvazov oldu. Batalyonun 1993-cü ilin noyabr ayının 6-8-dək tam ştatda təlimə hazır idi. Əli Eyvazov öz hüquqi işini və həyata keçirdiyi vəzifəsini sanki yaddan çıxararaq Qarabağ qələbəsini qarşısına ön məqsəd qoymuşdur. Bizim evdən və yaxın qohumlarımızdan 3 nəfər bu batalyonun tərkibinə yazıldı."

Bu sətirləri oxuyarkən mən Azərbaycan xalqını bir daha nə qədər mərd, qorxmaz və şücaətli xalq olmasının bir daha şahidi oluram.

1993-cü ilin noyabrın 5-6-sı Qubada, Qusarda müqəddəs bayrağı öpərək bütün batalyon üzvləri Qurani-Kərimin altından keçərək and içdilər. Onları Qusar və Quba əhalisi Vətən torpaqlarını xilası üçün yola saldılar. Mən və batalyon üzvləri Beyləqan, Ağcabədi rayonunun döyüş bölgəsində yerləşdik. O zaman mən və Yaşar Eyvazov, rayonun rəhbərliyi də bir yerdə idilər. Mən tapşırdım ki, postdan heç kimi buraxmasınlar. İki gündən sonra Xaçinstroy kəndinin sahəsində batalyonu yerləşdirdik və plakatları qurmağa başladıq.

Baş leytenant İsmayıl Babayevin xatirələrindən: "Əli Eyvazov Quba rayon prokuroru, kapitan, komissar müavini və kombat əvəzi Yaşar Məmmədov batalyonun şəxsi heyətini düzüb yoxladılar. Bizim batalyon artıq şöhrət qazanmışdır. Çünki yeganə batalyon idi ki, silahdan başqa, Qubada ştatla texnika, təchizat, avtomobil, PXD, traktorlar, avtobuslar, avtolavkalar, ZİL-130-lar və QAZ-66-lar, su və yanacaq maşınları və ərzaqla təmin olunmuşdur. 1993-cü ilin noyabrın 16-da batalyon mayor Əskərovun briqadasına təhvil verildi və batalyon üzvləri silalhlanmağa başladı. Ermənilər bizdən 5 km irəlidə Ağburun, "Nərgiztəpə", "Kaftartəpə" və Kuropatkino kəndində yerləşirdi. Biz silahlanandan sonra Ağcabədinin Kəbirli məktəbində yerləşdik.

1993-cü ilin dekabrın 27-də axşamdan silah-sursat alıb döyüşə girdik. Bu dəfə briqadanın səhv məlumatına görə döyüşdə 7 şəhid, 22 yaralı verərək geri çəkilməyə məcbur olduq. Erməni tanklardan və plemyotlardan gülləni yağış kimi yağdırırdı. Mənim rotam pis vəziyyətdə döyüşürdü. II rota İsmət məndən sağda təpənin arxasında

idi. Prokuror Əli müəllim ayağından yaralanmışdı. Nəbi yaralanmış, sonra isə şəhid olmuşdu. Qusardan Hüseyn yaralandı və s. Mən gördüm ki, 22 yaralı, hamı bir çalaya daşınmışdı. Ancaq ermənilər üstdən onları güllələbaran edirdilər. Döyüş meydanında itkilərimizi toplayıb batalyonun şəhid və yaralıları ilə geri çəkildik. 3-4 gün kəşfiyyatımızın köməyi ilə plan cızaraq 1994-ci ilin yanvar ayının 12-si itki olmadan bütün yüksəklikləri ələ keçirdik və bu cəbhədə dönüş yarandı. Mövqelərimizi möhkəmlətməyə başladıq. 1994-cü ilin yanvar ayında bir dəfə ağır kantuziya, bir dəfə isə boyunun baş nahiyəsindən ağır yaralandım. Ağcabədi hospitalında 2 gün sonra gözümü açdım. 1994-cü ilin yanvarın 31-də Quba uşaqlarının ölənləri və yaralılarını hospitala gətirirdilər. 1994-cü ilin fevral ayında batalyonun ən mərd, igid və seçmə oğulları 129 nəfərdən ibarət heyətlə qeyri-qanuni əmrsiz olaraq rayondan Füzuliyə göndərildi. Zabitlərin hamısı geri qaytarıldı, başsız olan döyüşçülər aşağı və yuxarı Seyidəhmədlidə şəhid və əlil oldular. Batalyon atəşkəsdən sonra rayona döndü.

Batalyonun döyüşçüsü İsgəndər Daniyarovun xatirələrindən: “1982-1984-cü illərdə həqiqi hərbi xidmətdə olmuşam. 1993-cü ilin oktyabr ayında könüllü olaraq Quba-Qusar batalyonunun tərkibində Qarabağ uğrunda döyüşlərdə iştirak etmişəm. Batalyonunun I Taborun starşınası olmuşam. Qardaşım Daniyarov İlqar Qarabağ uğrunda döyüşlərdə 1994-cü ilin aprel ayında şəhid olub.” Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 1993-cü ildəki müraciəti heç kimi biganə qoya bilməzdi. Bu müraciətdən sonra yüzlərlə, minlərlə həmvətənlilərimiz vətənin müdafiəsinə qalxdı. O günləri Şahbaba Babayev belə xatırlayır. “Prezidentin xalqa müraciətindən sonra 23 saylı Quba-Qusar özünümüdafiə batalyonunun tərkibində erməni qəsbkarlarına qarşı vuruşmaq məqsədi ilə “N” hərbi hissəsinə getdim və orada batalyon komandirinin müavini vəzifəsini yerinə yetirmişəm. Hacıyev Şövkət, Qubadov Süleyman, Rəhimov Hörmət, Cabbarov Miqdar və bir çox başqa döyüşçülər könüllü olaraq 1993-cü ildə Quba-Qusar batalyonunun tərkibində Qarabağ torpaqlarının azad olunması uğrunda döyüşmüşlər.

Valter Skottun bir fikri yada düşür: “Elə təhlükələr var ki, onların dik üzünə baxmaq lazımdır. Onların qabağından qaçmağa başlasan, mütləq tələf olacaqsan”.

Müharibə də zəfər naminə hücuma daim hazır olan batalyonun mərd oğulları torpaqların azad edilməsi uğrunda qanlı döyüşlər aparmaqla yanaşı, bəzən gözlə-qaş arasında da olsa vaxt tapıb hətta gündəlik də yazıblar.

Tarixən cəbhə gündəlikləri bədii əsərlərə ən gözəl sujet xətti olmuş, müharibələrin ədəbiyyatda doğru, dolğun əks olunmasına yardımçı olmuşdur. Çünki gündəlik yazan cəbhəçi heç bir hissə qapılmadan, emosiyaya uymadan bütün hadisələri olduğu kimi qələmə alır. Yazdığı gündəliyin sonrakı taleyini düşünmədən, nəyəsə, kiməsə lazım olacağını bilmədən öz əzablarını, duyğu və düşüncələrini yazmaqla təsəlli tapan döyüşçülər müharibənin amansız, sərt qanunlarına burda da riayət edirlər. Hər şey doğru, ciddi və boyasız.

Gündəliyi oxumağa başlayan kimi əsgərlərimizin çətin həyatı, daim ölümlə üz-üzə, göz-gözə gələn, lakin heç bir təhlükədən qorxmadan cəsarətlə azğın düşmənə qarşı döyüşlər aparan igid cəngavərlərimizin döyüşdəki qəhrəmanlıqları gözlərimiz önündə canlanır. Biz o cavan döyüşçüləri hiss edir, onların sadəliyinə, vətənpərvərliyinə vuruluruq və sonda, dəfələrlə oxusaq da, məktublardan ayrıla bilmirik. Məktublar oxucuya göstərir ki, insanlar müharibənin gərgin vaxtlarında belə nələr düşünürmüşlər. Çünki müharibədə üstünlük, qələbə, uğur əsgərlərin hansı hissləri yaşamasından, mənəvi düşüncəsindən, ruh yüksəkliyindən çox asılıdır. Məktublar Qarabağ müharibəsini onun iştirakçılarının gözü ilə canlandırır, müharibənin sərt qanunları, amansız vuruşları, ölüm-itimləri, çatışmazlıqları barədə oxuyanı düşünməyə vadar edir.

Düşünürsən ki, onlar nə ediblərsə, hansı addımları atıblarsa Vətənin azadlığı naminə, onun düşmən əsarətinə keçməməsi naminə, ulularımızın qəbrinin, ruhlarının təhqir olunmaması naminə ediblər.

Ana Vətəni, Azərbaycanı, müqəddəs yurd yerlərimizi sevmək naminə ölüm saçan döyüşlərə atılıblar.

Təkcə bu duyğuları yaşatmağın özü alqışa layiqdir.

Xalq şairi Məmməd Arazın könül çırpıntıları yaşayan sətirlərində olduğu kimi:

Yazmışam hər şeyi könül naminə,
Bircə bu günahım bağışlanacaq.
Neylədim Vətəni sevmək naminə,
Ucaltmaq naminə elədim ancaq.

İsmət Cəfərovun bu mübariz döyüşçünün cəbhədə yaşadığı günlərin salnaməsini yaratmağa çalışdığı o gündəlik nə yaxşı ki, bizə çatıb. Artıq tarixi sənəd statusu qazanmış bu gündəlik həmin hadisələrə, cəbhədə gedən proseslərə 17 il sonra sanki ayna tutur.

İsmət Cəfərovun gündəliyindən sətirlər:

Salam, mənim əzizlərim! Hamınızı bağrıma basıb, sizə bu məktubu yazıram. Bu gün Bəhruz yanıma gəlmişdi. Polnı boyevoy (tam döyüş) formada idi. Məndən 10-15 km düşmən tərəfdədir. Onlarla düşmən arasında yenə ordu var. O ikinci, mən üçüncü cərgədəyəm. Nə isə, qorxulu deyil. Deyəsən, biz onları 5-dən sonra əvəz edəcəyik. Ümumiyyətlə, indi mən burada özümə görə hörmət qazanmışam. Prokuror bizə əlindən gələn yaxşılığı edir.[2] Mənə xüsusi hörməti var.

23.11.1993.

Lyubaş, sən ölməyəsən, mən bilim ki, mən gələndən sonra sən arıqlamısan, ya üz-gözün yığılıb, özündən küs.

İndi sənə açığını yazacağam ki, mənim məktub yazmamağımın səbəbi nədədir.

Müharibə! Bu zarafat iş deyil. Biz Qusardan çıxanda mən bilirdim ki, 430 nəfərin içində 10-20 nəfər alçaq, narkoman, qorxaq var. Tərslikdən təbii şəraitin pis olması “Vətən, Vətən” deyən “kişiləri” sındır-

---

[2] Prokuror – Quba rayon prokuroru Əli Eyvazov

dı ki, həmin 30-40 nəfər altdan-altdan öz işinə başladı. Gözlənilmədən yağan qar uşaqları lap çaşdırdı. Palatkalardan (çadırdan) damcılayan su yatacaqları islatdı. Palçıq dizə çıxırdı. Düz 3 gün yatmadım. Uşaqların yanında olurdum ki, pis fikrə düşüb qaçmasınlar. 100-ə yaxın uşaq soyuqladı. Kəndə gedib spirt tapdım (100 litr). Uşaqları masaj etdim. İndi vəziyyət yaxşıdır. Kəndə, məktəb binasına köçmüşük. İndi uşaqlar məni müalicə etdirirlər. Kənddə olan həkim hər gün yanıma gəlir, çölə çıxmağa qoymur. Məni isə sən tanıyırsan, dinc dayanmıram.

Müharibədə uduzmaq ancaq komandirin sarsaqlığından olur. Mən isə kiminsə qarğışını istəmirəm.

Başa düşən düşür. Mən bilirəm ki, birinci döyüşdən sonra bir-birimizi yalayacağıq. Ancaq sonra gec olacaq. Nə isə, öpürəm hamınızı.

03.12.1993.

Salam, mənim əzizlərim!

Mən bura gəlib çatan kimi gördüm ki, uşaqları cəbhəyə göndəriblər. Gəlib tapmışam. Ucu-bucağı görünməyən çöllükdür. Erməni dığaları 3-4 km qabaqdadırlar. Yaman sakitlikdir. Erməni bicdir, səsini çıxarmır. Bizimkilər isə hələ bişməyiblər. Qorxularından tək-tək atırlar. 3-cü gündür ki, cəbhədəyik. Get-gedə hər şey qaydasına düşür.

Yerin altında torpaq blindajda qalırıq. Gecəni yatmırıq. Gündüz isə səngərdə 2-3 adam qoyub, özümüz səhər yeməyini yeyib yatırıq.

İstəyirəm bir az hind kinosunun sözləri ilə yazım, ancaq gülməyim tutur.

Məni xəbər alanlara çoxlu-çoxlu salamlar. Məmmədi və Kamuşu xüsusi öpürəm. Onlara verdiyim söz üçün yaxşı şərait var. Yerinə yetirəcəyəm.

Alyonanı mənim əvəzimə öpərsən. De ki, özünə qulluq etsin. Məstana çatdır ki, tənbəl olmasın, yiyəsi kimi düşmənlə (siçan) daim mübarizə aparsın! (zarafat).

10.12.1993.

İndi bir tankım və bir BTR-im var. Silah (avto)-patron boldur. Ancaq yenə də alçaqlıq hökm sürür. Tankın-texnikanın qabağına avtomatla çıxmazlar. Spetssilah (xüsusi silah) isə yoxdur.

Yaxşı ki, qeyrət və kişiliyimiz var. Çoxlu protivotank (tank əleyhinə) qranat almışam. Ağıllı olsaq, o da erməni üçün bəsdir.

Meşə çaqqalsız olmaz. Qorxaqlarımın sayı o qədər azdır ki, yazmağa dəyməz. Onlarla mən xüsusi məşğul oluram. Qardaş, həm də dala qaçmağa yerimiz yoxdur. Bunu hamı başa düşür. Arxaya 18-20 km dümdüz çöllükdür, qabaq və yanımız isə erməni nayomnikləridir (muzdlular). Deməli, nasmert (ölənə qədər) dayanmalıyıq. Dayanacağıq.

12.12.1993.

Salam, əziz qardaşım, Fikrət!

Birinci döyüşümüz haqqında sənə məlumat yazmışdım. Qalanını yəqin tele-radioda eşitmisən. Bizim ordu haqqında isə gizlətdilər. 50-60, ya da çox Binəqədi uşağı, 20-30 talış balası rəhmətə getdi. İki tank, bir BMP (Piyadaların Döyüş Maşını) vuruldu. Döyüş davam edir. Binəqədinin batalyon komandiri yaralanıb. I bölük komandiri rəhmətə gedib, biri qolunu itirib, qalanı qaçıb, ya itib, bilinmir. İndi deyəsən dığalar düz bizim üstümüzə gəlmək istəyirlər. II bölük ürəkdən döyüşə hazırdır.

Bizə Bakı batalyonundan köməyə gəliblər və dərhal döyüşə girib, Binəqədi uşaqlarının meyitlərini çıxarıblar. Bir T-55 tankı veriblər. Tankçılar maştağalı balalarıdır – Natiq və Aslan.

14.12.1993.

Bibioğlu, salam! Burda qüvvə var, ağıllı baş yoxdur. Əclafların (ermənilərin) kəşfiyyatı çox dəqiqdir, çünki bizim alçaqların yarısı onlara işləyir. Burda hara baxsan “Quba”, “Binəqədi”, “Bakı”, “Cəlilabad” və s. batalyonları görürsən. Bəs “Beyləqan”, “Ağcabədi”, “Şuşa”, “Laçın” və s. batalyonlar hanı? Döyüş ancaq texnika ilə gedir. Sağ olsun, Bakı və talış uşaqları!

15.12.1993.

Qardaş, razvedka (kəşfiyyat) qayıtdı. Halal olsun! Qurd ürəyi yeyiblər. Əksəriyyəti xınalıqlıdır, 3-4 km açıq havada 8 nəfər irəliləyiblər.

17.12.1993.

Tutduğumuz mövqe Qazaxıstan çöllərinə oxşayır. Ucu-bucağı görünməyən düzənlik, dərə-təpədir. Qarşıda bizim dağlara oxşayan qarlı dağlar. Dağlar ermənilərdədir. O dağları alçaq erməni məhv edəcək. Qonşu batalyon ermənilərin 6 təzə tankını tutub. Qoyub qaçıblar.

18.12.1993.

Uşağı xəstəxanaya çatdıranda avtobus çökəyə düşüb, əzilib. Axır ki, çatdırıblar. Bu gün saat $13^{00}$- da III bölükdən bir başqasının ayağına güllə dəyib.

Məndə hələlik salamatçılıq və nizam-intizam hökm sürür. Bu gün kombat mənə əvvəlcə əmrlə, sonra yalvar-yaxarla yerimə (zamkombat) qayıtmağı tələb etdi. Mən qəti etiraz etdim. Çünki güclə əsəblərim sakitləşib. Ağrımayan başıma dəsmal sarımaq istəmirəm.

Bu gün tankistlərə maaş verdilər. 300-400 min rubl. Aydın oldu ki, bizə maaş olmayacaq. Biz sbora çağırılan hesab edilirik. Prokuror gəlsə, sözümü deyəcəyəm.

Bu gün səhər ermənilər Beyləqanı atəşə tuta bilməsinlər deyə, onları 8-10 km geriyə oturtmaq lazım idi. 40-50 əfqan mən duran yerdən keçib gedəndən sonra mən 3 tankla 1 saat sonra "təmizləmə" işi aparmağa gedəcəyəm. Otboy verildi. Nə var, nə var, ermənilər on günlük atəşi kəsiblər.

19.12.1993.

Dünən mənə əmr olundu ki, 15 nəfər "zaxvat qrupu" (düşməni tutan qrup) ilə əfqanlar ala bilmədiyi səngərlərə girməliyik.

Fikrət, əmr verdim ki, hər vzvoddan (tağımdan) 5 nəfər gəlsin. 15 dəqiqəyə hamı hazır idi. Özün təsəvvür elə ki, onlar ölümə, ya da ona qalib gəlməyə gedirlər. 15 nəfərlik əlcək, corab, siqaret və güllə-qumbara verdim.

Gecə $12^{00}$-da əmr aldım, $01^{00}$-da hazır idim. Səhərə kimi batalyondan gizli 20 nəfərlik dəstə ilə döyüşün başlanmasını gözlədim. Səs çıxmadı. Xoş xəbər aldım ki, 15 nəfər mənim və 15 nəfər III bölüyün uşaqları səngərləri döyüşsüz tutublar.

20.12.1993.

Deyəsən Beyləqan rayonunun sərhəddini keçdik. İndi Martuni (Xocavənd) rayonundayıq. "Şişqaya" adlı dağ var, onu da ala bilsək, avtomatik olaraq Martuni (Xocavənd) bizimdir.

22.12.1993.

Səhər yeməyini təzəcə qurtarmışdıq ki, briqadanın kəşfiyyat vzvodunun (tağımının) komandiri kiçik zirehli maşınla yanımıza gəldi. Rütbəsi praporşik (gizir), adı isə Yaşar idi. Pəhləvan bədənli bu igid üçüncü il idi ki, vuruşurdu. Ətrafına yığdığı ər oğlanlarla dəfələrlə düşmən arxasına gedir və komandanlıq üçün istənilən məlumatı gətirirdi. Mən onunla ikinci dəfə idi ki, görüşürdüm. Nədənsə, elə ilk baxışdan xasiyyətimiz tutmuşdu. Mən onun xahişi ilə srağagün başımıza gələnləri danışdım. Mənim sözümü kəsmədən axıra kimi dinlədi. Sonra o planşetindən xəritəni çıxartdı və məndən öz xəritəmi göstərməyi xahiş etdi. Mən bir həftə bundan qabaq "kalqa" kağızına köçürülmüş xəritəmi ona verdim. O, diqqətlə mənim xəritəmlə özününkünü tutuşdurduqdan sonra bizim xəritənin 10-15 km sağa səhv olduğunu bildirdi. Mən rabitəçi Hüseynə təcili İsmayıl və Gülağanın yanımıza gəlməsini tapşırdım. 2-3 gün suyumuzun olmamasına baxmayaraq, vəlvələli Tahirmirzənin avtomaşın izlərindən yığılmış sudan qaynatdığı çaydan içdik. İsmayılla Gülağa gəlib çıxdılar. Sərvərlə Şamonu da çağırdım. Yaşar dedi:

– Qardaşlar, qarşımızdakı düşmən sayca az olsa da, çox hiyləgərdir. Həm də pozisiyada (mövqedə) bir-birindən 100-120 metr aralı xırda səngərlərlə (uzunluğu 5-10 metr) 2-3 erməni postda dayanır. Silahları ancaq PK (Kalaşnikov) pulemyotu və qumbaradır. Sizin xəritə, bilmirəm nəyə görədirsə, səhvdir.

Sonra o, öz xəritəsi ilə hər üçümüzün xəritəsində düzəlişlər etdi və dedi:

– Biz olduqca güclüyük, ancaq səriştəmiz azdır. Düşmən isə çox hiyləgərdir. Qarşı-qarşıya dayandığınız ilk döyüşdə mətanətli olun! Əsgərlərinizi də başa salın ki, düşmənin pulla satın alınmış ən güclü əsgərinin 2 gözü, 2 qulağı, 1 başı var, yəni bizdən fərqli heç nəyi yoxdur.

Yaşar getdi. Biz komandirlər bir-birimizə matdım-matdım baxa-baxa qalmışdıq. Axı nəyə görə ”Quba-Qusar batalyonu” məğlub olmalıdır? Düşmənə işləyən kimdir? Niyə bizi səhv xəritə ilə, səhv hücumlara göndərirlər?

Nə isə... Görək axırı nə olacaq?

25.12.1993.

Mən Sərvəri, Şamonu və III vzvodun (tağımın) Bəhram adlı komandirini yanıma çağırdım. Qarşıda gözlənilən hücumda necə hərəkət edəcəyimiz haqqında söhbət etdik.

26.12.1993.

Səhər $3^{00}$-da bütün batalyona hücum üçün həyəcan siqnalı verildi. “Kaftar-təpə” adlı yüksəkliyi almaq bizim batalyonun döyüş tapşırığı oldu.

Batalyonu son nəfərinə kimi bizim bölüyün tutduğu əraziyə yığdılar. Hətta arxadan aşpazları belə bizə qoşdular. İrəlidə III bölük, sonra II və arxada I bölük hərəkətə başladıq.

Kəşfiyyat vzvodu (tağımı) və kombat irəlidə gedirdilər. Bu dəfə zəncirvari yox, kolon (cərgə) halında, bir kilometrdən çox məsafədə irəliyə uzanıb gedirdik. Hava yavaş-yavaş işıqlaşırdı. Gizirim Abbasəli mənə çatdı və dedi:

– Komandir, bu gün mənim ad günümdür. Sizdən xəbərsiz hər ehtiyatımı görmüşdüm ki, günorta ad günümü səngərdə qeyd edək.

Mən onun boynunu qucaqladım və əvvəlcədən təbrik etdim:

– Abbas, Allah qoysa, erməni dığalarını "Kaftar-təpə"dən çıxaran kimi elə günorta orada həm qələbəmizi, həm də sənin ad gününü qeyd edərik.

Sözüm ağzımda qurtarmamış ermənilər bizi şiddətli atəşə tutdu. Özü də çox mütəşəkkil və intizamlı bir atəşə. Guya bizi çoxdan gözləyirdilər.

III bölük – kəşfiyyat və təsərrüfat vzvodlarının (tağımlarının) işi çox çətin idi. Bizim bölük yarıaçıqlığa düşmüşdü. Birinci bölük isə təpə arxasında təhlükəsiz yerdə idi.

Təcili uzanıb səngər qazmağa başladıq. Heç bir bölüyün və vzvodların (tağımların) əsgərləri özlərini itirməmişdilər.

Hamı bir nəfər kimi həm atışır, həm də səngər qazaraq briqadadan "irəli" hücum əmrini gözləyirdik. Əmr isə yox idi. Rabitəçim Hüseyn təcili qazdığı səngərə məni itələyib saldı. Özü üçün isə təzədən qazmağa başladı. Bizim bölük artıq atışırdı. Qumbaraatan Daşdəmirov Sadığa dağı göstərib, atmasını əmr etdim. Mərmi heç dağlara çatmamış göydə partladı. Təcili əmr etdim ki, avtomat və qumbaraatan silahlardan atəş kəsilsin. Yalnız PK pulemyotu ilə Nazimov Sabir gördüyü hədəfə az-az atsın. Bizdən 4-5 km arxada, mətbəxin yanındakı Zenit topumuz "dəqiq" işləyirdi. Mən radiostansiyadan istifadə etmirdim, ancaq qulaq asırdım. Çünki üç bölük, kombat, arxa və yeganə Zenit topu bir "çastotada" işləyirdi. Bizim danışığımız topa "nişan" deməyə mane olurdu.

Döyüş qanununa görə, topçulardan biri öz radiostansiyası ilə bizim aramızda olub, topu idarə etməli idi. Nədənsə, ləzgi balası Yaqub "bir az sola", "bir az sağa" və ya "irəli-geri" deyə topa nişan verirdi. O da onun sözü ilə atəş açırdı. Saat $8^{00}$-da ötürdü, amma əmr yox idi. Bu vaxt arxadan bizim üstümüzə güllə, III bölüyün üstünə isə tank mərmisi yağmağa başladı. Arxaya çevrildim. 1-1,5 km uzaqdan 40-50 qara paltarlı zəncirvari düzülüb üstümüzə gəlirdi. Təcili arxadan onların kim olduğunu soruşdum. Briqadadan bizi sakit etdilər ki, özümüzünkülərdir. Guya bizə köməyə gəlirlər.

Nə isə, 10-15 dəqiqədən sonra məlum oldu ki, tanklar da səhv atıblar.

İş işdən keçmişdi. Yenə arxamdan 4-5 nəfərin şinelin üstündə kimi isə sürütləyə-sürütləyə apardığını gördüm. Qışqırıb yaralının kim olduğunu soruşdum. Dedilər ki, bu, III bölüyün vzvod (tağım) komandiri Əlidir.

Əmr etdim ki, yaralı üçün iki nəfər bəsdir. Qalanları geri-səngərə qayıtsınlar. Çarəsiz qalıb səngərə qayıtdılar.

Ümumiyyətlə, müharibədə döyüşün gur vaxtında yaralını bəhanə edib, çoxları aradan çıxırlar. Ona görə də mən öz bölüyümə tapşırdım ki, kimliyindən asılı olmayaraq, yaralı üçün ən çoxu 2 adam bəsdir. Onların da qeyrəti varsa, yaralını arxadakılara verib, təcili döyüş yerinə qayıtmalıdırlar.

Saat $10^{00}$-u keçmişdi. Artıq üç tankımızı da gətirib bizdən bir kilometr arxada, təpənin dalında saxlamışdılar. Sonra ikisi xarab oldu. Yalnız Cəmil atırdı.

Arxamızdan III bölük və təsərrüfat vzvodunun (tağımının) uşaqlarının yaralı və şəhidlərini sürünə-sürünə təhlükəsiz yerə çıxarırdılar. Nə qədər dağlara diqqətlə baxsaq da it uşağı ermənini görə bilmirdik. O isə iriçaplı pulemyotlardan atəş açıb, bizi baş qaldırmağa qoymurdu. Bu vaxt Sərvər və Şamo qaça-qaça yanıma gəldilər. Sərvər:

– Komandir, briqada deyəsən bizi ələ salır. Bu nə döyüşdür? Bəs bütün batalyonların hücumu hanı?

Şamo:

– III bölüyün vəziyyəti çox pisdir. Onlar lap açıqdadırlar. Nə irəli, nə də geri tərpənə bilirlər. Erməni onları ovcunun içi kimi görürdü.

Dedim:

– Mən başımı itirmişəm. Biz əsgərik, əmri yerinə yetiririk. Gedin, uşaqlardan muğayat olun. Qoy dayanmadan səngər qazsınlar! Hücum olsa, əsgərləri bir yerə yığılmağa qoymayın. Erməni əks hücuma keçsə, səngərlərdən çıxmasınlar. Siz də çox o yan, bu yana qaçmayın. Ermənilərin snayperləri dəqiq işləyir.

Üzümü Sərvərə tutdum:

– Uşaqlarla tez-tez zarafat edin ki, çıxılmaz vəziyyətdə olduğumuzu bilməsinlər.

Getdilər. Ürəyim sıxılırdı. Elə bil nəfəsim təngiyirdi. Ömrümdə birinci dəfə özümü aciz hiss edirdim.

Saat $13^{00}$–da üç vzvodum (tağımım) birdən ayağa qalxdı. Kombat irəlidə, əsgərlər dalınca olduğumuz təpədən üzü aşağı cumdular. Rabitəçim və mən I vzvod (tağım) tərəfə cumduq. Axıra qalan 12-15 nəfərlə təpəni düşməyə macal tapmamış erməni gülləni dolu kimi üstümüzə yağdırmağa başladı. Sərvər III vzvodla (tağımla), Şamo isə II ilə artıq məndən 40-50 metr irəlidə, dağın ətəyində idilər. Qarşımdakı uca dağın başından uğultu ilə erməni tankı çıxdı. O, siqaret qutusu boyda görünürdü. Atəş səsindən qulaq tutulurdu. Tankın lüləsindən ağ tüstü çıxırdı. 2-3 saniyə sonra III vzvodun (tağımın) olduğu yerdə dəhşətli səslə mərmi partladı. Uşaqlarım pərən-pərən düşdü. Habilə qışqırdım ki, qumbaraatanla tankı atsın. Necə olsa, 100-150 metr irəli gəlmişdik. Atdı... Mərmi yenə tanka çatmamış göydə partladı. Erməni snayperi Habili gördü və dəqiq də nişan aldı. Düz ürəyinin üstünə əlini qoyan Habil yerə yıxıldı. Hüseyn gözümə dəymirdi. Sonra onun da qıçını tutub yerə uzandığını gördüm. Sərvərə qışqırdım:

– Uşaqları dağıdın! Tank çoxluq görən yerə atır.

Sərvər sola, Rövşən irəli, Şamo isə sağa qaçdı, əsgərləri də dallarınca. Tank artıq 3-4 mərmi atmışdı. Üstündəki iriçaplı pulemyotu aramsız olaraq işıqsaçan güllələrlə atırdı.

Bir mərmi düz mənim yaxınlığımda düşdü. Başımı əllərimin arasına qoyub uzandım. Səsdən qulaqlarım tutuldu. Özümə gəlib başımı qaldıranda ətrafımdakıların da mənim başıma yığıldıqlarını gördüm. Üstlərinə hirslə qışqırıb, 15-20 metr solda olan kiçik təpənin arxasına qaçdım. İki əlimi də ağzıma tutub kombata və özlərini itirmiş əsgərlərə qışqırdım:

– Tez təpə boyu, üzüaşağı qaçın!

Qışqırıq və inilti səsləri adamın beynini deşirdi. Sərvər və Rövşən qaçan istiqamətlərdə yerə yıxılıb-qalanları görürdüm.

Uşaqlar yaralı və şəhid yoldaşlarını arxalarına alıb dərə boyu üzü geriyə qaçmağa başladılar. Alçaq erməni 1-2 km uzaqlaşana qədər tank və pulemyotdan atdığı güllələrlə onları yola saldı. Mən dönüb ətrafımdakılara baxdım. 18-20 nəfər idilər. Özü də təkcə mənimkilər yox, başqa bölük və vzvodlardan (tağımlardan) da 5-6 nəfər var idi. I bölüyün əsgəri Yusifi PK ilə soluma, İbrahimi isə sağ tərəfimə göndərdim. Qalanlar avtomatla silahlanmışdılar. Tank öz alçaq niyyətini həyata keçirib gizləndi. İndi növbə bizə düşdü. Mərmi və güllələr bizim üstümüzə gəlirdi. Yanımdakılara cavab atəşi açmağı əmr etdim. Onsuz da mənası yox idi. Atdıqlarımız gedib çatmırdı. Həm də biz aşağıdan 1-1,5 km dik yuxarıda olan düşməni görmürdük.

30-40 dəqiqədən sonra döyüş dayandı. Düşmənin ancaq snayperləri tək-tək atırdılar.

Heç nədən xəbərimiz olmadığı halda, axşam saat $18^{00}$-a kimi gizləndiyimiz yerdə qaldıq. Hava qaralmağa başlayanda bir-birindən 30-40 metr aralı sürünə-sürünə əvvəl olduğumuz təpəyə-geriyə çıxmağı əmr etdim. 8-10 nəfər çıxandan sonra uşaqlar təkid etdilər ki, mən çıxım. Etiraz etdim. Lap axıra mən, İbrahim və Yusif qaldıq. Onlar axır ki, məni çıxmağa məcbur etdilər. Yeriməyə taqətim qalmamışdı. Elə bil aclıqdanmı, ya iki günün yuxusuzluğundanmı, ya da gözümün qarşısında balam, qardaşım kimi bildiyim uşaqlarımın qırıldığındanmı, gic kimi idim. Yuxarıya çatmağa 10-15 metr qalmış əsgərlərim Səməndər və Əfqan (Alıc-Digah) köməyə gəldilər və qollarıma girib qaçırmağa başladılar. Bölüyümdən sağ qalanlar yaralı və şəhidləri yola salıb bizim dalımızca qayıtmışdılar. Onların yanına çatan kimi su istədim, içməyə çalışdım, boğazımdan keçmədi:

– Deyin, kimə nə olub?

Səməndərin gözləri doldu.

– Sərvər ağır yaralıdır. Rövşən və Pərviz şəhid oldu, Firuz, rabitəçi Hüseyn, gizir Abbas qıçından yaralanıb, qumbaraatan Habil və Canəli isə yüngül yaralanıblar. Kamil də deyəsən, yüngül yaralanıb, Aqşin kontuziya alıb.

Elə bil başıma qaynar su tökdülər. Körpə uşaq kimi için-için ağlamağa başladım. (Xahiş edirəm, oxucularım məni qınamasınlar!) Ayağa qalxdım. Hamının gözü yaşlı idi. Əlimdəki avtomatı götürdülər. Qranat (qumbara) və patronları da kim isə aldı. Səməndər qoluma girdi. Briqadadan "Geriyə" komandası 3-4 saat bundan qabaq verilmişdi. Əvvəlki mövqeyimizə getməyə başladıq. 1-1,5 km-dən sonra tankımı gördüm. Cəmil və Elçin başlarını aşağı salıb oturmuşdular. Elə bil ürəyimi oxudular. Cəmil:

– Komandir, biz əlimizdən gələni etmişik. Mən bütün mərmilərimi atmışam. Elçinin əlləri isti gilizləri dəyişməkdən yanıb, amma yenə də Sizi müdafiə etmək üçün burada qalmışıq. Ermənin tankı T-72 və ya T-80 idi. Mən bizim T-55-lə üzbəüz ata bilməzdim. O, məni qabaqlayıb vura bilərdi. Yeganə atan biz olmuşuq. Qalan iki tank xarab olub.

Dedim:

– Cəmil, iki uşağım şəhid olub, çoxlu yaralım var. Niyə bizim ilk döyüşümüzü belə uğursuz etdilər? Niyə o biri batalyonlar hücuma keçmədilər? Hansı alçağın oğlu düşmənə işləyir?

Cəmil:

– Komandir, xahiş edirəm, ağlamayın. Mənim nəslim hərbçi olub. Babam daim deyirdi ki, komandir daşürəkli olmalıdır. Sizi həmişə bu gün səhərki və ondan əvvəlki günlər kimi görmək istəyirəm. Müharibənin öz qanunları var.

Cəmil bir növ haqlı idi. Ancaq bizi körpə uşaq kimi aldadıb, erməniyə təhvil vermək hansı qanuna uyğun idi?

Əvvəlki mövqeyimizə qayıtdıq. Özümü ələ alıb müdafiəni təşkil etdim.

Əsgərlərimi silahı ilə yoxladım. Yaralı və şəhidlərdən başqa, 10-12 nəfər də yox idi. Öz cəbhə yoldaşlarını səngərdə düşmənlə üzbəüz qoyub, yoxa çıxmışdılar. Şamoya məni gecə saat $2^{00}$-da oyatmağı tapşırıb elə səngərdəcə yatdım.

27.12.1993.

Əsgərlərimə qurban olaram. Gecənin sakit keçdiyini görüb məni oyatmamışdılar. Səhər $6^{00}$-da özüm oyandım. Şamo sol cinahda idi. Onu dincəlməyə göndərdim. Günəşli bir səhər açılırdı. Dünən başımıza gələnləri yadıma salanda bədənimdən bir üşütmə keçdi. Postları yoxlaya-yoxlaya Sərvərim, Pərvizim, Rövşənim, Firuzum, Abbasım, Hüseynim və başqa əsgərlərim haqqında fikirləşdim... Görəsən necədirlər? Şəhidləri rayona apardılarmı? Ailələrimiz nə vəziyyətdədir?...

Səhər $9^{00}$-da yemək və çay gətirdilər. Şamonu çağırtdırdım. Bir boşqabdan ikimiz yavaş-yavaş düyü sıyığını yeməyə başladıq. Üç gün idi ki, bir insan kimi isti çay və xörəyə həsrət idik, amma yenə də hamımızın boğazından yemək keçmirdi. Ətrafımıza əsgərlərin yığıldığını hiss etdim. Səməndər dedi:

– Komandir, bəlkə birimiz xəstəxanaya gedib, bir xəbər gətirək?

Mən guya eşitməmiş kimi dedim:

– Yaralılardan ən ağırı kim idi? Sərvərin huşu özündə idimi?

Sərvərin yanına birinci mən çatdım, – Səməndər dedi, – əlində qumbara ağzı aşağı uzanmışdı. Bir az geciksə idim, özünü partladacaqdı.

Şamo ilə bir-birimizə baxdıq. Bəli, mən, Sərvər və Şamo bir-birimizə söz vermişdik ki, düşmən əlinə düşməmək üçün lazım gəlsə, ürəyimizin üstündə gəzdirdiyimiz qumbaranı öz sinəmizdə partlatmalı idik.

Sağ olsun, Sərvər, – Səməndər dedi, – hələ hey əsgərlərin dərdini çəkirdi. Mənə köməyə gələn həmkəndlisi Canəliyə Rövşən tərəfi göstərib, onu tez aradan çıxarmağı tələb edirdi.

Əfqan:

– Rövşən güllə dəyən andaca şəhid olmuşdu. Pərvizin isə lap yanında tank mərmisi partlamışdı. Uşağı göyə qaldırıb yerə çırpmışdı. Firuz da qarışıqlıqda yerə yıxılıb qalmışdı.

Şamo:

– Abbasəlinin özündən xəbəri yox idi. İki qıçı qan içində olmasına baxmayaraq, Pərvizi çiyninə alıb beş-on addım atdı və sonra

dözə bilməyib yerə yıxıldı. Hüseynin qıçına PK gülləsi dəyib, mən onu güc-bəla ilə döyüşdən çıxardım.

Ürəyimi toxtadıb diqqətlə qulaq asdım. Səhər tezdən arxaya radiostansiya üçün göndərdiyim Əzizov Nadir sakitcə gəlib yanımda oturdu. Üzünə baxdım. Dedi:

– Komandir, Sərvər gecə rəhmətə gedib.

Qeyri-ixtiyari olaraq hamımız ayağa qalxdıq. Var gücümlə qışqırdım:

– Yox, ola bilməz!

Təcili radiostansiya vasitəsilə arxa ilə əlaqə saxladım. Xəbər düz çıxdı. Qalan yaralılarımdan xəbər bilmək üçün kombatdan səngəri tərk etmə xahişini etdim. İcazə verdi. Sürücüm Zakirlə Ağcabədiyə yola düşdüm. Xəstəxanaya girib qaça-qaça II mərtəbəyə qalxdım. Dəhlizdə bir yaralını iki tibb bacısı cərrahiyyə otağına tərəf aparırdı. Məndən bir az aralıda xəstə arabasını saxladılar:

– Bu əsgər sizi istəyir – deyə, mənə müraciət etdilər. Tez qaçdım. Firuz idi. Bu mərd dağlı balasını (Kələnov kəndi) heç belə gücsüz görməmişdim. O, məni tanıyıb tibb bacılarına çağırmağı xahiş etmişdi. Əyilib alnından öpdüm:

– Firuz, tez sağal, biz səni gözləyəcəyik!

Qurumuş dodaqlarını güclə tərpədib dedi:

– Komandir, özündən və uşaqlardan muğayat olun, bizim qanımızı yerdə qoymayın!

Həkim tibb bacılarını tələsdirdi. Mən uşaqlarımız olan palataya girdim. Abbası, Hüseyni, Habili, Kamili qucaqlayıb öpdüm. Yaraları ağır olsa da, həyatları üçün təhlükə yox idi. Palatanın küncünə yığılmış qumbara və gülləlləri Abbas mənə göstərib dedi:

– Biz bunlardan ermənini öldürməyə istifadə edə bilmədik. Xahiş edirəm, onları bölüyə paylayın, qoy uşaqlar bizim intiqamımızı alsınlar. Komandir, bölüyə mənim əvəzimə Nadiri (Zərqava kəndindən) gizir qoyun. Öz tələbkarlığı ilə sizi peşman etməz.

Uşaqlarla vidalaşdım. Hərbi sursatı götürüb səngərə tələsdik. Ermənidən hər şey gözləmək olardı.

Səngərə çatan kimi Şamo xəbər verdi ki, azəri ordusunun vertolyot və ağır texnikası biz gedəndən bombardman edir. Buna bizlərdə deyərdilər: ”Toydan sonra nağara”. Nə olardı ki, elə dünən bizə bu köməyi verərdilər. Nə isə, çox güclü “generallarımız” var. Yazıq Azərbaycan! Ona görə yazıqsan ki, dövlətimizin dişlə-dırnaqla qazandıqlarını maymaqbaş komandirlər havaya sovururlar!

28.12.1993.

Yavaş-yavaş irəliləyirik. Erməni də yavaş-yavaş çəkilir. Onlarınkı texnikadır. Üstümüzə ancaq tank, ya BMP (Piyadaların Döyüş Maşını) ilə gələ bilərlər. Aralarında bir kişi yoxdur ki, üzbəüz gəlsin, mən də Kamuşkayla Məmmədin xəcalətindən çıxıb hərəsinə bir qulaq gətirim.

Saat $2^{00}$-dan axşam $6^{30}$-a kimi atəş altında 20 nəfərlə dərədə qaldım. Qaranlıq düşəndə mühasirədən çıxdım. Allah saxladı.

29.12.1993.

Adi səngər həyatı keçirirdik. Su işimiz çətin idi. Havalar soyumağa başlamışdı. Gecələr temperatur 3-4 dərəcəyə çatırdı. Evdəkilər bizi görsələr, tanımazdılar. Üz-gözümüz saqqal və kir içində idi. Bit-birə dinclik vermirdi. Uşaqlar nəm torpaqda oturub-durduqlarına görə, çoxunun böyrəyi ağrımağa başlamışdı.

Cəbhə həyatının ikinci ayını başa vururduq. Ailələrimizin dolanacağı çoxunu narahat edirdi. Maaşdan xəbər yox idi. Amma tankçılar almışdılar. Bizə isə guya Müdafiə Nazirliyindən əmr verilməmişdi. Heç olmasa, evdən bir xəbərimiz olardı.

Ömrümdə ikinci dəfə idi ki, Yeni ili ailəmin başında keçirməyəcəkdim. Əsgərlərimin təklifi ilə kimin cibində nə qədər pul qalmışdısa, topladıq. Təzə gizirimız Qədimov Nadiri kəndə (Qaradolaq) göndərdik. Sağ olsun, kənd əhli! Ümumiyyətlə, bizim Quba-Qusar batalyonunun Ağcabədi və Beyləqan rayonlarının arxamızdakı kəndlərində çox hörməti vardı. Xüsusilə ştab (qərargah) və anbarlarımız olan Qaradolaq kəndində.

Kolxozun direktoru Xudu müəllim bir qoç və 20 litr çaxırı Nadirə pulsuz verərək II bölüyü Yeni il münasibətilə təbrik etmiş və bildirmişdi ki, nə qədər ki, Quba uşaqları səngərdədirlər, bizim heç nədən qorxumuz yoxdur. Nə çətinliyiniz olsa, bizə deyin. Kömək etməyə hazırıq.

Mən Nadirə tapşırdım ki, arxaya gedəndə Xudu müəllim və kənd əhli ilə söhbət etsin, uşaqlardan hər gün kəndə üç-üç, beş-beş göndərim, onların yuyunmasını təşkil etsinlər.

Axşamüstü düşmən tərəfdən görünməyən yerdə od qaladıq və əsgərlərin avtomatlarından çıxardığımız şompul çubuqlarda kabab çəkdik. Əsgərləri kiçik qruplarla çağıraraq yarım stəkan çaxır və bir şiş kabab verdim. Sonra boyunlarını qucaqlayaraq Yeni il münasibətilə təbrik etdim.

Ümumiyyətlə, birinci uğursuz döyüşümüzdən sonra, əsgərlərə əmrimi komandir kimi hökmlə yox, ata və ya qardaş kimi verirdim. Dünən xəbər gəldi ki, Firuz cərrahiyyə əməliyyatından sonra rəhmətə gedib.

Əcəb də vuruşuruq... Hələ bir erməni əsgəri görməmiş bölükdən 4 nəfər şəhid olmuş, 10 nəfərə yaxın isə yaralanmışdı.

Birinci döyüşdən sonra Şamo ilə mən demək olar ki, gecələr yatmırdıq. Postları yoxlayır və əsgərləri yığıb ermənidən intiqam almaq planını cızırdıq.

Gecə saat $24^{00}$-da bizim batalyondan kimisi göyə, kimisi isə 3-4 km uzaqda olan erməni tərəfə avtomatlardan atəş açdılar. Bununla da biz 1994-cü ilə qədəm qoyduq.

Erməni isə səsini çıxarmadı. Amma gecə saat $1^{00}$-da (Moskva vaxtı ilə $24^{00}$-da) PK pulemyotlardan işıq saçan güllələrlə xaç şəkli çəkdilər və 1994-cü ili yazdılar.

Ürəyim tab gətirmədi. Vzvodlarımdan (tağımlarımdan) saat $12^{00}$-da mənasız yerə güllə atmış əsgərləri yanıma çağırtdırıb dedim:

– Nə qədər ki, qarşımızdakı düşməni zəif və aciz hesab edəcəyiksə, o qədər də uduzacağıq. Erməni sübut etdi ki, bizdən həm ağıllı, həm də güclüdür. İndi isə, səngərlərinizə gedin və öz

hərəkətlərinizi qiymətləndirin! Mənim sizə sözüm yoxdur. Batalyonun birinci döyüşdəki itkisi dəqiqləşdirilmişdi. 6 şəhid və 30 yaralı. Ağır itki idi.

Bu yaxınlarda "Astara"nın piyada bölüyünün əsgərlərinin formasını (xüsusi hərbi geyim) gördüm. Başlarında dəbilqə, bellərində səngər qazmaq üçün xırda bel. Nə isə, hər şey.

Gülməli də olsa, bizdə olan bellərin sapı 1,5 metr olan adi yer belləyən idi. O da ki, 3-4 nəfərə bir ədəd. Dəbilqəni isə birinci dəfə idi ki, görürdük. Silahları təzə idi.

31.12.1993.

Dünən sulu qar yağmağa başladı. Palçıq dizə çıxırdı. Postlara gecə səngərlə gedib-qayıdanda üz-gözümüz, üstümüz sarı gil ilə örtülürdü. Hava indi açılmağa başlamışdı.

Maraqlı da olsa, burada palçıq və ya torpaq bir gün ərzində tamamilə quruyurdu.

Briqadadan Sadiq adında kapitan gəldi. Biz komandirləri bir yerə topladılar. O bildirdi ki, qarşıdakı dağı almaq üçün yenidən hücuma keçməliyik. Nəyin bahasına olursa olsun, "Kaftar-təpə" alınmalıdır.

Biz tələb etdik ki, hücum planlı və mütəşəkkil olsun. Dağın zirvəsində oturub bizi ovcunun içində görən erməniyə qalib gəlmək bizim üçün çətindir. Dağlar minalıdır. Tank və artilleriya 3-4 km arxadan bizə heç bir kömək etmir.

Kapitan da söz verib getdi. Şəhid olan yoldaşlarımızı dəfn etmək bəhanəsi ilə rayona qaçanların əksəriyyəti qayıdıb gəlmişdi. Sərvəri öz kəndlərində, Rövşəni, Pərvizi, Nəbini Quba şəhidlər xiyabanında, Firuzu isə kəndlərində dəfn etmişlər. Onlar həm də ailələrimizə baş çəkmiş, məktublar gətirmişdilər.

Mən onlara ciddi acıqlandım. Çünki onlar özləri də bilmədən bizi az qüvvə ilə səngərdə düşmənlə üz-üzə qoymuşdular.

Ailədən gələn məktublar ürəkaçan deyildi. Maddi cəhətdən korluq və sıxıntıda olmalarına baxmayaraq, yenə də bizim dərdimizi

çəkirdilər. Açıq yazmasalar da hiss edirdik ki, qohum-qonşunun etdiyi xırda-para kömək bizi ailədə əvəz edə bilməzdi.

İmkanlılar isə susurdular. Pul gücünə nə uşaqlarını cəbhəyə buraxır, nə də azdan-çoxdan əsgər ailələrinə kömək edirdilər.

03.01.1994.

Yenə səhər $03^{00}$-da 36 nəfər (6 şəhid, 30 yaralı) itirdiyimiz "Kaftar-təpə"ni almağa yola düşdük. Birinci döyüşdən ürəyi sınan, qorxan uşaqları döyüşə aparmaq çox çətin idi. Batalyonun 10-15 faizi qarışıqlıqdan istifadə edib, şəhidləri dəfn etmək bəhanəsi ilə evə qaçmışdılar.

Səhər saat $6^{00}$-da artıq tanış olduğumuz (qırıldığımız) yerə çatdıq. Gözümüz qorxduğu üçün mən sol və sağımdakı bölüklərdən dayanmağı xahiş etdim. Həm də artilleriya başlamamış irəli getməyin heç bir mənası yox idi.

Bu vaxt bizim (dağın) tərəfdə tanklar göründü. I bölük komandiri ratsiyanı alıb, (ikimizə bir dənə idi!..?...) 5 nəfərlə məndən 100 metr sola, təpəyə sürünüb, artilleriyaya (yenə yeganə Zenit topu...) navodka (istiqamət) verməyə başladı. $12^{20}$ dəqiqədən sonra gülməli də olsa, məlum oldu ki, tanklar bizimdir və dağı "Astara" tutub. Yenə də kobud səhv. Deməli, "Quba" "Astara"ya hücuma keçib...?

Nə isə, Gülağa və mən uşaqlara "irəli" komandası verdik.

Artıq saat 8-ə işləyirdi. Bu yaxınlarda bizim batalyona daxil olan "Zaqatala" batalyonu dağa çıxmağa başladı. Mən və Gülağa 50-60 nəfərlə sağdan təpəyə çıxmaq istədik (hündürlüyü 200-500 metr). Düşmən təpəni vermək istəmirdi. Ona görə bütün artilleriyasını işə saldı. Alçaqlar ən çox qadağan olunmuş iynəli mina atırdılar. Artıq ratsiya ilə itkilərin olduğunu eşitdim...

Biz dağa çıxmayıb, aşağı dərə-təpə ilə sağdan irəliləməyə başladıq.

Ermənilər bizim onların arxasına keçdiyimizi görüb silahlarını bizə çevirdilər. Mən, İlham və Tahir (Vladimirovka kəndindən)

gizlənməyə yer tapmadıq. Mina düz üçümüzün ortasına düşdü. Özümə gələndə birinci növbədə uşaqları axtardım. İkisi də sağ idi. Allah üzümüzə baxdı. Tez durub irəli cumduq. Ratsiya ilə danışmaq, vəziyyəti bilmək istədim. Susurdu. Ümumiyyətlə, üç dəfə idi ki, çətin anlarda ratsiya susurdu. "Kaftar-təpə" solumda, 300-500 metr arxada qalmışdı. Qorxdum ki, dağdakı uşaqlarımız bizi erməni bilib qırsınlar. Müharibədə belə şeylər adi hesab olunurdu. Ona görə də mən bölüyü saxladım və müdafiəyə keçməyə əmr verdim. Gülağa məndən 100-150 metr qabaqda mənim gəlmədiyimi görüb dayandı. Canlı rabitəçi göndərib mənim təcili irəliləməyimi tələb etdi. İki dəfə hətta məni qorxaq adlandırdı. Mən də xəbər göndərdim ki, bizə "Kaftar-təpə"ni tutmaq əmr olunub. Biz də ondan o yana getməməliyik. Mühasirəyə düşə bilərik...

Doğrudan da erməni artıq bizə fikir vermirdi. "Astara", "Zaqatala" və "Quba"nın üç bölüyünün (təpəyə) 3 tank, 1 BMP və 100-dən artıq canlı qüvvəsi ilə bizim solumuzdan hücuma keçdi.

Ürəyi 27.12.1993-cü il tarixindəki qırğının intiqamı ilə yanan oğullarımız erməniyə elə zərbə vurdular ki, gəl görəsən. Biz soldan, onlar üzbəüz. Düşmən canlı qüvvəsi ilə dərələrdə qaçmağa başladı. Bir erməni tankı isə dəli kimi düz uşaqların üstünə gəldi. Sən demə, erməni səhər təpəni bizə verib qaçanda əvvəllər bizim olan (azəri ordusu "Beyləqan" batalyonu) Zenit topunu əzməyə gəlibmiş.

Topa çathaçatda uşaqlar mərmiatanı işə saldılar. Erməni tankı ancaq onun bir təkərini əzə bildi. Tankı uşaqlar vurmuşdu, ancaq o dayanmırdı. Nəhayət, gic olmuş halda hərəkət etməyə başladı və dayandı. Amma bizdən uzaqda sən demə, bizim mərmiatanın mərmiləri "protivopexotnı" olub. O vaxt kimin ağlına gələrdi ki... Həm də tanka bronijilet geyindirilmişdi.

Saat $11^{00}$-da artıq mən və Gülağa təpəyə çıxdıq. Şadlığımızdan bilmirdik nə edək. Amma erməni qaçanda qoyduğu səhər yeməyi "əla" idi. Suda bişmiş makaron (ətsiz). Kül onların başına...

Bizdə, əvvəllər mənim qeyd etdiyim kimi, heç bir beton səngər yox idi. Adi səngər idi. Amma şəxsən mən, bir komandir kimi, çox

şeyi öyrəndim. Alçaqlar düşmən də olsa, ağıllı və hərbçi təlimi görmüşdülər. Səngərin eni bizdəki kimi 1,20-1,5 metr yox, əl ilə qazılmış 60 sm idi. Səngərə snaryadın düşmə eninin ehtimalı az idi. Özü də bizim səngər kimi cəbhə boyu yox, 3-5 metr uzunluqda 30-50 metrdən bir idi. Əla mövqedə dayanan erməni 15-20 adamla bizim 300-400 nəfərə cavab verirmiş. Deməli, gündüz və ya səhər açıq hücumlar bizi qırğına aparır. Taktikanı dəyişmək lazımdır. Erməni azsaylı olduğu üçün mütləq qaçacaq. Amma 2-3 saat sonra arxadakı güclü qüvvə ilə hücuma keçənəcən bizim arxada tank, top, snaryad, nə isə, hər şey və canlı qüvvə təpədə yerini tutmalıdır.

Erməni ratsiyada bizi tərifləyir. Deyir: – Ara, molla, molodes. Daha tankdan qorxmursunuz və s. Sən demə, əvvəllər bir tank görməklə əsgərlər qaçıb çölə səpələnərmiş. Onlar da bir-bir dənləyirlərmiş. Nə isə... Halal olsun Qubanın dağ uşaqlarına (Zərqava, Güləzi, Xınalıq və s.)! Qorxu nədir bilmirlər. Halal olsun! Erməni bizi spetsqoşun (xüsusi qoşun) sayır, çünki ratsiya ləzgi, tat və s. xınalıq dillərində danışır.

İndi əmin olduq ki, biz birləşsək, erməni tab gətirməyəcək.

Bizə hücum əmri gəldikdə deyirdilər ki, bütün cəbhə boyu hücum olacaq. Ancaq sol-sağımız hərəkət etdikdə biz tamaşa edirdik və ya əksinə.

05.01.1994.

"Astara" batalyonunu həmin təpədən çıxardılar. Mən bu batalyonun komandirləri ilə tanış olduqda fikir verdim ki, bölük komandirləri rütbələrinə görə yox, bacarıqlarına görə təyin olunmuşdular. Məsələn, 05.01.1994-cü il tarixində "Kaftar-təpə"ni tutan ilk komandir sıravi Maarif olub. Müavini isə ondan mərdliyinə görə geri qalmayan pəhləvan bədənli, hündürboylu leytenant idi. Batalyondakı nizam-intizama söz ola bilməzdi.

Mənə bir şey də narahatlıq gətirirdi ki, "Astara"nın çoxlu texnikası (tank, BMP, BTR, top, pulemyot, mərmiatan və s.) var. Bizim isə ancaq avtomat, 5-6 ədəd nişangahı olmayan minaatanımız.

Amma qarşımıza döyüş tapşırığı qoyulanda onlarla eyni qoyulurdu. Soruşanda kobudcasına cavab verirdilər ki, get ermənini öldür, sən də silah əldə et. Adi dəmir kaskaların olmamasına görə, adam hücumdan müdafiəyə keçəndə bilmirdi başını hara soxsun...

Təpəni "Zaqatala"nın I, II, III bölükləri arasında bölüşdürüb müdafiəni təşkil etdik. Yüz erməni qoşunu gəlsə də, bizi əzə bilməzdi. Hücumda gücümüz olmasa da müdafiəyə mərmi ilə də dayana bilərdik.

06.01.1994.

Qarşımızda yeni təpələr silsiləsi var. Bu təpələrin ən vacibi 472 və "Şişqaya" idi. "Şişqaya" ermənilərin ən vacib hərbi bazası idi. Üç ilə yaxın müddətdə bu dağ ancaq 5-6 saat müddətində bizim ola bilib.

Əgər "Şişqaya" alınsa, Martuni (Xocavənd) şəhər mərkəzi, Əmrallar, Kuropatkino və s. çoxlu yaşayış məntəqələri avtomatik bizim olurdu.

09.01.1994.

Guya solumuzda "Prişib", sağımızda isə ("Şişqaya" altında) "Astara" və sonra Cəlilabad-Binəqədi dayanmışdı. Gecə saat $1^{00}$-da məni və başqa komandirləri I bölüyün mərkəzinə yığdılar. Briqadadan yemək-içməkdən üz-gözləri şişmiş 2-3 zabit də gəlmişdi. Əmr olundu ki, "Üçtəpə"yə səhər $6^{00}$-da hücum edib almalıyıq.

İsmayıl, mən və Gülağa etiraz etdik. Düzdür, hərbidə belə şey olmaz. Ancaq 100 faiz bilirdim ki, biz: 1-ci: hücum batalyonu deyilik; 2-ci: küçədən, işdən tutulub yığılan bu döyüşçülərlə istənilən düşmənin qabağını kəsmək, günlərlə mühasirədə vuruşub dözmək olar. Ölərlər, ancaq təslim olmazlar. 3-cü: Biz irəliyə, hücuma gediriksə, bəs 30-40 əsgərin qanı bahasına alınan bu təpəni kim qoruyacaq? Əgər erməni bizim əsgərləri buraxıb sağdan dərəyə (çüxura) düşməyimizdən xəbər tutub irəliləsə, 1 saata Ağcabədi-Beyləqanın onların əlində olacağına şübhə qalmırdı; 4-cü: Erməni elə naşı deyil ki, dağ ətəyini minalamamış olsun.

Hamımız minada qırılacağıq; 5-ci: erməni ilə ara məsafəmiz 1,5-2 km-dir. Bəs biz niyə göz-gözü görməyən gecədə düzünə yox, 6-7 km dolama yolla getməliyik? Gülməli də olsa, 4-5 km gəzintidən sonra fırlanıb yenə bizim səngərdən 300-400 metr aralı dərədən təyin olunan yerə getməliyik; 6) Qeyd etdim ki, gecə göz gözü görmür. Özümdən 5-6 metr qabaqdakı adamı görmədiyim halda, mən (komandir) nə bilim hara gedirəm? Aşağıdan baxanda bütün təpələr bir-birinə oxşayır.

Nə isə, bizi hərbi dövrün qanununa əsasən güllələməklə hədələdilər. Çox danışan və sual verən komandirlərin adlarını yazıb götürdülər.

11.01.1994.

Şəhid olanlarımızın və yaralılarımızın intiqamını alçaq düşməndən aldıq.

Yanvarın 5-də alaqaranlıqda "Astara", "Zaqatala" və bizim batalyon hücuma keçdi. Yağış kimi yağan top və pulemyot gülləsi altında ucu-bucağı görünməyən dağa dırmaşdıq. Qurban olduğum, saxlayanda, saxlayır. İki mərmi dalbadal yanıma düşdü. 1-2 uşaq yaralandı. Mən isə yüngül kontuziya aldım.

Məndə siyahı üzrə 93 döyüşçü olmalıdır. Birinci döyüşə qədər 81-i yanımda idi. 4 şəhid və 7 yaralını o vaxt itirdim. İndi 30-35 kişi oğlu ilə qalmışam. Yüz igidə dəyərlər. Onların siyahıları həmişə cibimdədir. Sağlıq olsa, onların necə igid olduqları haqqında çoxlu sözlər deyəcəm. Şəhid və yaralılarımızı elə bil Allah yaxşı olduqlarına görə seçib apardı.

13.01.1994.

Bu gün rayondan "kolonna" (maşın karvanı) gəlib. Prokuror Əli müəllim, Qədir müəllim və s. yoldaşlar da gəldi. Bizi video kassetə çəkdilər. Az da olsa, ürəyimi boşaltdım.

15.01.1994.

Gecə $2^{00}$-da komandirləri yığdılar. İndi briqadadan 30 nəfərə yaxın rus “nayomnik” (muzdlu) gətirmişdilər. Guya onlar “Üçtəpə”ni ermənidən alıb bizə verəcəkdilər. Üzdən vağzalda yükdaşıyanlara oxşasalar da çox əla silahlanmışdılar. Səssiz atan pistoletlər, “noçnoye videniye” (gecə görüntüsü), desant avtomatları və s. Hamısı sərxoş idi.

Biz razılaşdıq. Kombat Şahin məni xozvzvoddan (təsərrüfat tağımı) və xəstələrdən ibarət 30-35 nəfərlə, düşmən arxamıza keçməsin deyə, yerimizdə saxladı. Öz yerimə müavinim leytenant Şamonu təyin etdim. Şamoya tapşırdım ki, bir təhlükə olsa, ratsiya ilə məni mütləq köməyə çağırsın. Ona qurban olum, onsuz da mənim yeriməyə taqətimin olmadığından xəbərdar idi. Köhnə yaram (bud sümüyündə) məni bu axırıncı həftə çox incidirdi...

Səhər saat $8^{00}$-da ermənilər mənim olduğum səngərləri minomyot (minaatan) və tanklardan atəşə tutdular. Biz səngərlərdə oturub qəlpələrdən qorunurduq. Bizim minomyotçular (minaatanlar) Bayrampur İbrahimin komandanlığı altında ermənilərə layiqli cavab verirdilər.

Mənim olduğum səngərə bir adam tullandı. Bu, briqada komandiri mayor Qasımov idi. Özündən çox razı idi. Məni görüb dedi:

– Sən niyə gecə hücuma getməmisən?

– Mən kombatın əmri ilə olduğumuz yeri müdafiə edirəm, – dedim.

O, kobud-kobud:

– Siz qorxaqsınız – deyəndə, özümü ələ alıb təmkinlə cavab verdim:

– Komandir olsan da, təhqir etməyə haqqın yoxdur. Əgər şəxsən mənim qorxaqlığıma şübhən varsa, sübut et və güllələ. Sonrası da əgər biz bu səngərlərdə indi olmasaydıq, erməni hücuma gedənləri çoxdan mühasirəyə almışdı.

Üstümə xoruzlanaraq:

– Sən burda komandirlik etmə! Mənəm komandir. Son nəfərinizə qədər ölməlisiniz!..

Mən şəstlə:

– Öləndə kişi kimi ölərik. Biz ölməyə yox, öldürməyə gəlmişik, – dedim.

Nə üçünsə, özü ilə gətirdiyi 35-40 nəfər qarapaltarlı dəstəsini götürüb getdi.

Günorta xəbər aldım ki, bizim hücum baş tutmayıb. Ruslar sərxoşluqdan ayılan kimi uşaqları təpənin altına aparıb və deyiblər ki, “Vperyod” (irəli).

Hava açılmamış ruslar geri qayıdaraq heç kimə demədən çıxıb gediblər. Bizimkilərə isə briqadadan əmr gəldi ki, təpəni almasalar, geri gəlməsinlər.

Artıq hava açıldıqdan sonra uşaqlar (100-ə yaxın) mühasirə vəziyyətində ac-susuz təpəyə sığınıb qalmışdılar. Ermənilər AKS (kalaşnikov avtomatı) və snayperlərdən istifadə edərək uşaqları qırmaq istəyirdilər. Artıq yaralıların olması haqqında da xəbər verilirdi...

Saat 14-15 radələrində artıq ermənilər bizə atmırdı. Prokuror Əli müəllimlə Qədir müəllim müşayiətçilərlə bizim olduğumuz təpəyə gəldilər.

Mən indi başa düşdüm ki, onları niyə geri – Qubaya getməyə qoymayıblar.

Gecə bizi mənasız qırğına verib, yardım gətirən maşınlarla meyitləri rayona göndərəcəkdilər.

Məni çağırdılar. Prokuror Əli müəllim:

– İsmət, briqada komandiri dedi ki, sən xəyanətkarsan. Özün də döyüşdən qaçıb, burada, səngərdə gizlənmisən. Qubalıların başını aşağı edirsən.

– Əli müəllim, mən komandirimin əmrini yerinə yetirirəm. Briqada komandirinin üzünü mən bu 4 ayda üç dəfə, əsgərlər isə bir dəfə görüblər. Bir də ki, briqada komandirinin günorta çağı 250-300 nəfəri 200-400 metr yüksəklikdəki erməninin qabağına çıxarmağına, (sırf hərbiçi olmasam da) bizi qırğına aparan maymaq döyüş tapşırıqlarına öz etirazımı bildirirəm. Mən də komandirəm. Tabeliyimdə olanları qırğına verə bilmərəm. Sonrası, bizim batalyon hücuma getməlidirsə, döyüş tapşırığı yazılı əmrlə verilməli, kom-

bat və qərargah rəisi batalyonun iştirakı ilə plan hazırlamalıdır. O isə quru cümlə ilə, barmaqla təpəni göstərib bizi hücuma göndərir. Yerinə yetirdiyimiz döyüş tapşırıqları və vurduğumuz texnika başqalarının adına yazılır. Qaldı ki, burada gizlənməyimə, yenə də deyirəm, Sizdən 1 saat qabaq düşmən bu səngərləri 4-5 saat hər cür silahdan atəşə tutmuşdu. Elə Sizin heç bir maneə olmadan bu zonaya buraxılmağınızın özü də təxribatdır. İstənilən saniyədə atəş altına düşə bilərsiniz. İndi batalyon düşmənin atəşi altında uzanıb qalıb. Yaralıların olduğu haqqında xəbər veriblər. Adımıza tonlarla ərzağın gəlməsinə baxmayaraq, 2 gündür ki, acıq...

Mən onlara çox söz deyə bilərdim, amma nə faydası.

Bizim rayon nümayəndələrinin cəbhə xəttində olduğunu görüb, yemək gətirdilər, ancaq kimin üçün?..

Qıçımın şiddətli ağrısına baxmayaraq, Şamoya ratsiya ilə bildirdim ki, su və yemək götürüb onların yanına gəlirəm. Şamo qəti etiraz etdi.

70-80 nəfər üçün bu axsaq qıçla nə götürə bilərdim ki?

Sıravi İbrahim (Vladimirovka kəndindən) əsl qəhrəmanlıq göstərib odeyala çörək və tuşonka bankaları yığıb arxasına götürdü. Erməni bütün yol boyu bizim ikimizi atəş altında saxladı. Xoşbəxtlikdən salamat qurtardıq.

Üçtəpəyə baxanda adamı dəhşət bürüyürdü. Çünki, buradan hücuma keçmək açıq-aydın ölüm idi. Buradan bir nəfər də sağ çıxa bilməzdi. Axı bizim avtomat-pulemyotdan başqa nəyimiz vardı?

16.01.1994.

Gün çıxıb. Yaxşı ki, 2 gün yağış yağdı. Üz-gözümüz, paltarımız palçıq içində olmasına baxmayaraq, az da olsa yorğunluğumuz çıxdı.

Uşaqlara silahları təmizləməyi tapşırmışam. Haqqına desək, güllə və qranat (qumbara) boldur. Gün çıxıbsa, deməli, axşam yenə irəli göndərəcəklər. Bütün bölüklərdə əsgərlər bu mənasız hücumlara son qoymağı xahiş edirlər.

17.01.1994.

Yenə də mənasız hücumlar. Dünyadan xəbərsiz. Nəinki dünya, heç olmasa, 500 metr sağ-solumuzdan xəbərimiz olsa idi... Evdən gələn məktublar və xəbərlər lap biabırçılıqdır. Guya biz qorxağıq, vuruşmuruq. Guya "Astara" və "Prişib" batalyonları ilə mübahisəmiz düşüb, silahlı toqquşma olub və s. Bu xəbərlər evdə ailələrimizi, burada isə bizi əzir, sındırırdı. Lakin biz başa düşürdük ki, məkrli qüvvələr yeni yaradılan və möhkəmlənən ordumuzu gözdən salmaq, əhali arasında çaşqınlıq, əsgər ailələrində narazılıq yaratmaq niyyətindədirlər. Vətənin mərd oğulları bu şayiələrə uymamış, çətinlikləri mərdliklə dəf etmişlər.

"Astara" və "Prişib" batalyonları bizdən (Quba-Qusar, Cəlilabad, Binəqədi) fərqli olaraq çoxlu döyüş təcrübəsi olan batalyonlar idi. Həm də çox cavan idilər. Nizam-intizama söz ola bilməzdi. Silah və texnikaları müasir idi. Briqadanın kəşfiyyat vzvodunun (tağımının) komandiri Yaşar adında praporşik idi. Milli qəhrəman adını belələrinə vermək lazımdır. Hündür, bədənli, kürəkli bu oğlan istənilən vaxt, istənilən zaman erməninin arxasına öz dəstəsi ilə keçir, 5-10 erməni öldürüb, lazımi xəbərlər gətirirdilər. Heç yadımdan çıxmaz... birinci hücumumuz başa çatandan sonra Yaşar mənim yanıma gəldi. Mən İsmayıl (III bölük) və Gülağanı (I bölük) çağırdım, Yaşardan isə qarşımızdakı düşmən, onun səngərləri və qarşıdakı təpələr haqqında məlumat xahiş etdim. Söhbətimizin axırında o məndən xəritəni istədi. Adi kalka kağızında qələmlə işlənmiş xəritəni ona verdim. İsmayıl və Gülağadakı xəritələr də mənimki ilə eyni idi. O baxıb hirsləndi. Xəritədə olduğumuz yerlə qarşıdakı təpələr sağa-sola 5-6 km səhv idi. Guya biz qarşıdakı təpəni alsaq, Kuropatkino yaşayış kəndini görəcəyik. O kənd isə bizdən 7-8 km sağda idi və sairə...

Biz bu mərd talış balasının köməkliyi ilə xəritələrimizdə dəyişiklik apardıq. Bu düzəliş olunmuş xəritə onlarla əsgərimizin həyatını xilas etdi.

"Astara" batalyonunu ən ağır yerə – Şişqaya istiqamətinə göndərmişdilər. Qanlı vuruşmalar gedirdi. Qayanın yarıdan çoxunu zəbt etmişdilər. İtkiləri də, öldürdükləri də az deyildi.

“Prişib” batalyonu isə solumuzda - 472-nin sol düzənliyində idi. Onlar da “Astara” batalyonundan geri qalmırdılar. Amma irəliləmək çox çətin idi. Ermənilər bütün qüvvələrini bu iki batalyona qarşı qoymuşdu. Alçaqların kəşfiyyatı çox dəqiq işləyirdi. Cəbhə satqınla doludur. Ona görə də istənilən hücumumuzdan erməni xəbər tuturdu. Özbaşına, arxa briqadanın xəbəri olmayan kəşfiyyat və xırda hücumlar çox uğurlu keçirdi. Həm də rabitə sarıdan bizi briqada elə tələyə salmışdı ki, özümüz öz dilimizlə ermənini hücumumuz haqqında xəbərdar edirdik. Bu rabitə haqqında ayrıca yazacağam. Görək axırımız nə olacaq...

Talış uşaqları ilə söhbət etdikdə ləzzət alırdıq, çünki ləhcələri çox şirin idi. Onlar və ümumiyyətlə, irəlidə vuruşan bütün batalyonların komandir və əsgərləri arasında qardaşlıq münasibəti var idi. Təxribat xarakterli xəbərləri yayanlar isə bizi atıb evə qaçan, kişilik və mənliyi olmayan alçaqlar idi. Evə qaçmalarına bəraət qazandırmaq üçün belə şayiələr buraxırdılar. Düzdür, biz çox əziyyət çəkirdik. Soyuq, yağış, palçıqlı səngər, aclıq və yuxusuzluq. Amma döyüş meydanını atıb qaçmayan igidlər dözdülər. Evdən təntənə ilə çıxıb könüllü olaraq batalyona yazılanda bu əziyyətlərə tab gətirə biləcəyini fikirləşməliydi. Nə isə...

19-25.01.1994.

Bu gecə deyəsən, doğrudan da hücuma gedəcəyik.

Ümumiyyətlə, indiyə kimi 20-yə yaxın şəhidimiz və 60-65 yaralımız var. Əvəzinə isə bizə əsgər, zabit göndərilmirdi.

26.01.1994.

27.01.1994-cü il tarixində gecə saat $2^{00}$-da komandirləri yığdılar. Yarı hədə, yarı əmr formasında başa saldılar ki, “Astara” və “Prişib” xeyli irəliləyib. Biz bu gün səhər (yenə səhər?) 472 və 433-ü almasaq, güllələnəcəyik. Briqadanın zampoliti (siyasi işlər üzrə müavini) döyüşə başçılıq edəcəkdi. II və III bölük, yəni mən və İsmayıl 472-yə, “Zaqatala” bölüyü və I bölük (Gülağa) 433-ə hücuma

keçməlidir. Sonra əlavə etdi ki, briqadadan göndərilən praporşik mənim və İsmayılın hərəkətlərinə nəzarət edəcək. İkimiz də qəti etiraz etdik. Bizi hədələyib dedilər ki, briqada komandirinin əmrini yerinə yetirməsəniz, güllələnəcəksiniz.

Mən və İsmayıl adama olan-olmaz 50 nəfərimizi yığmağa başladıq. Əsgərlərin yarısı xəstə olsalar da, gəldilər. Əmr belə idi ki, kim arxada qalsa, güllələnəcək.

Ürəyimə nə isə dammışdı. Amma vecimə deyildi. Artıq mənim evimə sağ qayıtmağıma 0,0001 faiz ümidim yox idi. Ürəyimdə deyirdim ki, ölsəm, kişi kimi öləcəyəm.

Arxadan gələn ürəksiz saydığım Xanəliyev Ayaz idi.

Elə tərpənmək istəyirdik ki, söykəndiyim daşın üstündən PK (kalaşnikov pulemyotu) şaqqıldadı. Bir anlığa özümü itirdim. Əlimlə Ayazı daşa sıxıb, ayaq üstə dayandım.

İndi ermənilər öz mövqelərindən sağa bütün silahlardan atırdılar. Mənə görə, aradan III bölük (İsmayıl) çıxmalı idi. Ayazdan əl işarəsi ilə üstündə neçə qranat (qumbara) olduğunu soruşdum. Bir ədəd F-1 idi. Məndə də 1 ədəd RQD-5 (qumbara) var idi.

Ermənilər Bakı ləhcəsi ilə bizi söyə-söyə hey atırdılar...

Bizim geri çıxmağa heç şansımız yox idi. Ermənilər atəşi kəsməsələr də zəiflətmişdilər. Tez aşağı düşmək lazım idi. Yoxsa bizim praporşik arxaya minomyot (minaatan) və zenit raketi ilə təpəni vurmaq əmri verəcəkdi. Ancaq necə düşək, artıq hava açılmışdı.

Əlimi ürəyimin başında gəzdirdiyim Həzrət babanın, Xızırzinda babanın və həmyerlim Suvayıl babanın dualarına toxundurub, kömək istədim. Qurban olum kəramətlərinə!

Qarşımdakı iri daşın arxasına keçdim. Mənim 4 əsgərim (Əzizov Nadir, Əhmədov İlqar, Gülüyev İslam və qubalı Musazadə Osman) oturmuşdular. Mən onları qorxaq adlandırdım. Hirsimdən partlayırdım. Əgər onlar yuxarı çıxsaydı, ən vacib 472 № li təpə əlimizdə idi...

Ürəyimdə bu məğlubiyyətdə çox təcrübə qazandığımı hiss etmişdim.

Arxadan yenə də “kim geri qayıtsa, güllələnəcək” və “yeməkdən gözünüzü çəkin, olmayacaq” əmrləri gəldi, lakin biz qarşımızda duran döyüş tapşırığını yerinə yetirmək əzmindəyik.

28.01.1994.

Saat $20^{00}$-da arxaya canlı rabitə göndərdik. Yenə faciə...

Sən demə, I bölük və “Zaqatala” batalyonu 433-cü yüksəkliyi alıblarmış. Ancaq arxadan yardım və patron (qranatomyot və pulemyot, tank) köməyə gəlmədiyi üçün 5-6 saat sonra erməni hücuma keçmişdi. “Zaqatala” batalyonunun 5 nəfəri itkin düşmüşdü. Ölüb-qaldığından xəbər yox idi. I bölüyün komandir müavini Fərhad budunun yuxarısından yaralanmışdı. Axı II və III bölük 433-ün alınmasından xəbər tutsa idi, elə bir az (300-400 metr) sağa gedib, onların köməyinə çata bilərdik.

28.01.1994.

Ayın 29-nu birtəhər keçirdik. 30.01.1994-cü il tarixində saat 10 radələrində kombat Şahin bildirdi ki, II, III bölük və “Zaqatala” komandirləri onunla arxaya, briqadanın ştabına yeni döyüş tapşırığı almağa getməlidirlər. Mən və İsmayıl bir-birimizə baxdıq. Hər şey aydın idi.

Bir leytenant üç silahlı əsgərlə qayıtdı:

– Silahlarınızı təhvil verin! Briqada komandiri belə əmr edib.

Biz avtomat və onun mağazalarını verdik. Sonra bizi palatkalardan (çadırlardan) olan böyük müşavirə otağına apardılar. İçəridə briqada komandiri Qasımov, müavini Ə. Qurbanov, kombatımız Şahin və 3 nəfər zabit var idi. Briqada komandiri Ramazan Qasımov Əli və İsmayılı vətən xaini adlandıraraq, güllələyəcəyi ilə hədələdi.

Sol bud sümüyümdə kəskin ağrılar olduğundan məni “Gəncə” batalyonunun hospitalına aparmışdılar. Tarix adlı həkim müayinə etdikdən sonra dedi:

– Sol bud sümüyündə xroniki osteomelit var və o çürüyür.

Kombat göndərişi açıb oxudu, sonra onu cırıb ayaqlarının altına atdı.

– Mən səni və Quba batalyonunu hospitala yox, o dünyaya göndərəcəyəm, – dedi:

Gələn kolon (maşın karvanı) bizə yaxın yerdə dayandı. İkinci maşından bir general düşdü. Qasımov onun qabağına qaçdı. Nə isə, sonra general bizə yaxınlaşdı və rus dilində dedi:

– Sizə neçə gün lazımdır ki, öz planınızla o təpələri alasınız?

Mən dedim:

– Üç gün.

– Yox, siz iki günə mütləq təpələri tutmalısınız!

Mən:

– Bizə gecə ikən hərbi texnika və canlı qüvvə ilə kömək lazım olacaq.

General:

– Nə lazımsa olacaq, indi isə tez səngərə! Batalyona mənim salamımı çatdırın! Siz qubalılara inanıram.

Bu general – Azərbaycan Milli Ordusunun qərargah rəisi N.Sadıqov idi.

Biz QAZ-66 markalı maşınımıza çoxlu minaatan mərmisi və başqa sursat yükləyib, geri qayıtdıq.

Əsgərlər bizi toy-bayramla qarşıladı. Təzə kombat yanda dayanıb bizə baxırdı. Başımıza gələnləri uşaqlara danışanda susub dayanmış İsmayıl cibindəki qranatı (qumbaranı) çıxarıb yana qaçdı və qışqırıb dedi:

– Biz canımızdan keçib, Vətəni qoruyuruq, amma briqada komandiri Qasımov, Ə.Qurbanov kimilər biz komandirləri vətən xaini adlandırıb, güllələmək istəyir, hətta təhqir edirlər.

Əsgər Müşfiq və digərləri güc-bəla ilə ondan qranatı aldılar. İsmayılı susdura bilmirdik. Birdən ağzı əsəbdən köpüklə dolan İsmayıl yerə yıxılıb çabalamağa başladı, sonra huşunu itirdi. Onu təcili sursat gətirdiyimiz QAZ- 66-ya qoyub hospitala göndərdik.

Axşamüstü mən kombat Şahinlə ən hündür zirvədə gizlənən düşmənə hücum planı cızmağa başladıq.

Bura gəldiyimiz gündən komandir Gülağa evinə getməmişdi. Biz komandirlər onu 2-3 günlüyə evə buraxmışdıq. O, həm vəziyyətimiz haqqında prokuror Əli müəllimə məlumat verəcəkdi, həm də qarşıda həlledici döyüşümüzün olduğunu bildirib, canlı qüvvə gətirəcəkdi. İsmayıl xəstə, Gülağa isə yox idi. Mən tək nə edəcəkdim, bilmirdim.

30.01.1994.

Arxamızdakı Kaftar-təpə, Nərgiz-təpə lap aydın görünürdü.

Gözüm Ramizin ayaqqabılarına sataşdı. Şalvarının ətəyindən damcı-damcı qan axırdı. Dedim:

– Sən kimsən? Adın nədir?

Ramiz güclə gözlərini açıb təəccüblə mənə baxdı və dedi:

– Ramizəm, Qəmbərov. Komandir, məni tanımadın?

Mən:

– Tanıyıram qardaş. Sənin huşunun özündə olub-olmadığını yoxlayıram. Ramiz, biz erməninin içindəyik, ağrılara dözməlisən!

Nəhayət, gün batdı. Ramizə dedim:

– Əlini ağzına salıb dişlə. Nəcəf səni kürəyinə alacaq. Allahın köməkliyi ilə düşürük, hazırlaşın!

Ramiz:

– Komandir, xilasıma görə Sizə minnətdaram.

İbrahimdən vəziyyəti xəbər aldım. O dedi:

– Batalyonumuz demək olar ki, yoxdur. Xeyli itkimiz var. Elə Siz də o siyahıda idiniz.

Mən:

Müdafiəni təşkil elə! Biz qayıtdıq, indi onlar da gələrlər. Sonra, elə oturduğum yerdə yuxuya getmişəm. Uşaqlar məni yaxınlıqdakı blindaja aparıb, üstümü də örtmüşdülər...

01.02.1994.

Kimsə məni silkələyərək oyadırdı. Güclə gözlərimi açdım. I bölüyün komandiri Gülağa idi. Qubadan qayıtmışdı. Dedi:

– İsmət, qardaş, nə arxayın yatmısan? Batalyon qırılıb!

Ağlıma gələn yeganə fikir bu oldu ki, bəlkə erməni kəşfiyyat göndərib, uşaqları əsir götürüb?

Bölüyümdə yeriyə bilənləri yanıma çağırdım. 20 nəfərə yaxın əsgər gəldi. Gülağa da bir o qədər əsgərlə gəldi. Təcili yola düşdük.

Tələsik hərəkətə başladıq. Ramiz və o biriləri yox idi. Artıq hər yer ağarmışdı. Biz erməni səngərlərindən görünürdük.

Nə isə, tələsik kiçik qruplar halında geri qayıtdıq. Səhər açılmışdı. Xəbər verdilər ki, Şahin tək gəlib çıxıb. Tez ora qaçdım. Balaca çadırda oturmuşdular.

Şahin dedi:

– Komandir, Siz Nəcəflə gedəndən 1-2 saat sonra ermənilərin gəldiyini gördüm. Meyiti qoyub gizləndim.

Mən:

– Bəs Ramiz haradadır?

O:

– Mən meyiti sürüyərək, onun yanından sola 100-150 metr aralananda orada idi.

Mən:

– Sən nə danışırsan? Ermənidə o kişilik olmaz ki, aşağı düşsün. Mən gündüz 5-6 saat ərzində bir it oğlunu görmədim ki, 2-3 metr aşağı düşsün. Nə isə... Fakt bu idi ki, Ramiz və rəhmətlik yox idi.

Xəcalətimdən bilmirdim nə edim. Axı niyə, mən Ramizin sözünə baxıb onu orada qoyub gəldim? Həyatımı riskə qoyub onu xilas etdim, sonra da itirdim...

Bölüyə qayıtdım. İbrahim, Tahir, Səməndər, Etibar, Sabir yanıma gəldi.

İbrahim:

– Komandir, cəmi 22 nəfər qalmışıq.

Ermənipərəst briqada komandiri Qasımovun (sonradan o, cinayət məsuliyyətinə cəlb olunub həbs edilmiş və məhkəmənin hökmü ilə cəzalandırılmışdı) arzusu həyata keçmişdi – qubalılar qırılmışdı.

02.02.1994.

Rayon prokuroru Əli müəllimi qarşıladıqdan sonra onun köməyi ilə saat $10^{00}$-da məni, Gülağanı, III bölüyün komandir əvəzi, sıravi əsgər "Qara İbrahim"i və Ramazanı arxaya, briqadaya çağırdılar. Axır ki, iki gündən sonra da olsa, bizi yada salmışdılar.

Tam silahlandıq. Özümüzə söz verdik ki, yenə silahları istəsələr, təslim olmayacayıq.

Bizi heç nə olmamış kimi qarşıladılar və briqada komandirinin əvvəlki çadırına apardılar.

Yenə Qarik Qasımov, Əjdər Qurbanov (sonradan cinayət məsuliyyətinə cəlb olunub mühakimə edilmişdir) və başqa 6-7 nəfər zabit...

Briqada komandiri artistcəsinə rusca dedi:

– Siz təpəni alanda ağladım, amma səhər təpəni verəndə də ağladım. Birinci dəfə sevincimdən, ikinci dəfə isə heyifsiləndiyimdən. Axı necə oldu?

"Qara İbrahim":

– Cənab mayor, ermənilər 28 yanvardakı kimi üzbəüz yox, sağ cinahdan hücum etdilər. 4 BMP (Piyadaların Döyüş Maşını) və 100-ə qədər silahlı var idi. Dumanlı hava olduğundan əvvəlcə piyadalar peyda oldu. 5-6 dəqiqə sonra üzü saqqallı erməni ilə dolu 4 BMP hücuma keçdi. Mən və əsgərlərim onları 20 metr qalmışa kimi vurduq. Pulemyot, qrana\tatan və avtomatlardan açdığımız atəşlə iyirmidən çox erməni öldürdük. Amma onlar dayanmırdı. Biz təpəni alan zaman gördüyümüz ermənilərə oxşamırdılar. Təpədəndırnağa qədər silahlanmışdı, bu dığalar.

Mən:

– Hal-hazırda biz səngərə 30-40 metrdən bir əsgər qoyub gəlmişik. Erməni hücuma keçsə, onları saxlamağa gücümüz yoxdur. İtən itib, qırılan qırılıb, sağ qalan həm fiziki, həm psixoloji, həm də mənəvi ölüdür. Bizə heç olmasa 10 gün dinclik verin! Arxada prokurorumuz səyyar hamam göndərib, anbarımıza da isti paltar, ayaqqabı gəlib. Biz hələ də 4 aydır ki, bit-birə içində evdən gətirdiyimiz paltarların içindəyik. Mən isə artıq yeriyə bilmirəm.

Dünən bizim döyüşlərimizə "nəzarət" edən, briqadadan göndərilmiş praporşik Siyasət içkili idi. Onunla söhbət zamanı öyrəndim ki, bu briqada komandirinin adı Qarikdir. Beş-altı ay əvvəl nə alçaqlıq edibsə, paqonundan bir ulduzunu Müdafiə Naziri alıb və onu cəbhəyə göndərib. Müdafiə Naziri isə qubalı Məmmədrəfidir. İndi onun heyfini bizdən çıxır.

Heç bir konkret söz demədilər.

Gecə saat $22^{00}$-da briqadadan ZİL-131 markalı maşın və 14 əsgər kapitan Sadiqlə gəldi. Bütün komandirləri bir yerə yığdılar.

Briqada komandirinin müavini Sadiq:

– Briqadadan əmr gətirmişəm. Azərbaycan ordusu bütün cəbhə boyu hücuma keçəcək! Siz batalyonun son nəfərinə kimi yığılıb 01.02.1994-cü il tarixində tutduğunuz yüksəkliyi alıb, 5-6 saat oranı saxlamalısınız. Biz səhər xüsusi texnika gətirib oradakı tankları çıxaracağıq. Sizə 14 nəfər əsgər də kömək edəcək. Siz səhər alaqaranlıqda hücuma keçməlisiniz. Sizin minomyotçular (minaatanlar) hücuma kömək edəcək. Səhər briqada komandirinin müavini Əjdər Qurbanov burada olacaq.

Şəxsən döyüşü idarə edəcək. I və II bölük komandirləri mütləq döyüşdə iştirak etməlidirlər.

Bu da sonumuz!.. Bu, açıq-aydın ölüm demək idi. Çünki erməni bilirdi ki, biz tankları elə-belə verməyəcəyik. Ona görə də tankları tam nəzarətdə saxlayacaq, ətrafı isə 100 faiz minalayacaqdı. Nə isə...

Bizə verilən canlı kömək keçmiş Binəqədi batalyonunun ilk döyüşdən sağ qalan, sonradan hərbi tribunalda ölüm hökmü verilən zabit və əsgərləri idi.

Ali Baş Komandanımız Heydər Əliyev onları əfv edib, döyüşə göndərmişdi. Onları mənim bölüyümə verdilər. Qalan 20 nəfərimi yığdım. Bu, heç, bir tağım da deyildi. Buna baxmayaraq biz qələbə əzmində idik.

03.02.1994.

Cəmi 45-50 nəfər idik. Komandirlərdən mən, Gülağa və Rüstəm. Rüstəm irəlidə gedirdi. 200-300 metr gedib dayandıq. Kolon halında düşmənə tərəf irəliləməyə başladıq. Rüstəm dedi:

– Hamımız bir yerdə olsaq, heç nə edə bilməyəcəyik. Mən, üç nəfər əsgərimlə irəli – kəşfiyyata gedirəm. Siz gözləyin!

30-40 dəqiqə sonra tankların olduğu yerdə bərk atışma başlandı. Bizim minomyotçular hərəkətə gəldi. Səsdən qulaq tutulurdu. Mən və Gülağa əsgərlərimizlə birgə tez iki hissəyə bölündük.

Rüstəmin köməyinə gəlməyə tələsirdik. Bu zaman Rüstəmin 3 əsgəri ilə bizə tərəf qaçdığını gördük.

Rüstəm:

– Ora güclü mühafizə olunur. Heç nə edə bilməyəcəyik.

Arxaya, irəli gedə bilməyəcəyimizi bildirdik. Saat artıq $6^{00}$ idi. Əjdər Qurbanov ratsiya ilə dedi:

– Mənə təcili harada olduğunuzu bildirin! Tez irəli! Minomyotçular (minaatanlar) sizə kömək edəcəklər.

Özüm-özümə fikirləşdim ki, o, deyəsən bizi öz minomyotçularımızın (minaatanlarımızın) əli ilə qırmaq istəyir... Ay sən öləsən!

Gülağaya dedim:

– Bütün Azərbaycan Ordusu hücum etməli idi. Hanı? Heç briqadanın səsi çıxmır. Mən döyüşdən imtina edirəm! Sol və sağımızda briqada döyüşə başlasa, biz də irəli gedərik. Arxaya yerimizi bildirməməliyik.

Rüstəm məncə razılıq əlaməti olaraq susurdu. Nə isə... Hava açılırdı...

Bizdən 1 km sağda I bölüyün I vzvodunun (tağımının) komandiri leytenant Şövkətin qurduğu “Zimovka” deyilən mövqeyə tərəf getməyə başladıq. Orada indi bizimkilər yox idi. Ermənidən cəmi 700-800 metr aralı olsa da dərə dərin olduğundan müdafiə olunmaq olardı. Əjdər ratsiya ilə məni çağırdı:

– “Alfa”, niyə yerinizi bildirmirsiniz? Tanklarımızı qaytara bilməsək, sizin hamınız tribunala gedəcəksiniz. Səni isə şəxsən mən güllələyəcəyəm!

Mən dözə bilmədim:

– Əjdər! Sən və briqada komandiri satqın və alçaqsınız. Tankları və yüzlərlə mərd, qorxmaz azəri oğullarını siz ikiniz erməniyə satmısınız! Buradan sağ çıxsam, ikinizi də it kimi gəbərdəcəyəm!

O cavab vermədi. Bir saatdan sonra Petropavlovka kəndindən olan əsgərim Etibarı yanıma çağırdım:

– Etibar, çətin də olsa, arxaya-səngərə qayıt. Açıq yerlərlə qaça-qaça get. Minomyotçularımızdan (Minaatanlardan) vəziyyəti öyrən, mənə ratsiya ilə xəbər ver!

Onu qucaqlayıb yola saldım. Gün axşama doğru əyilirdi. Saat $16^{00}$ idi. Gülağa ilə dairəvi müdafiə qurub, arabir postları yoxlayır, sonra ac-susuz dincəlirdik. Biz qarşımızdakı düşməni dağlarda görməsək də, məncə erməni bizim cəbhənin bu hissəsinə gəlməyimizi başa düşə bilmirdi. Qorxudan səsini də çıxarmırdı.

Ratsiya ilə xəbər verildi: “Alfa” – “Betta!”, Qubadan bir avtobus adam gəlib. Çoxu ölən, itən və sağ qalan əsgərlərin valideyn və qohumlarıdır. Burada briqadadan heç kim yoxdur. “Alfa” özündən muğayat olsun! Onu axtarırlar...”

Bizim ratsiya ilə danışıqlarımıza briqadada da qulaq asırdılar. Amma başa düşə bilmirdilər. Çünki radistlərimiz düşməni çaşdırmaq üçün ya xınalıq, ya da tat dilində danışırdılar.

Bizim Ramizlə bir yerdə çıxardığımız şəhid olan radist – Qubanın Xaldan kəndindən imiş. Altı bacının bir qardaşı Teymur Şahbazov. Ştabımızın (qərargahımızın) radisti idi, rəhmətlik. Necə də mərd və qorxmaz idi, bu dağlı balası.

Mən Gülağa ilə qucaqlaşıb ondan ayrıldım. Uşaqlarımı da yığıb vidalaşdım.

Gecə 3-4 km aralıdakı mətbəximizə çatdım. Ərzaq daşıyan Qaz 66 avtomaşının sürücüsü Mehyəddinov Asif məni kənara çəkib dedi:

– Komandir, bir az əvvəl kombatın müavini Faiq briqadanın 4 nəfər qara paltarlı əsgərilə UAZ-da bura gəldilər. Hər yerdə səni axtardılar. Bizə dedilər:

– II bölük komandiri İsmət qaçıb. Bura gəlsə, bizə xəbər verin! Biz onları söyüb, qovduq. Səndən çox narahat idik.

Səhər saat $10^{00}$-da Asif məni Ağcabədi rayonunda 13-cü sahə adlanan yerdəki hospitala gətirdi. Həmyerlim, birinci kombatımız Azay dayı ("Batya") ilə rastlaşdım. O da xəstə idi:

– İsmət, bacıoğlu, mən səni ölmüş bilirdim. Arxada olan bütün əsgərlərə, hətta ailənə də xəbər veriblər ki, itkin düşmüsən.

Cərrah Tarix müəllimə başıma gələnləri danışdım. O, mənə təcili Bakıya-Mərkəzi Hərbi Hospitala göndəriş vərəqi verdi.

"Batya" məni Ağcabədi-Beyləqan yoluna gətirdi. Oradan yol maşını ilə hospitala gəldim.

Bununla da mənim cəbhədə keçirdiyim günlər başa çatdı.

04.02.1994.

Gündəlik burada bitir, təəssüratlar isə yeni başlayır. Oxuduqlarını, axırını bilmək üçün tələsik oxuduqlarını yenidən beyninin, ağlının süzgəcindən keçirərək, o dəhşətli anları, ürək göynədən epizodları təkrar yada salmaq ağır da olsa lazımdır. Vətənimizin, müstəqilliyimizin uğrunda canından, həyatından keçən oğullarımızı tanımaq, qiymətləndirmək lazımdır. Gələcək nəsillərə ibrət, qəhrəmanlıq dərsi olsun deyə, azad, firavan yaşadıqları Vətən torpağının hansı qurbanlar bahasına qorunduğunu yadda saxlamaq və onu qorumağı özünə ilkin və əbədi borc bilmək xatirinə təbliğ etmək lazımdır.

Ayılın, yurddaşlar qalxın ayağa,
Dönün Vətən üçün arxa, dayağa.
Alın düşmənlərdən qisası, qanı,
Bu günün Nəbisi, Babəki hanı?

Cavanşir nəslindən qalmayıb bir kəs?
Hanı, hardadırlar, eşitmirəm səs.
Zaman yetirməyib bəlkə qəhrəman!?
Bəlkə doğulmayıb yeni Cavad xan?

Hardadır gəlsinlər Koroğlu, Nəbi,
Toplasın başına nər igidləri.
Qalxsınlar qovğaya, girsin döyüşə,
Tanrı rəvac verər özü haqq işə.

Sökülsün çadırlar, bitsin bu həsrət,
Qayıtsın öz doğma yurduna hər kəs.
Ulu Qarabağın şanlı tarixin,
Yada əyilməyən canlı tarixin,
Etməyin şərəfsiz ölümə məhkum,
Bu ulu ruhları etməyin məhzun.

Cəmləyin qeyrəti, qovğaya girin,
Haqq sözü bir daha eşidin, bilin,
Şərəfsiz həyatdan ölüm yaxşıdır.
Ləyaqət hər kəsin ömür naxışıdır.

Həmin gündəlikdən səhifələri oxuduqca Quba-Qusar batalyonunun döyüş yolunun tarixini bir daha yaşayırsan. Batalyon əsgərlərinin məktublarını vərəqləyək... Bu məktubları oxumağa başlayan kimi əsgərlərimizin çətin həyatı haqqında təsəvvür yaranır, bütün varlığımızla təəssüb, həm də qürur hissi yaşayırıq. O cavanları hiss edirik, onların sadəliyinə, düşmənə nifrətinə vuruluruq və... bu məktublardan ayrıla bilmirik. Məktublar oxucuya danışır ki, insanlar müharibənin gərgin vaxtlarında nələr düşünürlər. Müharibədə üstünlük, qalibiyyət əsgərlərin hisslərinin necə olmasından asılıdır. Məktublar müharibəni, o müsibətləri, həm də qələbə anlarını onların iştirakçılarının gözü ilə göstərir, sözü ilə anladır.

Əsgər məktubları başa çatır və oxucu şəhid olanları, yaralananları, itkin düşənləri, sağ qalanları fikirləşir. Artıq Bişkekdə atəşkəs imzalanmışdır. Döyüşən əsgərlərin isə hələ atəşkəsdən xəbəri yox idi. Oxucu yenə düşünür.

Bəs bu döyüşçülərin umman kimi dərin Vətən sevgisi haradan qaynaqlanır, nədən irəli gəlirdi? Bu təmtəraqlı söz, tezis, sifarişlə yaranan bir şey, hər hansı fəaliyyət deyil, bu, sadəcə, Vətən eşqi ilə döyünən ürəklərdə doğan, yaşayan təbii bir hissdir. Ümumi bədbəxtliyi dərk edən zaman özünü qurban vermək və əzab çəkməkdir. Xoşbəxt o xalqdır ki, sınaq saatlarında onun yetirdiyi qəhrəmanlar, mərd oğullar heç kəsdən soruşmur ki, belə hadisələr zamanı sən necə hərəkət edərdin! Bu əsgər məktublarının səhifələrinə düşən insanlar bizə təkcə dünən nələrin olduğunu izah etmir, həm də bu gün, sabah nələrin ola biləcəyini göstərir.

Şərəfli döyüş yolu keçmiş Quba-Qusar batalyonu ilə fəxr edən həmyerliləri keçmiş döyüşçülərlə müxtəlif görüşlər keçirirlər. Belə görüşlərdən biri Əkbər Əkbərov və Səməndər Mövsümovla Həzi Aslanov adına kolxozda keçirildi. Döyüşçü Əkbər Əkbərov həmkəndliləri ilə söhbət zamanı demişdi:

– Ötən ilin (1993-cü ilin) dekabrın 25-dəki döyüş mənzərəsi indi də gözümün önündədir. Biz "N" yüksəkliyi uğrunda vuruşurduq. Amma düşmənin əlverişli mövqe üstünlüyü özünü göstərirdi. Düşmən əsgərləri lap yaxında idi. Onlardan biri bizi nalayiq sözlərlə təhqir edirdi. Belə təhqirə dözməyən Rövşən Orucov birdən ayağa qalxaraq avtomatdan açdığı sərrast atəşlə həmin erməni yaraqlısını gəbərtdi. Lakin düşmən gülləsi Rövşəndən də yan keçmədi. Biz igid əsgər yoldaşımızı, qardaşımızı, təxminən gündüz saat $13^{00}$-da itirdik. Cəsur döyüşçü doğma Vətənimizdə – Qubadakı Şəhidlər xiyabanında dəfn edildi.

Həmkəndliləri eyni zamanda Səməndər Mövsümovun ayrı-ayrı döyüş epizodları barədəki söhbətlərini də maraqla qarşıladı.

Söhbətlərdə qeyd edildi ki, "Quba" qəzetinin 6 yanvar 1994-cü il tarixli sayında jurnalist Məzahir Məmmədovun "On bir övladın biri Rövşən" sərlövhəli yazısı bütün batalyon əsgərlərinin ürəyindən oldu. Onun hər dəfə döyüş bölgəsinə gəlməsi bizi çox razı salırdı. Axı, döyüşçü dostlarımız ona, yaxın bir adam kimi çatışmayan cəhətlər barədə ürək açıqlığı ilə məlumat verirdilər.

Batalyonumuzun bütün döyüşçüləri adından “Quba” qəzeti redaksiyasının kollektivinə belə xeyirxah işlərinə görə dərin minnətdarlığımızı bildiririk.

Qeyd edək ki, “Quba” və “Qusar” qəzetlərinin jurnalist kollektivi batalyonun döyüş yolunu daim işıqlandırırdı. O zaman Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dediyi: “Hər bir azərbaycanlı bilməlidir ki, indi Vətəni qorumaq üçün hərə öz payını verməlidir. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur”, – sözləri hər kəsin həyat amalına çevirmişdi.

Quba-Qusar batalyonunun döyüşçüləri də öz sıralarından çoxlu şəhidlər verdilər. Batalyonun ilk şəhidi Rövşən oldu. Onun dörd övladı var idi. Yüzlərlə qubalı cənazəni əlləri üstündə Şəhidlər xiyabanınadək apardı. Quba rayon icra nümayəndələri, Quba rayon prokuroru kimi mən və b. dəfn mərasimində Quba-Qusar batalyonunun döyüş şücaətlərindən söhbət açaraq, gəncləri belə qəhrəman döyüşçülərdən nümunə götürməyə, azadlıq uğrunda mübarizəyə səslədik.

* * *

## Quba-Qusar batalyonunun bir sıra şəhidləri haqqında

Bu gündəlikdəki əsgər məktublarının səhifələrinə düşən insanlar da bizə təkcə dünən nə olub izah etmir, həm də bu gün, sabah nə olacağını göstərir.

Quba-Qusar batalyonun vuruşduğu vaxtlarda batalyon əsgərlərini arxada öz həmkəndliləri müxtəlif görüşlərə çağırırdılar. Belə görüşlərdən biri Əkbər Əkbərov və Səməndər Mövsümovun “Həzi Aslanov” adına kolxozdakı görüşləri oldu. Döyüşçü Əkbər Əkbərov həmkəndliləri ilə söhbət zamanı demişdir:

– Ötən ilin dekabrın 25-də baş vermiş döyüş mənzərəsi indi də gözümün önündədir. Biz “N” yüksəkliyi uğrunda vuruşurduq. Amma düşmənin əlverişli mövqe üstünlüyü özünü göstərirdi. Düşmən

əsgərləri lap yaxında idi. Onlardan biri bizi nalayiq sözlərlə təhqir edirdi. Belə təhqirə dözməyən Rövşən Orucov birdən ayağa qalxaraq avtomatdan açdığı sərrast atəşlə həmin daşnakı gəbərtdi. Lakin düşmən gülləsi Rövşəndən yan keçmədi. Biz igid əsgər yoldaşımızı, qardaşımızı, təxminən gündüz saat 1-də itirdik. Cəsur döyüşçü doğma Vətənimizdə – Qubadakı Şəhidlər xiyabanında dəfn edildi.

Həmkəndliləri eyni zamanda Səməndər Mövsümovun ayrı-ayrı döyüş epizodları barədəki söhbətlərini də maraqla qarşıladı.

Söhbətlərdə qeyd edildi ki, "Quba" qəzetinin 6 yanvar 1994-cü il tarixli sayında jurnalist Məzahir Məmmədovun "11 övladın biri Rövşən" sərlövhəli yazısı bütün batalyon əsgərlərinin ürəyindəndir. Onun hər dəfə döyüş bölgəsinə gəlməsi bizi çox razı salır. Axı, döyüşçü dostlarımız ona yaxın bir adam kimi çatışmayan cəhətlər barədə ürək açıqlığı ilə məlumat verirlər.

Batalyonumuzun bütün döyüşçüləri adından "Quba" qəzeti redaksiyasının kollektivinə belə xeyirxah işlərinə görə dərin minnətdarlığımızı bildiririk.

Bu arada Quba rayon qəzeti, Qusar rayon qəzeti batalyonun döyüş yolunu daim işıqlandırırdılar. O zamanlar ümummilli lider Heydər Əliyev demişdir: "Hər bir azərbaycanlı bilməlidir ki, indi Vətəni qorumaq üçün hərə öz payını verməlidir. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur."

Quba-Qusar batalyonun döyüşçüləri də öz paylarına düşən şəhidlərini verdilər. Batalyonun ilk şəhidi Rövşən oldu. Onun dörd övladı var idi. Yüzlərlə qubalı cənazəni əlləri üstündə Şəhidlər xiyabanınadək apardı. Quba rayon icra nümayəndələri, Quba rayon prokuroru Əli Eyvazov və. b. Quba-Qusar batalyonunun döyüş şücaətlərindən danışdı və gənclərə nümunə götürməyi, azadlıq uğrunda mübarizəyə səslədilər.

Quba-Qusar batalyonunun qəhrəmancasına döyüşdüyü vaxtlarda "Quba" qəzetində batalyonunun şəhidləri haqqında yazılar öz əksini tapırdı. Qəzet öz yazılarında haqq işi uğrunda vuruşan

və düşmənə sarsıdıcı zərbələr endirərək “şəhid” adını qazanan döyüşçüləri xalqa tanıtdırırdı.

## 11 övladın biri Rövşən

Sənin ölüm xəbərinin eşidəndə elə bil, ayaqlarım altından yer qaçdı. Kürəyimə qara xəncər saplandı, Rövşən. Gözlərim önündə cəmi bir neçə gün əvvəl soyuq səngərlərdə səninlə görüşdüyüm anlar canlandı. O vaxt çox həyəcanlı idin. Əməliyyatdan qayıtmamış yoldaşlarının fikrini çəkirdin. Mənim – necəsən? sualıma – hücum əmrini gözləyirik – dedin. Onu da xahiş etdin ki, “sən Allah, anama deyərsən narahat olmasın. İmkan olsa yeni ildə evə gələcəyəm”. Sən verdiyin sözə əməl etdin. Özü də tək yox, şəhid qardaşlarınla birgə. Hər işdə birinci olmağı xoşladığın kimi Quba batalyonunda da birinci şəhid oldun. Dörd övladını atasız qoydun, Rövşən. Səni cəbhəyə getməyə heç kim məcbur etməmişdi. Bütün təkidlərdən, xahişlərdən imtina etdin. Ürəyinin, qəlbinin hökmü ilə ana torpağa, oğulluq borcunu verməyə könüllü getdin. Daha doğrusu qıraqda dayanıb od tutub yanan torpaqları seyr etməyi kişiliyinə, mənliyinə sığışdırmadın. Gözləri yaşlı anan Anna dedi:

– 11 uşaq böyütmüşəm. Kasıbçılıqdan, zillətdən. Rövşən onlardan həmişə seçilərdi. Sözü isə bu olardı. Necə vətəndir ki, onu bizim kimi oğullar qoruya bilməsin.

Qorudun, qardaş. Sən bu şərəfli vəzifənin öhdəsindən mərdliklə, igidliklə gəldin. Dünənə qədər dost-tanışından heç nə ilə fərqlənmədiyin halda, bu gün bütün Azərbaycanın övladına çevrildin. Yüzlərlə qubalı cənazəni əlləri üstündə düz Şəhidlər xiyabanınadək apardı. Matəm mitinqində çıxış edən Quba rayon icra hakimiyyəti başçısının əvəzi Mirzəxan Qəniyev, Qusar rayon icra hakimiyyəti başçısı İkram Əmirov, Quba rayon prokuroru Əli Eyvazov və başqaları qeyd etdilər ki, Quba batalyonunun göstərdiyi döyüş şücaətində sənin də öz payın var. Qoy gənclərimizə sənin əməllərindən nümunə götürərək silaha sarılıb azadlıq mübarizəsinə qalxsınlar.

Rövşən Ramiz oğlu Orucov 1959-cu ilin yanvar ayının 5-də Quba şəhərində anadan olmuşdur. Şəhər 3 nömrəli orta məktəbində oxumuş, səkkizinci sinfi qurtardıqdan sonra xeyli müddət Quba elektrik mühərrikləri zavodunda, sonra 17 nömrəli SMD-də qaynaqçı işləmişdir. Hansı sahədə işləməyindən asılı olmayaraq həmişə özünə böyük hörmət qazanmışdır. 1993-cü ilin dekabrın 26-da Ağcabədi yaxınlığındakı Şiştəpə ətrafında gedən vuruşmalarda qəhrəmanlıqla həlak olmuşdur. Döyüş yoldaşı Osman Musazadənin dediklərindən:

– Mən Rövşənlə uzun müddətdir ki, dostluq edirəm. Qubada olduğu kimi cəbhədə də bir yerdə idik. Döyüşə girməyə bir neçə saat qalmış mənə dedi. Oğlum Ramizi yuxuda görmüşəm. “Ata, evimizə qayıt” – deyirdi. Sonra dərindən ah çəkərək: – “Allah xeyir etsin” – dedi.

Döyüş başlananda Rövşən, Abbasəli və Pərviz bizdən xeyli irəli getdilər. Açığını desək ki, batalyon yarandıqdan sonra bu cür ağır döyüş görməmişdik. Möhkəmlənmiş mövqelərdə gizlənmiş düşmən hər cür silahdan üstümüzə yağış kimi mərmi, güllə yağdırırdı. Əsgərlərimiz mərdliklə vuruşurdular. Xəbər gəldi ki, Rövşənlə Pərviz həlak olub. Abbasəli isə ağır yaralanıb. Biz onları atəş altında döyüş zonasından güclə çıxara bildik. Lakin bu döyüşdə ermənilər də xeyli itki verdilər. Batalyonumuzun döyüşçüləri and içiblər ki, düşməndən intiqam almayınca geri qayıtmayacaqlar.

Rövşən, bu gün aramızda yoxluğun hər birimizin ürəyini ağrıtsa da arxayın ola bilərsən ki, sənin arzuların yerdə qalmayacaqdır. Vətəni hər şeydən uca tutduğun üçün bu ağır imtahandan alnı açıq, üzü ağ çıxdın. Yanvarın 5-də 36 yaşın tamam oldu. Lakin sən bu ad gününü evinizdə yox, Şəhidlər xiyabanında öz igid qardaşlarının yanında qarşıladın.

**Məzahir Məmmədov**

“Quba” qəzeti. – 1994. – 6 yanvar

## Qorxuram bu dünya unuda məni

*Hardasa bir ana yollara baxır,*
*Hardasa bir oğul qayıdır evə...*

Hərbi xidmətini başa vurandan sonra Teymur daha Ermənistana dönmədi. Kimi qalmışdı ki, orada?! Daha atası yox, anası yox. Öz ocağını özü yandırmalı idi və Teymur ocağını yad baxışların, xəbis nəzərlərin, soyuq nəfəslərin qəribliyində çatmadı. Dost mehrini arxayınlıq kimi qəbul edib Qubanın Birinci Nügədi kəndinə gəldi. Qaynadı-qarışdı, gün-güzəran qurdu, 8 övlad böyütdü. Uşaqlığımızın ən nəhəng maşını idi onun sürdüyü tırtıllı traktor. Rayon dolusu adı – hörməti vardı. Hər nə qazanmışdı zəhməti ilə qazanmışdı, özü qazanmışdı. Bircə bu adı Nəbi verdi ona: **Şəhid atası.**

Nəbi Teymur oğlu Nağıyev Quba batalyonunda döyüşən könüllülər sırasına Şəmkirdən gəlmişdi. Ötən ilin avqustun 3-də Bakıdan, işlədiyi tikinti trestindən getmişdi cəbhəyə. Batalyon təşkil olunanda dəyişib buraya. Deməli, bu olub noyabrda. Üçüncü rotada idi. Zarafat deyil bir kənddən 25 nəfər idilər... Bu adam üçün pis sözü yox idi. Deyirdi, qoy pis olsun, mən niyə yaxşılıqdan əl çəkməliyəm. Həmişə kiməsə əl tutmağa, köməyə tələsirdi. Elə orada da belə oldu. Pərvizi əlimizdən alan Şiştəpə uğrunda olan döyüşdə... Düşmənin yuxarıdan yağdırdığı güllə yağışı altında yoldaşlarını xilas etmək asan iş deyil. Əksinə, özünü bilə-bilə ölümün ağzına atmaqdır. Bəlkə yaralanan var, lap elə... adamın ölüsü də düşməninə əsir düşməsin (Kənanı xatırlayıram: – Pərviz qumbarasının birini verdi ki, qardaş, birgə əsir düşmə). Göz görəsi yoldaşlarını düşmən əlində qoymaqmı olar. Bəs onda kim getsin?

– Əlbəttə mən! Qaçaq Nəbi (yoldaşları zarafatla belə çağırırmış onu) burda dura-dura kim gedəcək?

Əvvəl qıçından yara almış Abbasəli Abbasovu gətirir. Sonra Namiz Bayramovu çıxarır. Yenidən qayıtmaq istəyəndə snayper

gülləsi yaxalayır Nəbini. Deyirlər, 6 saat ürəyinin hesabına yaşayıb... Dəfninə gələn yoldaşları, bölmə komandiri atasına deyiblərmiş ki, Nəbi haqqında təqdimat yazılıb. İndi kədəri ev-eşiyə, həyət-bacaya sığmayan ana üçün, bacılar üçün Nəbinin igidliyinin diqqətsiz qalmayacağı xəbəri ən böyük təsəllidir, yardımdır.

– Biri gedib, lazım gəlsə beşi də getməlidir. Mənim oğlum həlak olub, təki bununla qurtarsın, tez qurtarsın. Bu torpaq erməniyəmi qalacaq? – deyən atanın yaralı qəlbinin dəyanətinin təqdiri, təsdiqi olar o yazılan təqdimat. Nəbinin igidliyi tək özünün, ailəsinin yox, bütün kəndin, rayonun, batalyonun şərəfidir.

Düz 40 il əvvəl Teymur kişi erməni soyuqluğundan üşüyüb Azərbaycana pənah gətirdi, burada da yuva qurdu. 40 il sonra oğlu Nəbi erməni gülləsinin qabağına, torpaq uğrunda vuruşa getdi. Yanvarın 29-da 25 yaşı tamam olacaqdı. Dekabrın 29-da Nəbi öz ömrünü ömürlərə caladı. 25 yaşlı Nəbi ailə qurmamışdı, ev tikməmişdi. Əvəzində ürəklərdə yuva saldı, yaddaşlara köçdü. Şəhidlər xiyabanı adlı müqəddəs ziyarətgahımızda Vətəni bir şəhid qəbri boyda dikəltdi, ucaltdı, böyütdü. Çünki Teymur kişinin çörəyini yemişdi. Şəhid olmuş balasının ölümünə lay-lay desə də. “Oğul mənim evimdə böyümüşdü, Vətənin, torpağın, xalqın idi, – deyib başqalarına təsəlli verən atanın. Həqiqətlə üz-üzə duranda heç bir bəzəyə-düzəyə ehtiyac yoxdur. Hissə qapılmayaq: Vətən uğrunda can qoyan hər bir oğul ilk əvvəl bir ananın övladıdır. Dünyada ana üçün bundan böyük dərd olarmı ki, nə zəhmətlə oğul böyüdəsən, qazancını yeyəsi, toy eyləyəsi vaxtında oğlunun cənazəsi girə qapıdan. Amma Ziyadə xala bu dərd dağını aşmaq üçün “Balamın qeyrəti götürmədi, öldüsə də mərd öldü, igidliklə öldü. Daha qaçıb gizlənmədi, fərari olmadı” – təsəllisini dayaq eləyib yaralı qəlbinə. Nəbinin şəkli anasının bu sözlərindən sonra elə bil dil açıb deyir:

Öləndə kişi tək ölə bilməsəm,
Qorxuram bu dünya unuda məni...

Ölməli vaxtı deyildi... Amma el üçün, başqaları üçün bu vaxtsız ölümü seçdi. Kişi kimi öldü. Qoy Nəbinin ruhu nigaran qalmasın.

Beləlləri çətin ki, unudula...

**Südabə**

"Quba" qəzeti. – 1994. – 14 yanvar

## Şəhid qardaşlar. İki qoşa qanad

Budur, bax, iki surət –
Biri bu, biri də bu,
Həmin iki şəkildə
İki qardaş surəti.

**Şekspir**

Bakı – Quba yolunun üstündə yerləşən İsnovqışlaq kəndinin onlarla oğlu cəbhələrdə vuruşur. Müharibə ağrıları cəbhədən gələn hər uğurlu-uğursuz xəbər bu kəndin də hər bir küçəsindən, hər evin qapısından keçir. Cəbhədə döyüşən igid əsgərləri ilə birgə bu kənd də müharibə edir, vuruşur, qələbə gözləyir. Qələbə isə qurbansız olmur.

Bu acı həqiqət bu kənddə ilk dəfə Şəmiyevlər ailəsinin qapısını döydü. Yanvar günlərinin birində altı övlad böyütmüş Gülarə ananın cəbhədə vuruşan iki əsgər balası – Sərvər və Şəmsəddinin şəhid olması xəbəri hamını sarsıtdı. Bu müdhiş xəbər idi.

Sən bir taleyə bax. Cəbhədə ayrı-ayrı döyüş bölgələrində vuruşan qardaşlar çoxdan idi ki, bir-birini soraqlayır və bir batalyonda vuruşmağa can atırdılar. Tale isə onların cənazələrini yanvarın 13-də görüşdürdü. Özü də lap evlərinin yanında. Bir-birilərindən xəbərsiz...

Şəmsəddin orta məktəbi ötən il bitirmişdi. Ali təhsil almaq arzusunu yarımçıq qoyaraq doğma torpağını müdafiə etməyə getdi. Bir müddət Bakıda təlim keçdikdən sonra Gəncəyə, oradan da Fü-

zuli bölgəsinə göndərildi. Yanvarın 9-10 da Horadizin azad olunması uğrunda gedən döyüşlərdə mərdliklə vuruşdu və burada da qəhrəmanlıqla həlak oldu. Çox qısa oldu onun döyüş yolu. Gözlədiyi qələbə gününü görə bilmədi.

Sərvərin isə 22 yaşı yanvar ayının 27-də tamam oldu. Hərbi xidmətini Pribaltika respublikasında başa vurmuşdu. Əksər döyüş silahlarından bacarıqla istifadə edirdi. Hələ uşaq yaşlarından arzusu hərbçi olmaq idi. Lakin taleyi elə gətirdi ki, Quba Kənd Təsərrüfatı Texnikumunda təhsil almalı oldu. Hörmətli prezidentimiz Heydər Əliyevin müraciətinə qoşularaq təhsilini yarımçıq qoyub, Quba batalyonuna üzv yazıldı. Evlərindən halallaşıb çıxanda demişdi: "İmkan olsa cəbhədə Şəmsəddini axtarıb tapacağam".

Döyüş yoldaşları Adil Məmmədov, Ceyhun Mirzəyev, Aslan Məmmədov Sərvərin igidliyi haqqında xeyli danışdılar. Adilin dediklərindən:

Kənddə olduğu kimi səngərlərdə də Sərvərlə daim bir yerdə idik. Xocavənd ətrafında gedən qanlı döyüşlərdə qazandığımız qələbələrdə onun da zəhməti az olmayıb. Bir komandir kimi döyüş zamanı özünü çox təmkinli və səbirli aparırdı. Dekabr ayının axırlarında və yanvarın əvvəllərində düşmənə sarsıdıcı zərbələr vurduğumuz zaman, bizim tərəfdən də ölənlər oldu. Lakin döyüşçülərimizin heç biri ruhdan düşmür, yaralı yoldaşlarını atıb geri qaçmırdı. Əksinə, daha mərdlik və əzmkarlıq göstərirdilər. Yanvarın 12-də ağır döyüş başlandı. Bir neçə saat çəkən döyüşdə düşmən layiqli cavabını aldı. Saat 11-12 radələrində durduğumuz yerə düşən mina isə Sərvəri həmişəlik əlimizdən aldı. O həmişə qardaşı Şəmsəddini görməyi arzulayardı.

Batalyonda beş igid oğul vardısa, biri də Sərvər idi. Biz silah yoldaşlarımızın qanını almaq üçün son damla qanımızadək düşmənlə mübarizə aparacağımıza and içmişik. Bu sözləri isə dəfələrlə Qarabağ döyüşlərində iştirak etmiş Mehman Sultanov deyir.

Kənd məktəbinin müəllimi Şaiq Axundov qeyd etdi ki, hazırda məktəbimizin 38 nəfər məzunu cəbhə bölgələrində vuruşur.

Onların arasında igid uşaqlar çoxdur. Şəmsəddin və Sərvər də belələrindən idi. Hər ikisi oxuduğu müddətdə məktəbin sayılan tələbələrindən olub, şəkilləri Şərəf lövhəsindən düşməyib. Dəfn günü şagirdlərimiz onlara öz hörmət və ehtiramlarını bildirərək bir saata qədər şəhidlərə həsr olunmuş şeir və bayatılar oxumuşlar. Kollektivimiz onların adlarının əbədiləşdirilməsi üçün əlindən gələni əsirgəməyəcək.

Yas yerində heç kim dinib-danışmırdı. Necə deyərlər hərə öz aləminə çəkilmişdi. Bu lal sükutun bağrını zahid kişinin özü yardı. Dərdinin böyük olmasına baxmayaraq iki balasının qoşa ölümü haqqında bunları dedi:

– Qurbansız Vətən olmaz. Qurbansız torpaq azad olmaz. Öz ana-bacın, qohum-qardaşın, ev-eşiyin uğrunda mütləq vuruşmalı, yeri gəlsə həlak olmalısan ki, torpaq azad olsun. Mənim oğlanlarım da bu yolda öz canlarını qurban verib şəhid olmuşlar.

İki qardaş-qoşa qanad... Ölüm, bu qanadları qıra bilməzsən! Sərvər və Şəmsəddin bu gün iki qoşa qanad olub Azərbaycanın mavi səmalarına qalxmışlar.

**Məzahir Məmmədov**

“Quba” qəzeti.–1994.–28 yanvar

## Yurdun şəhid balası – yurdun şəhid yarası...

Püstəqasıma tamam başqa məqsədlə getmişdim. Kəndin ən hörmətli ağsaqqalı, pensiyaçı müəllim Mirzəhməd Ağasiyevin evində yas mərasimi idi. Oğlu Elxan Qarabağ döyüşlərində həlak olmuşdur. O, “Quba” batalyonunda xidmət edirdi.

Elxan Mirzəhmət oğlu Ağasiyev Sumqayıt Politexnik Texnikumunu bitirdikdən sonra təyinatla Azərbaycan Boru Prokatı zavoduna işə göndərilmişdi. Elə buradan da keçmiş sovet ordusuna xidmət etməyə getmişdi. Əsgəri xidmətini başa vurduqdan sonra Sumqayıta qayıdaraq doğma zavodunda işləyirdi. Ötən il Vətən tor-

paqlarını düşməndən azad etmək üçün cəbhəyə getdi. "Sumqayıt" batalyonunun tərkibində iyunun 13-də Ağdamın Novruzlu kəndinin yaxınlığında erməni qəsbkarlarına qarşı ilk döyüşə girmişdi.

Elxan bu il yanvarın 2-də anadan olmasının 27-ci il dönümünü qeyd etmək üçün evlərinə qısa müddətli məzuniyyətə gəlmişdi. 4 yaşlı oğlu Samir atasından ayrılmaq istəmirdi. Elxan yanvarın 10-da cəbhəyə yola düşərkən həyat yoldaşı Əntiqəyə tapşırdı ki, qızım olsa adını Səbinə qoyarsınız.

Bəli, bu Elxanın ailə üzvləri ilə axırıncı görüşü oldu. O Ağdamın Çəmənli kəndinə, öz döyüş yoldaşlarının yanına qayıdıb öz əsgəri borcunu, – rabitəçi, kəşfiyyatçı borcunu yerinə yetirməyə başladı. Soyuq səngərlərdə düşmənin atəş mövqelərinin koordinatını öyrənir və məlumatları dərhal hissəsinin qərargahına çatdırırdı. Cəsur döyüşçü qorxu nə olduğunu bilmirdi. Müharibə qurbansız olmur. Elxanın həyat yolu 1994-cu il yanvarın 30-da qırıldı. O, Ağdam bölgəsinin Çəmənli kəndi uğrundakı ağır döyüşlərdə qəhrəmancasına həlak oldu.

Çəmənli kəndi ətrafında yanvar ayının 30-da – o qış gecəsində Qarabağ səmasında yenicə sayrışmağa başlayan ulduzlar arasında bir tale ulduzu axdı. Bax, vaxtsız sönən bu tale ulduzu Püstəqasım kənd qəbiristanlığında əbədiyyətə qovuşan Elxanın idi...

Elxanın əziz xatirəsi qədir bilən xalqın ürəyində əbədi yaşayacaqdır.

**M.Babaoğlu**

"Quba" qəzeti. – 1994. – 25 fevral

## EPİLOQ ƏVƏZİ

İndi Qarabağ müharibəsi tarixçilər, siyasətçilər tərəfindən daha ciddi və dərindən araşdırılır. Faktlar sənədlərə əsasən öyrənilir. Quba-Qusar batalyonunun döyüşçüləri nağıl və əfsanə qəhrəmanları deyil, çağdaş dövrümüzün, günümüzün qəhrəmanlarıdır.

Ona görə bu hərbi əməliyyatları yenidən qiymətləndirmək, hadisələri yenidən gözdən keçirmək tələb edilir. Axtarışlar əvvəllər məlum olmayan hadisələrin dəqiqləşdirilməsinə, müharibədə iştirak edən yeni adların aşkara çıxarılmasına imkan verəcək. Şübhə yoxdur ki, xalqımızın mərd övladlarının Qarabağ müharibəsindəki qəhrəmanlıqları, müharibənin görünməyən tərəfləri dərin təhlildən sonra həqiqi tarixi qiymətini alacaqdır. Quba-Qusar batalyonunun kiçik zaman çərçivəsində keçdiyi döyüş yolu böyük bir həyata bənzəyir. Haqsız qan yerdə qalmaz, – demişlər. Quba-Qusar könüllülər batalyonunun tarixə dönmüş yaranışı və onun tərkibində döyüşən insanların taleyi tarixə çevrilmişdir.

Batalyonun şəxsi heyətindən 33 nəfər döyüşlərdə şəhid olmuş, 7 nəfər itkin düşmüş, çoxlu sayda döyüşçü müxtəlif dərəcəli bədən xəsarəti almış, bir çoxu isə əlil olmuşdur.

Hər il 27 dekabr tarixi Quba-Qusar batalyonunun yaranma günü kimi təntənəli surətdə Quba rayonunda qeyd edilir, şəhidlərin əziz xatirəsi yad edilir, əlillərə və şəhid ailələrinə baş çəkilir.

Quba-Qusar batalyonunun yaşadığı tarixi yol və bu yolda yaşanılan tarixi məhrumiyyətlər bu gün bizimlə yaşayır və xalqı gələcək qalibiyyətlərə səsləyir.

Quba-Qusar batalyonunun tarixi Azərbaycan tarixinin şanlı bir səhifəsi və xalqın yaşadığı qəhrəmanlıq nümunəsidir. Tarix isə xalqındır. Faciəsi ilə, xoşbəxtliyi ilə birlikdə. Və bu tarix gələcək qalibiyyətin astanasıdır.

Atəşkəsi biz bu gün də yaşayırıq. Bəlkə də, bu atəşkəs gələcək qələbədir. Sabah artıq tarixin ixtiyarındadır. Azərbaycan xalqı gələcək qələbənin xəyalı ilə yaşayır. Xalqımızın yaraları, acıları, məğrurluğu və şücaəti bu qələbənin mənbəyidir.

## 23-cü KÖNÜLLÜ QUBA-QUSAR MOTOATICI BATALYONUN DÖYÜŞÇÜSÜ, ZABİT GÜLAĞA MEHRAĞA OĞLU SULTANOVA

***(G.Sultanov 1993-cü il 10 dekabr tarixindən – 1994-cü il 16 fevral tarixinədək Xocavənd istiqamətində erməni təcavüzkarlarına qarşı döyüşlərdə iştirak edib)***

Hörmətli Gülağa müəllim! Yazdığınız həyat hekayənizi, yaşadığunuz döyüş xatirələrinizi həvəslə oxudum. Hətta hər cümləni, baş verən hadisələri dəqiqliklə yadda saxlamaq üçün təkrar oxudum.

Siz dünəninizə iftixar hissi ilə baxa bilərsiniz. Çünki mənalı, hər an Vətən üçün ölümə hazır olan, Vətən qarşısında öz borcunu layiqincə yerinə yetirən bir insansınız.

Mənim fikrimcə bu, hamıya nəsib olan xoşbəxtlik deyil. Çünki Siz bir çoxları kimi Azərbaycanın ağır günlərində boş sözlərlə «Vətən, Vətən» deyib, sadəcə olaraq meydanlarda qışqırmaqla kifayətlənməmisiniz. Əməllərinizlə Vətənə olan məhəbbətinizi göstərmisiniz. Dəfələrlə ölümlə üz-üzə gəlsəniz də qorxunun nə olduğunu bilməmisiniz.

Dahi rus yazıçısı L.N.Tolstoy «Xoşbəxtlik nədir?» sualına belə cavab verirdi:

«Xoşbəxtlik hər şeydən əvvəl Vətən qarşısında öz borcunu vətənpərvərcəsinə yerinə yetirməkdir. Borcun yerinə yetirilməsi isə həmişə insana təskinlik, məmnunluq, qısacası vicdani rahatlıq verir. Bu da xoşbəxtlik üçün mühüm şərtdir».

Burdan belə bir nəticəyə gəlirəm ki, Siz həm də xoşbəxtsiniz. Ona görə xoşbəxtsiniz ki, vicdanınız təmizdir.

Dahi şairimiz Bəxtiyar Vahabzadənin «Etiraf» poemasında dediyi kimi:

> Xoşbəxt o şəxsdir ki, yoxdur bir ləkə
> Ömür kitabının vərəqlərində.

Özgənin danlağı xoşdur min kərə
Vicdan danlağından, öz danlağından.
Xoşbəxtdir, uymayıb özgə səslərə
Vicdanın səsini dinləyən insan.

İllər ötəcək, fəsillər dəyişəcək, Azərbaycanın ağır günlərində ona dayaq çıxan insanlar isə heç vaxt unudulmayacaq.

Hörmətli Gülağa müəllim! Sizə uzun ömür, cansağlığı arzulayıram. Siz o günlərin ağrısını, acısını yaşamış, neçə-neçə qəhrəman oğulların Vətən üçün canlarından keçməsinin şahidi olmusunuz. Yəni canlı tarixsiniz, indiki gənclərimizə örnəksiniz.

**Mariya Nəcəf qızı Pirimova,**
İsaq Xanukov adına 1 nömrəli Qırmızı Qəsəbə
orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini

## Quba-Qusar batalyonunun yaranma günü qeyd olundu

Hər il olduğu kimi bu ildə ilin axırına 3 gün qalmış yenə bir yerə yığışmışdılar. Bunlar Quba-Qusar batalyonunun veteranları idi.

Tədbir iştirakçıları ilk öncə "Şəhidlər xiyabanı"nda dəfn olunmuş döyüş yoldaşlarının məzarlarını ziyarət etdilər və Vətən yolunda canlarını qurban vermiş oğullarımızın ruhlarına dualar oxudular. Sonra tədbir rayon mədəniyyət sarayında davam etdirildi. Ümummilli liderimiz Heydər Əliyevin və şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildikdən sonra Quba-Qusar batalyonun döyüş bayrağı səhnəyə gətirildi. Azərbaycan Vətən Müharibəsi veteranları birliyi rayon şöbəsinin sədri İsmayıl Babayev məruzə ilə çıxış edərək təşkilatın gördüyü işlər barədə məlumat verdi. O qeyd etdi ki, ölkəmizdə veteranlara həmişə qayğı və diqqət göstərilir, onların sosial problemlərinin, o cümlədən mənzil şəraitlərinin yaxşı-

laşdırılması istiqamətində işlər görülür. Bu baxımdan rayonumuzda da icra hakimiyyətinin başçısı tərəfindən veteranlara müəyyən köməkliklər göstərilir. RİH başçısı Rauf Həbibovun təşəbbüsü ilə and yerimiz olan "Şəhidlər xiyabanı"nın yenidən qurulması bizim üçün çox sevindirici haldır. Lakin elə məsələlər var ki, onlar ancaq yuxarı təşkilatlar səviyyəsində həll olunmalıdır. Ürəyimizi ağrıdan odur ki, cəbhədə igidlik göstərmiş, onlarla şəhid və yaralısı olan Quba-Qusar batalyonunun bir çox döyüşçüləri hələ də müharibədə iştirak etmələri barədə sənəd ala bilməmişlər. Dəfələrlə Müdafiə Nazirliyinə, yuxarı təşkilatlara müraciət etsək də, hələlik heç nəyə nail ola bilməmişik.

Atəşkəsin əldə olunmasından 14 il ötsə də biz hər an döyüşə hazırıq. Ali Baş komandanın əmrini gözləyirik.

Tədbirdə iştirak edən RİH başçısının birinci müavini Yusif Abidov veteranları rayon icra hakimiyyəti başçısı Rauf Həbibovun adından salamlayaraq, onlara öz xoş arzularını bildirdi. O qeyd etdi ki, öz iqtisadi qüdrətinə görə ilbəil güclənən respublikamızda ordu quruculuğuna böyük diqqət göstərilir. Ölkə Prezidenti şəhid ailələrinin, əlillərin və Qarabağ veteranlarının sosial problemlərinin, o cümlədən mənzil şəraitinin yaxşılaşdırılması üçün mütəmadi tədbirlər görür. Bu baxımdan rayonumuzda da bir neçə yaşayış evi tikilib. Tədbirdə vaxtı ilə rayonumuzda prokuror işləmiş, batalyonun yaranmasında yaxından iştirak etmiş Bakı şəhər Sabunçu rayon prokurorunun köməkçisi Əli Eyvazov, AVMVB-nın sədri Fizuli Rzaquliyev, onun birinci müavini Kamil Şirinov, rayon hərbi komissarının müavini Yaşar Məmmədov və başqaları çıxış etdilər. Təntənəli yığıncaq ziyafət məclisində davam etdirildi.

**M.Məmmədov**

"Şəfəq" qəzeti. – 2009. – 16 yanvar

## Veteranlar görüşdülər

Quba batalyonunun yaranması şanlı tariximizin çox ağır günlərinə təsadüf edir. 1993-cü ilin noyabr-dekabr aylarında bütün cəbhə boyu ağır döyüşlər gedirdi. Erməni işğalçıları Beyləqan rayonu sərhədlərinə qədər irəliləmişdilər. Belə bir vaxtda Azərbaycan Respublikası Prezidenti H.Əliyev xalqa müraciət etdi. Vətən torpaqlarını işğaldan azad etmək məqsədilə minlərlə gənc, o cümlədən qubalı gənclər də könüllü olaraq cəbhəyə yola düşdülər. Noyabr-dekabr aylarında 23 saylı Quba-Qusar özünümüdafiə batalyonu yaradıldı. İlk döyüşə dekabr ayının 27-də girən Quba batalyonu qısa müddətdə şərəfli bir yol keçdi.

Bu günlərdə – Dünya Azərbaycanlılarının Həmrəyliyi günü ərəfəsində bir araya gələn veteranlar əvvəlcə "Şəhidlər xiyabanı"nı ziyarət etdilər. Öz döyüş yoldaşlarının məzarları üstünə tər qərənfillər düzdülər.

Sonra şəhər icra nümayəndəliyinin iclas zalında yığıncaq keçirildi. Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi (AVMVB) rayon şöbəsinin sədri İ.Babayev, AVMVB-nin sədr müavini M.Hacıyev, rayon hərbi komissarının vəzifəsini icra edən Y.Məmmədov çıxış edərək veteranlara, şəhid ailələrinə, əlillərə göstərilən qayğıdan və onların problemlərindən danışdılar.

Yığıncaqda vahid bir fikir vurğulandı ki, Vətən torpaqlarını işğaldan azad etmək üçün, lazım gələrsə, veteranlar yenidən döyüş meydanına atılmağa hər an hazırdırlar.

**"Şəfəq" qəzeti. – 2009. – 30 dekabrl**

## Və bütün bunlara söz ardı

Şəhidlik həyatın ən uca zirvəsidir. Bu zirvəni fəth edənlər, Qarabağ uğrunda şəhid olanlar Vətən, xalq qarşısında müqəddəs borclarını verib, şəhidlik, xoşbəxtlik zirvəsinə qalxıblar. Bizlər, sağ qalıb yaşayanlar isə hələ də borcluyuq. Vətənə, xalqa, şəhidlərə borcluyuq. Biz Qarabağı azad etməklə borcumuzu ödəyə bilərik. Bu ağır borcla, məsuliyyətli yüklə yaşamaq çox çətindir. Ulu tanrı yardımçımız olsun! Bütün oxuculara və hər kəsə bu yükü çiyinlərində duymaq, daşımaq hissini arzulayırıq və bu yükdən qurtulmaq əzmi, dönməz mübarizə əzmi diləyirik.

Hamılıqla, qanımızla, canımızla, əməlimizlə Vətən uğrunda – döyüşlərə! Uğur olsun!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sözləri «Azərbaycan torpaqlarında daha bir erməni dövləti yaradıla bilməz... Azərbaycan bununla heç vaxt razılaşmayacaq və bu, heç vaxt baş verməyəcək" hər bir Azərbaycan vətəndaşının həyat amalına çevrilməlidir.

İnanırıq, buna qəti əminik ki, qələbəmizin şanlı günü uzaqda deyil. Torpaqlarımızı sülh yolu ilə geri qaytara bilmədikdə hamının, bütün Vətən övladlarının bir nəfər kimi döyüş meydanına atılacağı günə – o möhtəşəm qələbəyə lap az qalıb: o qələbən mübarək, Azərbaycan!

# ƏLAVƏLƏR

**ƏLAVƏ 1**

## N Hərbi hissəsinin nəzdində 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunu döyüşçülərinin ÜMUMİ SİYAHISI

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 1 | Eyvazov Əli Xançoban oğlu | 1954 | Ermənistan SSR, Quqark rayonu | Batalyon. komandiri, yaralanıb |
| 2 | Abbasov Abasəli Qazı oğlu | 1957 | I Nügədi kəndi | II rota starşina, II qrup əlil. yaralanıb |
| 3 | Abbasov İlham Bəşir oğlu | 1973 | Quba şəhəri | Yaralanıb |
| 4 | Abbasov Məmməd Məcnun oğlu | 1965 | Quba şəhəri | Yaralanıb |
| 5 | Abbasov Rasim Əziz oğlu | 1966 | Alpan kəndi | |
| 6 | Abbasov Urfan Fərman oğlu | 1967 | Şuduq kəndi | |
| 7 | Abdulkərimov Sərvər Zeynəddin oğlu | 1963 | Qusar rayonu Bala-Qusar kəndi | Şəhid olub. 28.12.1993. |
| 8 | Abdullayev Elman Sabir oğlu | 1969 | Quba şəhəri | |
| 9 | Abdullayev Fərrux Məmmədrza oğlu | 1969 | İqriq kəndi | |
| 10 | Abdullayev Mövsüm Xosrov oğlu | 1973 | Quba şəhəri | |
| 11 | Abdullayev Müzəffər Aybala oğlu | 1967 | Quba şəhəri | |
| 12 | Abdullayev Nadir Rəcəb oğlu | | Zərdabi kəndi | |
| 13 | Abdullayev Rafiq Hüseyn oğlu | 1972 | Püstəqasım kəndi | |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 14 | Aboyev İmran Şaməddin oğlu | 1968 | Aşağı Atuc kəndi | |
| 15 | Adıgözəlov Azay Şəmsəddin oğlu | 1944 | Vladimirovka kəndi | |
| 16 | Adilov Adil Kamil oğlu | 1957 | Vəlvələ kəndi | |
| 17 | Adilov Aqşin Nazəmməd oğlu | 1969 | Ərməki kəndi | Yaralanıb |
| 18 | Ağabalayev Eynulla İdris oğlu | 1963 | Yerfi kəndi | |
| 19 | Ağabalayev Nazim Əmirşah oğlu | 1970 | Vladimirovka kəndi | Vəfat edib |
| 20 | Ağabəyov Bəxtiyar Seyfulla oğlu | 1963 | Tüləkəran kəndi | II qr. əlil |
| 21 | Ağabəyov Minətalı Məhərrəm oğlu | 1962 | Qusar şəhəri | |
| 22 | Ağakişiyev Firdovsi Nəhbala oğlu | 1967 | Təngəaltı kəndi | |
| 23 | Ağakişiyev Nəzər Arif oğlu | 1969 | Yerfi kəndi | II qrup əlil |
| 24 | Ağamirzəyev Zəfər Şakir oğlu | 1971 | Küpçal kəndi | |
| 25 | Ağasıyev Əfqan Qulam oğlu | 1971 | Vəlvələ kəndi | |
| 26 | Ağasıyev Sahib Abbul oğlu | 1964 | Quba şəhəri | |
| 27 | Ağayev Xosrov Əlibaba oğlu | 1969 | II Nügədi kəndi | |
| 28 | Ağayev Mehman Bəkir oğlu | 1966 | I Nügədi kəndi | İtgin düşüb 01.02.1994 |
| 29 | Ağayev Zahid Sabir oğlu | 1969 | Aşağı Atuc kəndi | |
| 30 | Alxasov Heydər Səttar oğlu | 1970 | Rük kəndi | |
| 31 | Alxasov Şakir Həbib oğlu | 1969 | Cek Palasa | |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 32 | Allahquliyev Alış Həmid oğlu | 1966 | Aşağı Xuc kəndi | |
| 33 | Allahverdiyev Əliyar Əziz oğlu | 1968 | Alpan kəndi | |
| 34 | Allahverdiyev İlqar Əmirşah oğlu | 1967 | Timiryazevka qəsəbəsi | |
| 35 | Alməmmədov Cavanşir Mirzağa oğlu | 1967 | Yelenovka kəndi | |
| 36 | Arazov Tahir Nəcəf oğlu | 1960 | Qonaqkənd kəndi | |
| 37 | Arzumanov Füzuli Səfər oğlu | 1970 | Aşağı Atuc kəndi | |
| 38 | Aslanov Faiq Sabir oğlu | 1972 | Küpçal kəndi | |
| 39 | Aslanov İlyas Qarabala oğlu | 1972 | İsnov kəndi | |
| 40 | Aslanov Yaşar Qocaman oğlu | 1967 | Zərqava kəndi | |
| 41 | Aşkari Vahab Baloğlan oğlu | 1955 | Zərdabi kəndi | |
| 42 | Atakişiyev Əzizbəy Mirzağa oğlu | 1962 | Aşağı Susay kəndi | |
| 43 | Atayev Şöhrət Bədrəddin oğlu | 1973 | Talabı kəndi | |
| 44 | Ayıbov Comərd Ayıb oğlu | 1961 | Küpçal kəndi | |
| 45 | Babayev Ağa Cabbar oğlu | 1970 | Rük kəndi | Şəhid olub. 01.02.1994 |
| 46 | Babayev Azər Ağamurad oğlu | 1958 | Alpan kəndi | |
| 47 | Babayev Bəhruz Cavanşir oğlu | 1970 | Zizik kəndi | |
| 48 | Babayev Ənvər Mayıl oğlu | 1973 | Zərdabi kəndi | |
| 49 | Babayev Əşrəf Hamlet oğlu | 1970 | Alpan kəndi | |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 50 | Babayev İsmayıl Mayıl oğlu | 1954 | Quba şəhəri | Motoatıcı tağımın komandiri (III bölük komandiri) |
| 51 | Babayev Kamil Ağa oğlu | 1970 | Susay kəndi | |
| 52 | Babayev Qafar Piri oğlu | 1970 | I Nügədi kəndi | |
| 53 | Babayev Qazi Şixi oğlu | 1969 | Susay kəndi | |
| 54 | Babayev Nazim Murad oğlu | 1965 | Alpan kəndi | |
| 55 | Babayev Novruz Misir oğlu | 1964 | Yelenovka kəndi | |
| 56 | Babayev Söhbət Mehralı oğlu | 1969 | Zərdabi kəndi | |
| 57 | Babayev Şahbaba Balasultan oğlu | 1958 | Alpan kəndi | Arxa cəbhə üzrə batalyon kom. üavini |
| 58 | Babayev Şeyda Məhəmməd oğlu | 1973 | Vəlvələ kəndi | |
| 59 | Babayev Telman İsgəndər oğlu | 1970 | Aşağı Atuc kəndi | |
| 60 | Babayev Zöhrət Mehralı oğlu | 1969 | Zərdabi kəndi | |
| 61 | Badifari Etibar Qulamhüseyn oğlu | 1969 | Zərdabi kəndi | |
| 62 | Bağıyev Mübariz Məhbulla oğlu | 1971 | I Nügədi kəndi | |
| 63 | Baxışov Nəzur Sabir oğlu | 1962 | Xucbala kəndi | |
| 64 | Balaqadaşov Əlşən Firudin oğlu | 1970 | Zərqava kəndi | |
| 65 | Balaqadaşov Nəcəf Ağaşirin oğlu | 1972 | Qusar rayonu Bala-Qusar kəndi | Şəhid olub. 03.03.1994. |
| 66 | Balaqadaşov Sirac Oktay oğlu | 1968 | Paşa oba | |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 67 | Bayraqdarov Hümbət İsa oğlu | 1966 | Vladimirovka kəndi | Yaralanıb 01.02.1994 |
| 68 | Bayramov Əmirbəy Hadəşbəy oğlu | 1968 | Rustov kəndi | |
| 69 | Bayramov Əzizağa Əhmədağa oğlu | 1970 | I Nügədi kəndi | Yaralanıb |
| 70 | Bayramov Mehman Şükürağa oğlu | 1964 | Quba şəhəri | |
| 71 | Bayramov Mikayıl Şikrulla oğlu | 1958 | Quba şəhəri | |
| 72 | Bayramov Namiq Sultan oğlu | 1954 | Quba şəhəri | II qr. əlil |
| 73 | Bayrampur İbrahim Bayram oğlu | 1968 | Zərdabi kəndi | |
| 74 | Becanov Yaqub Ramazan oğlu | 1968 | Pirvahid kəndi | |
| 75 | Bədəlov Fətulla İmamulla oğlu | 1969 | Qusar rayonu | |
| 76 | Bədəlov İlham Şıxməmməd oğlu | 1964 | Zərdabi kəndi | |
| 77 | Bədəlov Mahir Ayıbxan oğlu | 1969 | Qusar rayonu Xurel kəndi | |
| 78 | Bədirxanov İlqar Həbib oğlu | 1964 | Quba şəhəri | |
| 79 | Bəşirov İskəndər Təmindar oğlu | 1959 | Vladimirovka kəndi | |
| 80 | Butayev Ceyhun Qəzənfər oğlu | 1963 | Alpan kəndi | |
| 81 | Cabbarov Fərrux Tapdıq oğlu | 1959 | Vladimirovka kəndi | |
| 82 | Cabbarov Miqdar Cabbar oğlu | 1971 | Susay kəndi | |
| 83 | Camalov Əsgər İmaməddin oğlu | 1972 | Bağbanlı kəndi | |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 84 | Camalov Rüstəm Camal oğlu | 1966 | Quba şəhəri | Kəşviyyat tağımının komandiri |
| 85 | Cavadov Cavad Sevindik oğlu | 1971 | I Nügədi kəndi | |
| 86 | Cavadov Fizuli Əlibala oğlu | 1967 | Xaltan kəndi | |
| 87 | Cavadov Kamil Dədəqulu oğlu | 1966 | Xaltan kəndi | |
| 88 | Cəbiyev İlqar Qəmzə oğlu | 1974 | İsnov kəndi | |
| 89 | Cəbrayılov Nəzarət Bazar oğlu | 1966 | Bərqov kəndi | II qr. əlil |
| 90 | Cəfərov İsmət Məmməd oğlu | 1956 | Vladimirovka kəndi | II bölüyün komandiri |
| 91 | Cəfərov Kamil Arif oğlu | 1964 | İsnov kəndi | |
| 92 | Cəfərov Yusif Seyfəli oğlu | 1966 | Vladimirovka kəndi | |
| 93 | Cəlalov Əsgər İmadəddin oğlu | 1972 | Bağbanlı kəndi | |
| 94 | Cəlilov Qabil Bahəddin oğlu | 1970 | Küləzi kəndi | |
| 95 | Cəmilzadə Ürfan Əlihəsən oğlu | 1969 | İsnov kəndi | Yaralanıb |
| 96 | Çobanov Azad İmamrza oğlu | 1968 | Qusar rayonu Bədirqala kəndi | |
| 97 | Dadaşov Bəhruz Balaməd oğlu | 1964 | Küpçal kəndi | |
| 98 | Dadaşov Laçın Şaxbala oğlu | 1971 | Buduq kəndi | |
| 99 | Dadaşov Ramin Ağalar oğlu | 1970 | Pirvahid kəndi | Şəhid olub. 31.01.94. |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 100 | Dadaşov Rəsul Arzuman oğlu | 1969 | Zərdabi kəndi | |
| 101 | Dadaşov Ümud Əlihadi oğlu | 1966 | Alpan kəndi | |
| 102 | Daniyarov Bəxtiyar Seyfəddin oğlu | 1966 | Qarxun kəndi | |
| 103 | Daniyarov İsgəndər Hidayət oğlu | 1964 | Qarxun kəndi | |
| 104 | Daniyarov Məhəmməd Daniyar oğlu | 1969 | Qarxun kəndi | Yaralanıb |
| 105 | Daşdəmirov Fikrət Nadir oğlu | 1967 | İqrid kəndi | |
| 106 | Daşdəmirov Mübariz Yadigar oğlu | 1967 | Ərməki kəndi | |
| 107 | Daşdəmirov Niyazi Canmirzə oğlu | 1965 | Davidoba kəndi | |
| 108 | Daşdəmirov Sadiq Gülbala oğlu | 1967 | Davidoba kəndi | |
| 109 | Dostuyev Ənvər Nəcməddin oğlu | 1972 | Almas Qazmaları kəndi | Şəhid olub. 08.03.1994 |
| 110 | Dövlətov Rauf Cəmaləddin oğlu | 1968 | Dərk kəndi | |
| 111 | Duruskari Gülağa Mirzağa oğlu | 1963 | I Nügədi kəndi | |
| 112 | Eldarov Telman Həmid oğlu | 1970 | Qaraçay kəndi | |
| 113 | Əbdürrəhmanov Eynulla Fətulla | 1967 | Xucbala kəndi | |
| 114 | Əbdürrəhmanov Kamran Fərman oğlu | 1965 | Yelenovka kəndi | |
| 115 | Əhmədov İlqar Əlibala oğlu | 1969 | Alpan kəndi | |
| 116 | Əhmədov Mobil Mirab oğlu | 1960 | Zərdabi kəndi | Qərargah rəisi, baş leytnant |
| 117 | Əhmədov Mübariz Sabir oğlu | 1973 | Alpan kəndi | |
| 118 | Əhmədov Seyran Əhməd | 1971 | Alpan kəndi | II qr. əlil |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 119 | Əhmədov Yadigar Nuğrat oğlu | 1962 | Zərqava kəndi | |
| 120 | Əhmədpaşayev Kamil Kamal oğlu | 1972 | Rük kəndi | Vəfat edib |
| 121 | Əkbərov Ceyhun Şamil oğlu | 1967 | Quba şəhəri | |
| 122 | Əkbərov Elşad Baba oğlu | 1971 | Alekseyevka kəndi | |
| 123 | Əkbərov Ədalət | 1964 | Quba şəhəri | |
| 124 | Əkbərov Əkbər Babalar oğlu | 1973 | Rustov kəndi | |
| 125 | Əkbərov Kazım Nüsrət oğlu | 1972 | I Nügədi kəndi | |
| 126 | Ələddinov Bəxtiyar Osman oğlu | 1964 | Petropavlovka kəndi | |
| 127 | Ələsgərov Pənah Ələkbər oğlu | 1970 | Rük kəndi | |
| 128 | Əlicabbarov Həzrət Süleymanpaşa oğlu | 1956 | II Nügədi kəndi | III bölük komandiri |
| 129 | Əlixanov Asif Əsgər oğlu | 1968 | Küpçal kəndi | |
| 130 | Əlixanov Siracəddin Şirinəli oğlu | 1960 | Rustov kəndi | |
| 131 | Əlimxanov Nazim Şahnəzər oğlu | 1970 | Zərqava kəndi | |
| 132 | Əlipənahov Kamil Ağagül oğlu | 1967 | Yerfi kəndi | Şəhid olub. 30.02.1994. |
| 133 | Əliyarov Eldar Əlyar oğlu | 1971 | Qusar rayonu Giləgir kəndi | Şəhid olub. 31.01.1994. |
| 134 | Əliyev Abdul Teymurşah oğlu | 1971 | Qonaqkənd kəndi | |
| 135 | Əliyev Adıgözəl Əliosman oğlu | 1970 | Qonaqkənd kəndi | |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 136 | Əliyev Azad Məmməd oğlu | 1962 | Quba şəhəri | |
| 137 | Əliyev Bayram Məmməd oğlu | 1960 | Vəlvələ kəndi | |
| 138 | Əliyev Elşad Teymur oğlu | 1971 | Qaravülüstü kəndi | Şəhid olub. 03.03.1994. |
| 139 | Əliyev Elşən Ələm oğlu | 1970 | Talabı kəndi | |
| 140 | Əliyev Əhməd Məmməd oğlu | 1961 | Zərqava kəndi | |
| 141 | Əliyev Əli Xalıq oğlu | 1968 | Quba şəhəri | II qr. əlil |
| 142 | Əliyev Ənvər Əli oğlu | 1971 | Buduq kəndi | |
| 143 | Əliyev Hicran Aydın oğlu | 1972 | Mahmud Uslaq kəndi | Şəhid olub. 30.12.1993. |
| 144 | Əliyev Xalid Ağaheseyn oğlu | 1971 | Quba şəhəri | |
| 145 | Əliyev İbrahim Əlibala oğlu | 1959 | Yelenovka kəndi | |
| 146 | Əliyev Malik İmam oğlu | 1968 | Qonaqkənd kəndi | |
| 147 | Əliyev Tofiq Tağı oğlu | 1964 | Qusar şəhəri | |
| 148 | Əmirxanov Fuad İsmət oğlu | 1967 | Quba şəhəri | |
| 149 | Əmirov Mirməmməd Əliməmməd oğlu | 1966 | Çiçi kəndi | |
| 150 | Əsədullayev Hüseyn Qubad oğlu | 1965 | Qusar rayonu Bala-qusar kəndi | II qr. əlil. Yaralanıb |
| 151 | Əsgərov Xələf Sədrəddin oğlu | 1971 | Zizik kəndi | |
| 152 | Əsgərov Rauf Ələziz oğlu | 1963 | Alpan kəndi | |
| 153 | Əsgərov Vəliyulla Müslüm oğlu | 1964 | Quba şəhəri | |



Quba şəhərinin Şəhidlər xiyabanından ümumi görünüş



**Quba şəhərinin Şəhidlər xiyabanı Qubanın ən müqəddəs yerlərindən biridir.**



**Qusar rayonundakı N Hərbi hissənin nəzdində 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonu döyüşçülərini cəbhəyə yolasalma mərasimində. 1993-cü il, 14 noyabr.**



**Qusar rayonundakı N Hərbi hissənin nəzdində 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonu döyüşçülərini cəbhəyə yolasalma mərasimində. 1993-cü il, 14 noyabr.**



**Quba rayonunun Hərbi Komissarı Vadim Rəhimov cəbhəyə yola düşən 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonu döyüşçülərinin siyahılarını dəqiqləşdirir (solda – Batalyonun II bölük komandiri İsmət Cəfərov). 1993-cü il, 14 noyabr.**



**Qusardakı N Hərbi Hissənin klubunda cəbhəyə yola düşən 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonu döyüşçüləri qarşısında konsert.**



Qusardakı N Hərbi Hissənin cəbhəyə yola düşən 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonu döyüşçüləri və onları yola salanlar konsert proqramını dinləyərkən.



23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonu döyüşçüləri cəbhəyə yola düşərkən (ön planda Batalyonun II bölük komandiri İsmət Cəfərov).



**23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun təlim komandiri Azay Adıgözəlov (sağda 1-ci) batalyonun şəxsi heyətinin cəbhəyə yola düşməsi barədə batalyon komandiri, Quba rayon prokuroru Əli Eyvazova (solda 1-ci raport verir). 1993-cü il, 14 noyabr.**





Cəbhəyə yola düşən 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonu döyüşçüləri və ictimaiyyət qarşısında əsgər anasının çıxışı (1993-cü il, 14 noyabr).



Qusar və Quba rayonlarının ictimaiyyəti 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun igid döyüşçülərini cəbhəyə yola salır.



**Cəbhəyə yola düşən 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun döyüşçüləri müqəddəs "Qurani-Kərim"in altından keçərkən (döyüşçüləri yola salan Quba axundu Məmmədtağı Əhmədov) 1993-cü il, 14 noyabr.**



**Ağcabədi rayonunun Kəbirli Kəndindəki cəbhə xəttində Şişqaya yüksəkliyinin yaxınlığında 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun düşərgəsi (1993-cü il, dekabr).**



23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun döyüşçülərinə sovqat və məktublar gətirmiş Quba rayon İcra Hakimiyyəti başçısının müavini Buxsay İskəndərov (2-ci sırada soldan 4-cü).



Batalyon komandiri, Quba rayon prokuroru Əli Eyvazov (solda, şair Qədir Paşa Elsevər, ortada və batalyonun təlim komandiri Azay Adıgözəlov) sağda cəbhə bölgəsində. 1994-cü il, yanvar.



**Ağcabədi rayonunun Kəbirli Kəndində Batalyon komandiri Əli Eyvazov növbəti döyüş ərəfəsində hərbi müşavirədə.**



**Batalyon komandiri Əli Eyvazov Şişqaya yüksəkliyi uğrunda gedən qanlı döyüşdə.**



Batalyon komandiri Əli Eyvazov Şişqaya yüksəkliyi uğrunda gedən qanlı döyüşdə.



23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun döyüşçüləri Şişqaya uğrunda gedən döyüşdə düşmənin mövqelərinə Zenit qurğusundan atəş açarkən.



**23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun döyüşçüləri Xocavənd rayonunun Şişqaya yüksəkliyi uğrunda gedən qanlı döyüşdə.**



**23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun döyüşçüləri Xocavənd rayonunun Şişqaya yüksəkliyi uğrunda gedən qanlı döyüşdə.**



**Nərgiztəpə yüksəkliyi uğrunda aparılacaq döyüş ərəfəsində batalyon komandiri Əli Eyvazov (ortada) zenit qurğularının hazırlığını yoxlayan zaman (solda – Quba rayon Xalq Deputatları Sovetinin sədri Nadir Əbdürrəhmanov, sağda şair Qədir Paşayev, arxa planda Quba rayon Məhkəməsinin sədri Ənvər Şadıyev).**



**23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonu döyüşçüləri Nərgiztəpə yüksəkliyi uğrunda aparılacaq döyüş ərəfəsində səngərdə (ön planda batalyon komandiri Əli Eyvazov).**



**23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun igid döyüşçüləri növbəti döyüşdən sonra.**



**Batalyon komandiri Əli Eyvazov (solda 2-ci), 23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonu döyüşçülərinə növbəti döyüş tapşırığı verərkən.**



Şair Qədir Paşa Elsevər cəbhə bölgəsində qeydlər aparаrkən (solda), Quba rayon Məhkəməsinin sədri Ənvər Şadıyev (sağda).



23 nömrəli Quba-Qusar özünümüdafiə könüllülər batalyonunun igid döyüşçüləri düşərgədə. 1994-cü il, fevral.



**1993-cü ilin dekabr ayında Quba Şəhidlər Xiyabanında şəhidin dəfn mərasimi.**
**İştirak edirlər 2-ci sırada soldan 3-cü – Quba rayon Xalq Deputatları Sovetinin sədri Nadir Əbdürəhmanov, 4-cü, hərbi formada batalyon komandiri, rayon prokuroru Əli Eyvazov.**
**1-ci sırada şəhid olmuş döyüşçünün cəbhə silahdaşları.**



**Quba döyüşçülərinin Ağdamın Şelli kəndindəki hərbi düşərgəsi (1992-ci il).**



Quba-Qusar batalyonunun bir qrup döyüşçüləri Ağdamın Xırman kəndində.



**Quba-Qusar batalyonunun döyüşçüləri "Quba" Aqrofirmasının baş direktoru Qədir Paşayevlə birgə Xocavənd istiqamətindəki Şişqaya-Nərgiztəpə yüksəkliyində (Soldan sağa – Azay Adıgözəlov, batalyon komandiri Əli Eyvazov, Şahin Ələkbərov, Qədir Paşa Elsevər).**



**Quba-Qusar batalyonunun bir qrup döyüşçüləri şair Qədir Paşa Elsevərlə Xocavənd istiqamətindəki Nərgiztəpə yüksəkliyində. Döyüşdən sonra (2-ci sırada sağdan sola 3-cü batalyon komandiri Əli Eyvazov).**



**Quba-Qusar batalyonunun bir qrup döyüşçüləri Qədir Paşayevlə Xocavəndin Şişqaya istiqamətində döyüş ərəfəsində (2-ci sırada sağdan sola 4-cü şəxs batalyon komandiri Əli Eyvazov).**



**Quba-Qusar batalyonunun bir sıra döyüşçüləri döyüş ərəfəsində (2-ci sırada sağdan sola 6-cı şəxs batalyon komandiri Əli Eyvazov).**




**Quba–Qusar batalyonunun əsgər və zabitləri ilə görüşə gəlmiş Quba rayonunun nümayəndələri (soldan sağa: İsmət Cəfərov – 2-ci bölüyün komandiri, Mirzəxan Qəniyev İcra Hakimiyyəti başçısının müavini, İsmayıl Babayev – 3-cü bölüyün komandiri, Buxsay İsgəndərov – Quba rayon İcra Hakimiyyəti başçısının müavini).**



**Quba rayon prokuroru Əli Eyvazov (sol sırada ortada)
şəhid olmuş batalyon döyüşçüsünün dəfn mərasimində (yanvar, 1994-cü il).**



**Sağda Quba rayon Xalq Deputatları Sovetinin sədri Nadir Əbdürrəhmanov, sağda Quba rayon prokuroru Əli Eyvazov və batalyon döyüşçüləri şəhid olmuş batalyon döyüşçüsünün dəfn mərasimində (1994-cü il).**



Döyüş bölgəsindən Quba rayonuna qısa müddətə qayıtmış rayon prokuroru Əli Eyvazov (ortada), bir sıra batalyon döyüşçüləri və rayon ictimaiyyəti Quba Şəhidlər Xiyabanını ziyarət edərkən (1994-cü il).



Quba rayon prokuroru, batalyon komandiri Əli Eyvazov batalyon döyüşçüləri ilə birgə şəhid olmuş batalyon döyüşçüsünün dəfn mərasimində (1993-cü il).




**Birinci sırada (soldan-sağa) Quba rayon hərbi komissarlığının nümayəndəsi, Quba rayon Məhkəməsinin sədri Ənvər Şadiyev, Quba rayon Xalq Deputatları Sovetinin sədri Nadir Əbdürrəhmanov, Quba rayon prokuroru Əli Eyvazov, Quba rayon İcra Hakimiyyətinin başçısı Vaqif Mahmudov bir sıra batalyon üzvləri və rayon ictimaiyyəti ilə birgə Şəhidlər Xiyabanını ziyarət edirlər.**



**Quba batalyonunda şəhid olmuş döyüşçünün dəfn mərasimi. Quba rayon Xalq Deputatları Sovetinin sədri Nadir Əbdürrəhmanov, Quba rayon Məhkəməsinin sədri Ənvər Şadiyev, Quba rayon prokuroru Əli Eyvazov (ön planda soldan sağa).**




Quba rayon prokuroru Əli Eyvazov (solda) rayonun tanınmış müəllimi,
daş üzrə unikal usta Qərib müəllimlə şəhid qəbrini ziyarət edərkən (1995-ci il).



**Azərbaycan Respublikası Milli Məclisinin deputatı Arif Rəhimzadə (ortada), bir sıra rayon ziyalıları və qonaqlar Quba rayon Tarix-Diyarşünaslıq Muzeyinə veriləcək daş üzrə unikal usta Qərib müəllimin əl işləri ilə tanış olurlar.**

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 154 | Əyyibov Comərd Əyyub oğlu | 1964 | Küpçal kəndi | II qr. əlil |
| 155 | Əzizov Əzəmməd Əhəd oğlu | 1970 | Alekseyevka kəndi | |
| 156 | Əzizov Gülağa Əziz oğlu | 1960 | Alekseyevka kəndi | |
| 157 | Əzizov Nadir Sultanməcid oğlu | 1966 | Alpan kəndi | İtgin düşüb 01.02.1994. |
| 158 | Əzizov Üzeyir Məmmədqulu oğlu | 1973 | Xaltan kəndi | |
| 159 | Əzizov Vüqar Vaqif oğlu | 1971 | Qonaqkənd kəndi | |
| 160 | Fərzəliyev Kamran Nurəhməd oğlu | 1973 | Dağlı kəndi | |
| 161 | Fətullayev Elşən Mirzə oğlu | 1969 | Qonaqkənd kəndi | |
| 162 | Fətullayev Süleyman Məmməd oğlu | 1968 | Quba şəhəri | |
| 163 | Güliyev İslam Canmirzə oğlu | 1966 | Alpan kəndi | |
| 164 | Gülməmmədov Ağamirzə Balamirzə oğlu | 1973 | Qusar rayonu Cağarqışlaq kəndi | |
| 165 | Gülüyev Əfqan Sabir oğlu | 1966 | Alpan kəndi | |
| 166 | Günəşli Kamal Həsən oğlu | 1964 | Quba şəhəri | |
| 167 | Günəşov Sübhan Lətif oğlu | 1978 | Qaraçay kəndi | |
| 168 | Hacbalayev Hafiz Hacbala oğlu | 1970 | Tüləkəran kəndi | |
| 169 | Hacıbabayev Əşrəf Hacıağa oğlu | 1971 | Küləzi kəndi | |
| 170 | Hacıəhmədov Habil Məhyəddin oğlu | 1963 | Əlibəyqışlaq kəndi | Yaralanıb |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 171 | Hacımuradov Racəddin Ağamurad oğlu | 1960 | Qusar şəhəri | |
| 172 | Hacıyev Camal Seyfəddin oğlu | 1970 | Zərqava kəndi | |
| 173 | Hacıyev Elxan Tərlan oğlu | 1966 | Dərk kəndi | Şəhid olub. 03.03.1994. |
| 174 | Hacıyev Eynulla Cahangir oğlu | 1967 | Qusar rayonu Ciləgir kəndi | |
| 175 | Hacıyev Habil Bəylər oğlu | 1971 | Qusar rayonu Urva kəndi | |
| 176 | Hacıyev İslam Xeyrulla oğlu | 1968 | Qusar rayonu Urva kəndi | |
| 177 | Hacıyev Səməd Əliağa oğlu | 1965 | Buduq kəndi | |
| 178 | Hacıyev Süleyman Mahmud oğlu | 1964 | Vladimirovka kəndi | |
| 179 | Hacıyev Şövkət Feyzulla oğlu | 1954 | Xucbala kəndi | I bölük I tağım komandiri |
| 180 | Hacıyev Vüqar Fərhad oğlu | 1971 | Quba şəhəri | 24.01.1994 |
| 181 | Heybətov Firuz Xudabaxış oğlu | 1974 | Talaba kəndi | Şəhid olub. 05.03.1994 |
| 182 | Heybətov Heybət Ağaverdi oğlu | 1961 | II Nügədi kəndi | |
| 183 | Heydərov Cəmil Cəlaləddin oğlu | 1969 | Güləzi kəndi | Vəfat edib |
| 184 | Heydərov Nizaməddin Şəmsəddin oğlu | 1960 | Quba şəhəri | |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 185 | Heydərov Ruslan Yanvar oğlu | 1971 | Küpçal kəndi | |
| 186 | Həsənbəyov Mübariz Həmzə oğlu | 1968 | Quba şəhəri | |
| 187 | Həsənov  Qurban Ələsgər oğlu | 1970 | Yelenovka kəndi | |
| 188 | Həsənov Aqil Rəcəb oğlu | 1969 | Qonaqkənd kəndi | |
| 189 | Həsənov Elçin Minayət oğlu | 1963 | Güləzi kəndi | |
| 190 | Həsənov Firuz Abuturab oğlu | 1960 | Yerfi kəndi | |
| 191 | Həsənov Hicran Səməndər oğlu | 1971 | Vəlvələ kəndi | Vəfat edib |
| 192 | Həsənov İlham Gülməmməd oğlu | 1974 | Vladimirovka kəndi | İtgin düşüb 01.02.1994. |
| 193 | Həsənov Qalib Xanlar oğlu | 1967 | Yerfi kəndi | |
| 194 | Həsənov Nöhbala Hörmət oğlu | 1965 | Zərdabi kəndi | |
| 195 | Həsənov Vüqar Qazəhməd  oğlu | 1967 | Buduq kəndi | |
| 196 | Həsənov Vüqar Şahbala  oğlu | 1971 | Alpan kəndi | |
| 197 | Həsənov Yafət Oqtay oğlu | 1970 | Yerfi kəndi | |
| 198 | Həsənov Yaşar İcazəddin oğlu | 1969 | Gərəy kəndi | |
| 199 | Həsənov Zakir Məstan oğlu | 1958 | Vladimirovka kəndi | |
| 200 | Hidayətov Bayram Xanmurad oğlu | 1972 | Qonaqkənd kəndi | |
| 201 | Hidayətov İmran Hacımurad oğlu | 1971 | Qonaqkənd kəndi | Şəhid olub. 23.01.1994. |
| 202 | Hüseynav  İdris Qonaqbəy oğlu | 1963 | Zərdabi kəndi | Yaralanıb |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 203 | Hüseynov İsgəndər Əhməd oğlu | 1971 | Aşağı Atuc kəndi | |
| 204 | Hüseynov İlham Rafiq oğlu | 1970 | Qusar şəhəri | |
| 205 | Hüseynov Ramazan Hüseynağa oğlu | 1962 | Tüləkərən kəndi | İtgin düşüb 31.01.1994 |
| 206 | Hüseynov Vüqar Rəhim oğlu | 1964 | Quba şəhəri | |
| 207 | Xalidov Səbri Səlim oğlu | 1971 | I Nügədi kəndi | |
| 208 | Xanbabayev Fərhad Qərib oğlu | 1970 | Talabı kəndi | Şəhid olub. 03.03.1994. |
| 209 | Xanəliyev Ayaz Xanlar oğlu | 1968 | Aşağı Susay kəndi | |
| 210 | Xankişiyev Nazim Beykəs oğlu | 1967 | Qonaqkənd kəndi | |
| 211 | Xanmədov Kamran Xalid oğlu | 1973 | Qusar şəhəri | |
| 212 | Xanmədov Valeh Xanməd oğlu | 1963 | Əlibəy-Qışlaq kəndi | |
| 213 | Xeyrullayev Eynulla Niftulla oğlu | 1960 | II Nügədi kəndi | |
| 214 | Xələfov İlqar Sultan oğlu | 1966 | Rük kəndi | |
| 215 | Xıdırov Sədrəddin Bəyəhməd oğlu | 1968 | İspik kəndi | |
| 216 | İbadov Ənvər Mirzağa oğlu | 1964 | Quba şəhəri | |
| 217 | İbadov Heydər Camal oğlu | 1969 | Rük kəndi | |
| 218 | İbrahimov Firuddun Kərim oğlu | 1971 | Vladimirovka kəndi | |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 219 | İbrahimov İmran Mövsüm oğlu | 1967 | Yelenovka kəndi | |
| 220 | İbrahimov Nazim Məmmədağa oğlu | 1970 | Quba şəhəri | |
| 221 | İsabalayev Günəş Şahverdi oğlu | 1974 | Buduq kəndi | |
| 222 | İsayev İbrahim Məhərrəm oğlu | 1962 | Amsar kəndi | |
| 223 | İsfəndiyari Əjdər Bəhmən oğlu | 1958 | Zərdabi kəndi | |
| 224 | İsgəndərov Fərman Rəhman oğlu | 1968 | Vəlvələ kəndi | |
| 225 | İsgəndərov Xəzər Mayıl oğlu | | II Nüqədi kəndi | 19.04.1994 |
| 226 | İsgəndərov Məhəmməd Polad oğlu | 1960 | Quba şəhəri | |
| 227 | İsgəndərov Rəşid Camalağa oğlu | 1971 | I Nügədi kəndi | |
| 228 | İsgəndərov Samir Əmirxan oğlu | 1964 | Əskiqriq kəndi | |
| 229 | İsgəndərov Vəli Hacıbaba oğlu | 1971 | Petropavlovka kəndi | Yaralanıb |
| 230 | İslamov Adil Şixkərim oğlu | 1967 | Yelenovka kəndi | |
| 231 | İslamov İslam İkram oğlu | 1964 | Alpan kəndi | |
| 232 | İsmayılbəyov İbrahim İslam oğlu | 1962 | Quba şəhəri | |
| 233 | İsmayılov Fizuli Rəsul oğlu | 1966 | I Nügədi kəndi | |
| 234 | İsmayılov Hikmət Qurban oğlu | 1962 | Rustov kəndi | II qr. əlil |
| 235 | İsmayılov Xaqani Seyidşah oğlu | 1972 | Yelenovka kəndi | Şəhid olub. 03.03.1994. |
| 236 | İsmayılov Mahir Ələkbər oğlu | 1971 | Quba şəhəri | |
| 237 | İsmayılov Məhərrəm Əsəd oğlu | 1965 | Zərdabi kəndi | |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 238 | İsmayılov Rövşən Fazil oğlu | 1971 | Qusar rayonu Bədirqala kəndi | |
| 239 | İsmayılov Vahid Saval oğlu | 1972 | Aşağı Ərməki kəndi | |
| 240 | İsrafilov Səməndər Səfər oğlu | 1969 | Alıc-digah kəndi | Yaralanıb |
| 241 | İsrafilov Vüqar Məhəddin oğlu | 1971 | Rustov kəndi | |
| 242 | Kazımov Fərhad Ələkbər oğlu | 1958 | Quba şəhəri | I bölük kom.müavini. II qrup əlili |
| 243 | Kazımov Pirəli Ələkbər oğlu | 1960 | Quba şəhəri | |
| 244 | Kərimov Asəf Şıxsəfa oğlu | 1968 | İsnov kəndi | |
| 245 | Kərimov Bəxtiyar Teymur oğlu | 1970 | Zərdabi kəndi | |
| 246 | Kərimov Həbib Adil oğlu | 1970 | I Nügədi kəndi | |
| 247 | Kərimov İltifat Azay oğlu | 1969 | İsnovqışlaq kəndi | |
| 248 | Kərimov İslam Tacı oğlu | 1970 | I Nügədi kəndi | Şəhid olub. 05.03.1994. |
| 249 | Kərimov Osman Məmmədşərif oğlu | 1966 | Rük kəndi | |
| 250 | Qadaşev  Kamran Zaman oğlu | 1962 | Güləzi kəndi | |
| 251 | Qafarov Etibar Tapdıq oğlu | 1970 | Quba şəhəri | |
| 252 | Qafarov Nəsib Dilbar oğlu | 1970 | Söhüb kəndi | |
| 253 | Qalimov Zeynal Şixbaba oğlu | 1968 | Zərqava kəndi | |
| 254 | Qaniyev Fuad Nəcmulla oğlu | 1969 | Yerfi kəndi | |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 255 | Qasımov Əlişan Seyidəhməd oğlu | 1966 | Alekseyevka kəndi | |
| 256 | Qasımov İslam Müzafəddin oğlu | 1970 | Çiçi kəndi | |
| 257 | Qasımov Bəhram Ənvər oğlu | 1967 | Quba şəhəri | |
| 258 | Qasımov Elşən İbrahımxəlil oğlu | 1966 | Afurca kəndi | Yaralanıb |
| 259 | Qasımov Müşfiq Cəfər oğlu | 1969 | Quba şəhəri | II qr. əlil |
| 260 | Qasımov Yaşar Şirinbala oğlu | 1971 | Quba şəhəri | |
| 261 | Qədimov Baxış Qədir oğlu | 1966 | Alekseyevka kəndi | |
| 262 | Qədimov Nadir Bilali oğlu | 1962 | Zərqova kəndi | |
| 263 | Qədirov Bəhlul Qadir oğlu | 1966 | Qəcərzəyid kəndi | |
| 264 | Qədirov Elçin Nöhbala oğlu | 1972 | I Nügədi kəndi | |
| 265 | Qəmbərov Habil Balasultan oğlu | 1975 | Qırız Dəhnə kəndi | Şəhid olub |
| 266 | Qəmbərov Ramiz Rüstəm oğlu | 1970 | Vladimirovka kəndi | II qr. əlil. Yaralanıb |
| 267 | Qəniyev Şaiq Əsəd oğlu | 1971 | Yerfi kəndi | |
| 268 | Qılıncov Mais Nüsrət oğlu | 1973 | Petropavlovka kəndi | |
| 269 | Qocayev Sultan Rəhman oğlu | 1969 | Quba şəhəri | |
| 270 | Qonaqov Aqşin Baxşali oğlu | 1971 | II Nügədi kəndi | |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 271 | Qubadov Süleyman İmanqulu oğlu | 1961 | I Nügədi kəndi | |
| 272 | Qubatov Elçin Surxay oğlu | 1970 | Yelenovka kəndi | II qrup əlil |
| 273 | Qulaməliyev Nuru Minatəyin oğlu | 1968 | Vəlvələ kəndi | |
| 274 | Quliyev Elman Niftulla oğlu | 1966 | Alpan kəndi | |
| 275 | Quliyev Elşən Niştulla oğlu | 1968 | Alpan kəndi | |
| 276 | Quliyev Əfqan Sabir oğlu | 1970 | Alpan kəndi | III qr. əlil |
| 277 | Quliyev Həbib Yunis oğlu | 1973 | Amsar kəndi | |
| 278 | Quliyev Övsət Cəlal oğlu | 1972 | Xucbala kəndi | |
| 279 | Quliyev Vahid Sərkər oğlu | 1970 | Yelenovka kəndi | İtgin düşüb 01.02.1994 |
| 280 | Qurbanov Bayramşah Paşa oğlu | 1959 | I Nügədi kəndi | |
| 281 | Qurbanov Kamil Məhiəddin oğlu | 1972 | Qərəy kəndi | |
| 282 | Quşqari Aslan Əvəz oğlu | 1968 | Quba şəhəri | |
| 283 | Laçınov Rauf Şövkət oğlu | 1973 | Ağbil kəndi | Yaralanıb |
| 284 | Laçınov Umud Şahseyid oğlu | 1966 | Quba şəhəri | |
| 285 | Mahmudov Əmrah Mahmud oğlu | 1968 | Zərqava kəndi | |
| 286 | Mahmudov Fazil Musa oğlu | 1970 | Vladimirovka kəndi | Yaralanıb |
| 287 | Mahmudov Tofiq Mirzə oğlu | 1971 | Quba şəhəri | |
| 288 | Mamasiyev Qadir Mamasi oğlu | 1968 | Yerfi kəndi | |
| 289 | Manafov Hikmət Sabir oğlu | 1971 | Qonaqkənd kəndi | II qr.əlil |

| Sıra № | Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer | Qeyd |
|---|---|---|---|---|
| 290 | Mayılov Bəxtiyar Gülmalı oğlu | 1970 | Xaltan kəndi | |
